Xalqın qəzeti!

# Xalq qəzeti

№ 139 (30255) 7 iyul 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması Azərbaycanın sədrliyinin növbəti nailiyyətidir. Biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik.

## Bakı dünyanın diqqət mərkəzindədir

## Prezident İlham Əliyev Əlcəzairin xarici işlər və xaricdəki milli icma nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Əhməd Attafı qəbul edib.**

Əhməd Attaf Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun salamlarını dövlətimizin başçısına çatdırdı, Prezident İlham Əliyevin onun dəvəti ilə Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında xüsusi qonaq qismində iştirakına görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev salamlara və Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında iştiraka dəvətə görə Əlcəzair Prezidentinə təşəkkürünü bildirdi və onun da salamlarını Abdelmacid Tebbuna çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı, həmçinin Əlcəzair Prezidentini ölkəmizə rəsmi səfərə dəvət etdi.

Əhməd Attaf Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinə, Hərəkatın təsisatlanması istiqamətində həyata keçirdiyi işlərə görə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı ölkələrimiz arasında tarixi əlaqələrin olduğunu qeyd etdi, Sovetlər Birliyi dövründə çox sayda azərbaycanlı mütəxəssisin Əlcəzairdə fəaliyyət göstərdiyini, bu ölkənin inkişafına öz töhfələrini verdiyini vurğuladı, eyni zamanda, həmin dövrdə Əlcəzairdən olan çox sayda tələbənin də Azərbaycanda təhsil aldığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının təsisatlanması çərçivəsində həyata keçirdiyi işlərdən danışdı, ölkəmizin təşəbbüsü ilə bu Hərəkatın gənclər təşkilatının və parlament şəbəkəsinin yaradıldığını dedi, Azərbaycanın, eyni zamanda, Qoşulmama Hərəkatı çərçivəsində qadın platformasının yaradılması təşəbbüsü ilə çıxış etdiyini, sədrlik dövründə bu istiqamətdə də müvafiq tədbirləri həyata keçirəcəyini vurğuladı.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyinin uğurla həyata keçirilməsində göstərdiyi dəstəyə görə Əlcəzair tərəfinə təşəkkürünü bildirdi.

Görüşdə Azərbaycan ilə Əlcəzair arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, beynəlxalq təşkilatlar çərçivəsində, həmçinin OPEC+ formatında əməkdaşlıq məsələləri müzakirə olundu.

***AZƏRTAC***

## Qoşulmama Hərəkatının nazirlər görüşü yeni təşəbbüslərlə yadda qaldı



**Dövlət başçımızın istənilən çıxış, nitq və ya müsahibəsində mütləq maraqlı məqamlar, insanların eşitmək istədiyi fikirlər, yeni faktlar olur. Hətta, cənab Prezidentin bəzi çıxışlarındakı hansısa ifadələr sonradan kəlama çevrilir, xalq tərəfindən dəfələrlə təkrarlanır, dillər əzbəri olur. Cənab Prezidentin Qoşulmama Hərəkatının son tədbirindəki çıxışı da bir çox məqamlarla yaddaşlarda uzun müddət qalacaq. Belə faktlar çox olsa da, mən Avropa ölkələri haqqında səsləndirilən fikirlərdən birini daha tez yadda saxladım.**

Söhbət ondan gedir ki, Prezident İlham Əliyevin həmin tədbirdəki çıxışında mən "köhnə qitə"nin iki tanınmış ölkəsinin timsalında fərqli Avropa gördüm. Biri kral üsul-idarəsini hələ də qoruyub saxlamış Niderland, digəri isə Avropaya "respublika" və "demokratiya" sözlərini gətirmiş Fransa idi. Niderland tarixdəki günahlarının bir çoxunun silinməsi üçün müəyyən addımlar atsa da, Fransa hələ də "günah ümmanında" çapalamaqdadır.

*(ardı 3-cü səhifədə)*

## Xankəndi nə sülhə hazırdır, nə də müharibəyə



Səhifə ⇨ 3

## Müstəmləkəçilik Fransanın üz qarasıdır




Səhifə ⇨ 7

## Prezident İlham Əliyevin anti-müstəmləkə manifesti və Fransanın ifşası



Səhifə ⇨ 6

## Qarabağda daralan çənbər: Paşinyanın Putinə zəngi və Arayikin küskün yalvarışı



Səhifə ⇨ 6

## "Rubl" "dollar"a uduzur, "manat"a isə təsir etmir



Səhifə ⇨ 9

## Müstəmləkəçilik əleyhinə Bakı bəyanatı



Səhifə ⇨ 8

## Təhsildə sertifikatlaşdırma Azərbaycan məktəbinə nə verir?



Səhifə ⇨ 10

## Hayların döyməmdiyi qapı qalmadı

Səhifə ⇨ 7

## Rusiya XİN sözçüsünün gecikmiş etirafı: Fransa vasitəçi rolunu gözdən salıb!

Səhifə ⇨ 10

## Qeyri-neft sektorundan vergi daxilolmaları çoxalıb



Səhifə ⇨ 9

# Nepal Azərbaycanı inkişaf etməkdə olan ölkələrə nümunə hesab edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Narayan Prakaş Saudu qəbul edib.**

Bakının gözəlliyinin onu valeh etdiyini deyən Narayan Prakaş Saud Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qısa müddət ərzində böyük nailiyyətlər əldə etdiyini vurğuladı, Azərbaycanın inkişaf etməkdə olan ölkələr üçün nümunə olduğunu dedi. Nepalın xarici işlər naziri ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Nepallı tələbələrin Azərbaycanın təqdim etdiyi təqaüd proqramları çərçivəsində təhsil aldıqlarını deyən qonaq buna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Nepalın beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığını qeyd etdi, ölkələrimiz arasında münasibətlərin həmişə yaxşı olduğunu, lakin əlaqələri daha da genişləndirmək üçün böyük imkanların mövcudluğunu vurğuladı.

Dövlətimizin başçısı ölkəmizin təşəbbüsü ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradıldığını dedi, hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində iş aparıldığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurla həyata keçirilməsində göstərdiyi dəstəyə görə Nepala təşəkkürünü bildirdi.

Görüşdə ölkələrimiz arasında biznesin, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, bu xüsusda nümayəndə heyətlərinin mübadiləsi məsələləri müzakirə olundu.

# BMT-nin Cenevrə ofisi ölkəmizlə əməkdaşlığın inkişafını təqdir edir

**İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovayanı qəbul edib.**



Tatyana Valovaya Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə BMT-ni təmsil etdiyinə görə məmnunluğunu bildirdi və Azərbaycanın Hərəkatda uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. O, BMT-nin Cenevrə ofisi və Cenevrədə ixtisaslaşmış BMT təşkilatları ilə ölkəmiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.

Tatyana Valovaya BMT-nin Qadınlar Davamlı İnkişaf Məqsədi üzrə təşəbbüsünün inkişaf etdirilməsində Azərbaycanın verdiyi dəstəyi yüksək qiymətləndirdi, Prezident İlham Əliyevin minaların təmizlənməsi üzrə yeni Dayanıqlı İnkişaf Məqsədinin yaradılması təşəbbüsünün çox dəyərli və vacib olduğunu vurğuladı. O, BMT çərçivəsində üzv dövlətlərlə birgə bu istiqamətdə müzakirə aparılmasının mümkünlüyünü və önəmini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi təşkilatın təsisatlanmasına və ölkəmizin multilateralizmə daim böyük əhəmiyyət verdiyini bildirdi, Hərəkatın təsisatlanması istiqamətində ölkəmiz tərəfindən aparılan işlərin, xüsusilə də Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması təşəbbüslərini qeyd etdi. Prezident İlham Əliyev, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində qadın platformasının yaradılması istiqamətində təşəbbüslə çıxış etdiyini vurğuladı. Azərbaycanın Ermənistan işğalından azad edilmiş torpaqlarımızın minalarla çirkləndirilməsi problemi ilə üzləşdiyini qeyd edən dövlətimizin başçısı minaların təmizlənməsinin də Dayanıqlı İnkişaf Məqsədi kimi təsbit olunmasının vacibliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təşəbbüsü ilə çıxış etdiyini və ölkəmizin humanitar minatəmizləmə sahəsində müasir texnologiyalardan səmərəli şəkildə istifadə etdiyini bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, 2020-ci il noyabrın 10-dan sonra 300-dən çox azərbaycanlı mina partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb.

Görüşdə BMT sistemində çalışan Azərbaycan vətəndaşlarının mövcud kvotalara uyğun olaraq sayının artırılması məsələsinin vacibliyi də müzakirə edildi.

***AZƏRTAC***

# Əlcəzairli nazir Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini yüksək dəyərləndirib

**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə iştirak etmək məqsədilə ölkəmizə səfərdə olan Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Ahmed Attafın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

O, Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün əhəmiyyətini vurğulayaraq, belə tədbirlərin beynəlxalq gündəlikdə duran bir çox məsələlərin, o cümlədən ikitərəfli münasibətlərin müzakirəsi üçün uğurlu platforma olduğunu qeyd edib.

Ölkələrimizi birləşdirən dostluq münasibətləri və ortaq dəyərlərdən söz açan parlamentin Sədri Əlcəzairin Ermənistanla münaqişə dövründə İslam Əməkdaşlıq Təşkilatında Azərbaycanı dəstəklədiyini bildirib, həmçinin Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüslərinə qoşulduğunu xüsusi vurğulayıb.

***Ə.BƏDƏLOV, "Xalq qəzeti"***

# Albaniya Prezidenti Bayram Beqay Azərbaycana rəsmi səfərə gəlib



**Albaniya Respublikasının Prezidenti Bayram Beqay iyulun 6-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Bayram Beqayı və xanımı Armanda Beqayı hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 201** **Bakı şəhəri, 20 iyun 2023-cü il**

***"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydalarının və normalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 mart tarixli 117 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydalarının və normalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 mart tarixli 117 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 785, № 11, maddə 1943) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydaları"nın 6-cı, 10-cu hissələrində və 12-ci hissənin birinci, ikinci cümlələrində "Təchizat İdarəsi" sözləri "Maddi-Texniki Təminat Baş İdarəsi" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin böyük, orta, kiçik rəis və sıravi heyətlərinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Norması" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# T.İ.Sinyavskayanın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin təbliği sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Tamara İlyiniçna Sinyavskaya "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyul 2023-cü il**

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2023-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Dövrün görkəmli ədəbi simalarının və məşhur sənət adamlarının tədrisə cəlb edildiyi Bakı Teatr Məktəbinin bazasında təşkil olunmuş Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ölkənin zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Ötən müddət ərzində Universitet milli mədəniyyətin və incəsənətin tərəqqisi işinə mühüm töhfələr vermişdir. Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimləri arasında bu nüfuzlu təhsil ocağının çox sayda məzunu vardır. Universitetin yetirmələri hazırda respublikamızda və onun hüdudlarından kənarda müvəffəqiyyətlə çalışırlar. Fəaliyyətini dövlətin mədəniyyət və təhsil strategiyalarının hədəflərinə uyğun, müasir tələblər səviyyəsində quran Universitet mədəniyyətin və incəsənətin bütün başlıca sahələrini əhatə edən müvafiq ixtisaslar üzrə genişprofilli şəbəkə formalaşdırmış, həmçinin dünyanın bir sıra ölkələrinin ali təhsil və mədəniyyət mərkəzləri ilə qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələri yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli mədəniyyətin, incəsənətin inkişafında və bu istiqamətdə mütəxəssis hazırlığında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin xüsusi xidmətlərini nəzərə alaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyul 2023-cü il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 219** **Bakı şəhəri, 25 iyun 2023-cü il**

***"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1936 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 220** **Bakı şəhəri, 4 iyul 2023-cü il**

***"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 dekabr tarixli 261 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 16-cı hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 dekabr tarixli 261 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1152; 2007, № 6, maddə 702; 2010, № 5, maddə 472; 2012, № 4, maddə 390; 2016, № 5, maddə 966; 2017, № 3, maddə 489; 2020, № 7, maddə 994) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollegiya üzvlərinin sayı 11 (on bir) nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının rəhbəri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Ailə məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Qadın və gender məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Uşaq məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Xarici əlaqələr və protokol xidməti şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Hüquqi-təminat şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Analitik təhlil və informasiya şöbəsinin müdiri.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qoşulmama Hərəkatının nazirlər görüşü yeni təşəbbüslərlə yadda qaldı




*Hazırda beynəlxalq təşkilatlar, xüsusilə BMT bəşəriyyətin gözləntilərinə cavab vermir. BMT-də ciddi islahatların aparılması qaçılmazdır... Əvvəllər qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir. Zənnimizcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar.*

**Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşündəki çıxışından**
**Bakı, 5 iyul 2023-cü il.**

*(əvvəli 1-ci səhifədə)*

Çoxlarının bilmədiyi fakt olduğuna görə, bu arqument böyük maraqla qarşılanıb. Cənab Prezident dedi: “Bir neçə gün əvvəl Niderland Kralı ölkəsinin müstəmləkə keçmişinə və qul ticarəti ilə məşğul olduğuna görə rəsmən üzr istəyib. Biz onun fransız həmkarını da həmin hərəkəti etməyə çağırırıq. Heç vaxt olmamaqdansa, gec olması yaxşıdır. Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək”.

Dövlət başçımız təşəbbüs irəli sürür ki, Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və törətdiyi soyqırımlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər dövlətlərdən üzr istəməlidir. Rəsmi Paris isə hələ də ermənidən çox ermənilik edərək Azərbaycan ərazilərinin 20 faizini otuz il viranəyə çevirmiş ermənilərə mələk donu geyindirməkdədir.

Makron Fransası (onun hakimiyyətə gəlməsinədək heç bir dövlət başçısı Fransanı bu qədər problemlə üzləşdirməmişdi – İ.M.) bir tərəfdən həmin ölkənin tarixi sakinlərindən olan Korsika xalqının dilinə qadağa qoyur və etnik azlıqlar konsepsiyasını qəbul etmir, digər tərəfdən isə özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır. Dövlət başçımızın fikrincə, bu, riyakarlıq və ikili standartlardan başqa bir şey deyil.

Xatırladaq ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi müddətində hərəkatın institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması ölkəmizin sədrliyinin növbəti nailiyyətidir. Odur ki, dövlət başçımız daha bir təşəbbüsdən də söz açaraq dedi ki, biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik. İnstitusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq.

Bu tədbirdə bizi daha çox maraqlandıran məqamlardan biri də müasir dünyanı daha çox narahat edən yeni müstəmləkəçilik meyillərinin artması barədə deyilənlər idi. Azərbaycan Prezidenti beynəlxalq aləmdə neokolonializm kimi adlandırılan bu mənfi tendensiyaya da öz münasibətini bildirir. Dövlət başçısı xatırladır ki, dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir.

Çox təəssüf ki, həmin mənfi tendensiyanı “yaşadan” ölkələrdən biri də məhz Fransadır. Məlum faktdır ki, Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. QH sədri yada salır ki, Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir.

Dövlət başçımızın başqa bir təşəbbüsü, daha doğrusu, tələbi ondan ibarətdir ki, hələ də Paris muzeyində saxlanılan əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri (bu, utancverici və iyrənc hərəkətdir – İ.M.) və həmin qəhrəmanların digər qalıqları Əlcəzairə təhvil verilməlidir. Yəqin ki, diqqətli oxucularımız bu məqamda Ermənistan rəhbərliyinin Birinci Qarabağ müharibəsi zamanı “itkin düşmüş” dörd minə yaxın soydaşımızın qalıqlarının Azərbaycana vermədiyini xatırladı və Parislə İrəvan arasındakı oxşarlıqların fərqinə vardı.

Yeri gəlmişkən, Qarabağ münaqişəsinin, xüsusən, Ermənistanın işğalının bir mənfi fəsadı itkin düşənlərimiz haqqında məlumatların gizlədilməsidirsə, digər fəsadı da işğal edilmiş ərazilərimizin hər addımında basdırılmış minalardır. Dövlət başçımız xatırladır ki, Azərbaycan hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır: “2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlayışı nəticəsində təxminən 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. İşğaldan azad edilmiş ərazilərdə baş verən hər bir mina partlayışı Ermənistanın törətdiyi hərbi cinayətlərin uzun siyahısının davamıdır. Mina problemi Ermənistan tərəfindən Azərbaycan xalqının fundamental insan hüquqlarının pozulmasıdır”.

Nəhayət, dövlət başçımızın bütün dünyanın eşidəcəyi tərzdə səsləndirdiyi başqa bir tələb hələ də ərazilərimizdə mövcud olan Ermənistan hərbi birləşmələrinin buradan birdəfəlik və tamamilə çıxarılmasıdır: “Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir!”

Zənnimizcə, bu tələbin beynəlxalq aləmə eşitdirilməsi həmin tədbirin xüsusi əhəmiyyətlərindən biridir.

*İttifaq MİRZƏBƏYLİ,*
*“Xalq qəzeti”*

# Müstəmləkəçilik bəşər tarixinin rüsvayçılıq səhifəsidir

**“Müstəmləkəçilik, o cümlədən neokolonializm bəşər tarixinin rüsvayçılıq səhifəsidir”.**



Bu sözləri Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviter səhifəsində yazıb.

O, Bakıda keçirilən Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun Nazirlər iclası çərçivəsində təşkil edilən “Müstəmləkəçilik fotolarda” adlı sərgidən video da paylaşıb.

# Xankəndi nə sülhə hazırdır, nə də müharibəyə

**Son günlər Xankəndidə baş verən proseslər – separatçılar arasında qarşıdurmanın dərinləşməsi, qondarma rejimin rəhbəri Arayik Arutyunyana müxalif qüvvələrin fəallaşması, sadə vətəndaşlara qarşı təzyiqlərin çoxalması fonunda kütləvi narazılıq artmaqdadır. Separatçılar arasındakı qarşıdurma və gərginliyi artıran başlıca amillərdən biri isə rəsmi Bakı ilə münasibətlərə fərqli yanaşmalardır.**

### Arutyunyanın “prezidentlik” iddiasına qurban verdiyi gənclər...

Uzun illər ərzində özünü işğal edilmiş Azərbaycan ərazilərindəki qondarma qurumun “bir nömrəli şəxsi” hesab edən və 44 günlük Vətən müharibəsindən sonra da “prezidentlik” arzusundan əl çəkə bilməyən Arayik Arutyunyan, bu gün də erməni gənclərini heç vaxt reallaşmayacaq xəyali arzu uğrunda fəda etməkdədir. Xankəndi və ətraf ərazilərdə hərbi baxımından möhkəmlənməyə çalışan Arayik rejimi, bu məqsədlə rəsmi İrəvan, eləcə də xaricdəki erməni havadarları ilə mütəmadi danışıqlar aparmaqdadır. Separatçıların rəhbəri kiçik bir bölgədə də olsa öz liderliyini qoruyub saxlamağa, bu ərazilərdə “birinci adam” statusunu itirməməyə çalışır.

Arayik və onun əlaltılarından Azərbaycana qarşı istifadə etməyə, bölgədəki status-kvonu dəyişməyə çalışan rəsmi İrəvan isə artıq xeyli müddətdir ki, Xankəndiyə davamlı şəkildə hərbi yardımlar göndərməkdədir. İrəvan separatçıların köməyinə yalnız silah-sursat deyil, həm də canlı qüvvə göndərir ki, separatçılarla son qarşıdurmada Ervand Tadevosyan və Samvel Torosyan adlı iki Ermənistan vətəndaşının cəsədinin Azərbaycan ərazisində qalması faktı bunu sübut edir.

Arayikin “prezidentlik” iddiası Xankəndidəki erməni gəncləri üçün də əsl kabusa çevrilib. Nəyin bahasına olursa-olsun bu ərazidə öz hərbi mövcudluğunu qorumağa çalışan separatçı rejim, dinc erməniləri məcburi şəkildə hərbi xidmətə, müxtəlif təxribatlara cəlb edir, öz ambisiyalarını onların məhvi hesabına reallaşdırmağa çalışır.

Arayik Arutyunyanın bu dəsti-xətti sadə ermənilərlə yanaşı, Xankəndidəki rejimə müxalif olan separatçılar tərəfindən də açıq narazılıqla qarşılanmaqdadır.

### Samvel Babayanın “sülh arzusu”

Qondarma “Vahid Vətən” partiyasına rəhbərlik edən Samvel Babayan isə Arayikdən fərqli olaraq, rəsmi Bakı ilə danışıqlara getməyi daha məqsədəuyğun hesab edir. Samvel Babayanın qənaətincə, problemin tənzimlənməsi üçün öncə Bakı ilə Xankəndi arasında “qarşılıqlı etimad” formalaşmalıdır. Babayanın fikrincə, yalnız bundan sonra digər məsələləri həll etmək mümkündür.

Samvel Babayanın sərgilədiyi mövqe Arayik rejiminin yanaşma tərzindən ciddi şəkildə fərqlənsə də, partiya sədrinin bu mövqeyi onun həqiqətən də sülhpərvər insan olmasından irəli gəlmir. Əslində, Arayik kimi Samvel Babayan da Xankəndi və ətraf ərazilərin Azərbaycanın nəzarəti altına düşməsini istəmir. Birinci Qarabağ müharibəsində qeyri-adi vəhşiliyi ilə ad çıxaran Babayan hesab edir ki, indiki məqamda nə separatçılar, nə də İrəvan Azərbaycanla müharibə aparmaq üçün gərəkli potensiala malik deyil. Samvel Babayanın fikrincə, hazırkı şəraitdə Azərbaycanla hərbi qarşıdurma Xankəndidəki separatizmin sonu ola bilər. Buna görə də, bir tərəfdən, İrəvandan Xankəndiyə hərbi yardımların daşınmasına göz yuman Babayan, digər yandan sülhün önəmindən bəhs edir, Arayik rejiminin sərt siyasi tərzini tənqid edir.

Samvel Babayan Rusiya sülhməramlılarının bölgədə qalmasını da separatizmin qorunması baxımından zəruri hesab edir. O, mətbuata açıqlamasında bildirib ki, indiki şəraitdə ermənilər sülhməramlıların bölgədən çıxmasına “hə” deməyəcək: “Qarşılıqlı etimad yoxdursa, sizi inandırıram ki, biz 30 il danışıqlar apardıq və heç nəyə nail olmadıq. Daha 30 il danışıqlar aparsaq da, heç nəyə nail olmayacağıq. Azərbaycan nə qədər Rusiyanı buradan mümkün qədər tez çıxarmağa çalışsa da, qarşılıqlı etimad olmasa, buna nail olmayacaq”.

Göründüyü kimi, Samvel Babayan “qarşılıqlı etimadı” Xankəndinin silahlanması, separatçıların Rusiya sülhməramlılarının himayəsi altında öz hərbi potensialını genişləndirməsi fonunda təmin etməyə çalışır. Bu isə Azərbaycanın maraqları baxımından qəbuledilməzdir.



### Əgər sözlə anlamasalar...

Separatçıların bəlli bir qrupunun sülhün zəruriliyi ilə bağlı ard-arda verdiyi bəyanatların digər bir səbəbi isə mütəmadi erməni təxribatlarına cavab olaraq rəsmi Bakının bölgədə geniş antiterror əməliyyatı həyata keçirəcəyi ilə bağlı ehtimallardır. Bu ehtimal separatçılar arasında qorxu və təşvişi artırmaqda, daxili gərginliyi bir qədər də gücləndirməkdədir.

Əslində, erməni təxribatlarının uzun zamandır ki, davam etdiyini nəzərə alsaq, rəsmi Bakının belə bir əməliyyata istənilən an start verə biləcəyi ehtimalı böyükdür.

**Mövzu ilə bağlı qəzetimizə açıqlama verən ekspert Züriyə Qarayeva separatçılara qarşı iriqmiqyaslı əməliyyatın gerçəkləşə biləcəyini, bunun artıq zərurətə çevrildiyini vurğulayıb:** “Onlar silaha əl atmaqla dünyaya nəsə göstərməyə çalışsalar da, biz Vaşinqtona və digər güclərə göstəririk ki, əlisilahlı ermənilər bölgədə olduğu müddətdə bu görüşlərin heç bir əhəmiyyəti qalmır. Sülh dialoqunun əhəmiyyətini artırmaq üçün bizim müəyyən “işləri” görməyimizə ehtiyac var. Bu “işlərin” silahsız ermənilərin hüquq və təhlükəsizliyi məsələsinə heç bir aidiyyəti yoxdur. Azərbaycan Ordusu Qarabağdakı silahlı terrorçulara qarşı əməliyyat keçirərək, separatçı rejimi “gorbagor” edəcək. Əgər onlar normal dildə anlamasalar, növbəti “Qisas”la saxta atributlarını da, silahlılarını da cəhənnəmə vasil edəcəyik”.

Deyilənlərdən aydın olduğu kimi, Xankəndi nə sülhə hazırdır, nə də müharibəyə. Bu isə o deməkdir ki, prosesə son nöqtəni Bakı qoymalı olacaq.

***Ə.SEYMUR***

# Azərbaycan Prezidentindən humanitar təklif: Dinc insanları xilas etməkdə həmfikir olaq

## *Qlobal minatəmizləmə təşəbbüsü*

**Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda keçirilən nazirlərin görüşündə çıxış edən Prezident İlham Əliyev Ermənistanın Azərbaycan xalqına qarşı yol verdiyi ağır hərbi cinayətlərə, eləcə də mina terroruna diqqət çəkib, bu təhlükəyə qarşı qlobal mübarizənin zəruriliyini vurğulayıb.**

Azərbaycanın dövlət başçısı görüşdə Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifini irəli sürüb. Prezident İlham Əliyev qeyd edib ki, belə bir qrupun yaradılması Qoşulmama Hərəkatına üzv dövlətlərin səsinin qlobal miqyasda daha aydın eşidilməsini təmin edə bilər: “Minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıdışını ləngidir. Bunu nəzərə alaraq, Azərbaycan humanitar minatəmizləmə üzrə xüsusi milli Dayanıqlı İnkişaf Məqsədi müəyyənləşdirib. Bundan başqa, Azərbaycan qlobal miqyasda humanitar minatəmizləmə səylərini dəstəkləyir və minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təklifini irəli sürüb.

Əminəm ki, Qoşulmama Hərəkatının üzv dövlətləri səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifimizi dəstəkləyəcəklər”.

Prezident İlham Əliyevin bu təklifi bir çox baxımdan ciddi əhəmiyyətə malikdir. Təklifin reallaşması, ilk növbədə, əraziləri minalarla çirklənən ölkələrdəki mövcud durum, mina təhlükəsinin doğurduğu ağır fəsadlar haqqında beynəlxalq təşkilatların, dünya dövlətlərinin ətraflı məlumatlandırılmasını təmin edəcək. Bu isə minalara qarşı birgə mübarizə, onun fəsadlarının aradan qaldırılmasında həmrəyliyin təmini baxımından çox əhəmiyyətlidir.




Təkliflə bağlı ikinci mühüm məsələ Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması bu cinayəti həyata keçirən dövlətlərə qarşı təsirli cəza mexanizminin formalaşmasını və tətbiqini şərtləndirməsidir. Bu isə hərbçilərlə yanaşı, həm də mülki insanların həyatı üçün təhdid yaradan minalardan geniş istifadənin qarşısının alınmasında mühüm rol oynaya bilər. Görünən odur ki, Azərbaycanın irəli sürdüyü təklifin gerçəkləşməsi Yer üzündə minlərlə insanın həyatını xilas edə bilər.

### Mina əleyhinə mübarizədə Azərbaycan təcrübəsi

Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması mina çirkliliyinə məruz qalan dövlətlər arasında fəal əməkdaşlıq baxımından da faydalıdır. Məlumat üçün qeyd edək ki, Azərbaycan dünya miqyasında ərazisi mina çirklənməsinə məruz qalan on dövlətdən biri kimi böyük təcrübəyə malikdir. Ölkəmiz həm Birinci Qarabağ müharibəsi, həm də 44 günlük Vətən müharibəsində böyük ölçüdə mina çirkliliyinə məruz qalıb. Prezident İlham Əliyev “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusundakı görüşdəki çıxışında bu barədə deyib: “Ermənistanın işğalının digər mənfi fəsadı minalardır. Azərbaycan hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır. 2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlayışı nəticəsində təxminən 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. İşğaldan azad edilmiş ərazilərdə baş verən hər bir mina partlayışı Ermənistanın törətdiyi hərbi cinayətlərin uzun siyahısının davamıdır”.

Bu gün Azərbaycanda həm ANAMA, həm FHN, həm də Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti minaların zərərsizləşdirilməsi ilə bağlı təcrübəyə malikdir. Bu təcrübənin digər ölkələrlə bölüşülməsi bəşəriyyətin təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

Onu da qeyd edək ki, hazırda mina çirkliliyindən ən çox əziyyət çəkən dövlətlərdən biri də Ukraynadır. Azərbaycan dövləti bir neçə dəfə Ukrayna xalqına humanitar yardımlar göndərməklə özünün dost və insani mövqeyini ortaya qoyub. Bu gün Azərbaycanın mina çirkliliyinə qarşı mübarizədə əldə etdiyi təcrübə Ukrayna üçün xüsusilə faydalı və gərəklidir.

Bugünə qədər Prezident İlham Əliyev tərəfindən irəli sürülən bütün təkliflərin beynəlxalq ictimaiyyət və dünya dövlətləri tərəfindən dəstəkləndiyini nəzərə alsaq, bu təklifin də tezliklə reallaşacağı şübhəsizdir. Bu isə o deməkdir ki, yaxın gələcəkdə Azərbaycanın bu sahədə təcrübəsinin ölkəmizdən uzaqlarda da insanların həyatını xilas etməkdə köməyi dəyəcək.

***S.ƏLİYEV***

# "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda dəyirmi masada yekun Bəyanat imzalanıb

**Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində iyulun 6-da Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masanın yekunlarına dair bəyanat qəbul edilib.**

Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı son fransız müstəmləkələrinə həsr olunmuş bu tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verdi.

Əslində, bütün qitələrdən 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı beynəlxalq hüququn fundamental prinsipləri, eləcə də "Bandunq prinsipləri" və xalqların mənafeyi əsasında müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi hələ də müstəmləkə hökmranlığına qarşı mübarizə aparan xalqları dəstəkləmək üçün yeni məqsədlər müəyyənləşdirməyi özünə borc bilib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə Martinika, Qayana, Yeni Kaledoniya, Fransız Polineziyasının müstəqillik tərəfdarları və GFLM alyansının katibliyi (Groupe Fer de Lance Mélanésien) Qoşulmama Hərəkatının müstəmləkəçi və neokolonial təcrübələrə qarşı mübarizədə prinsipial mövqeyinin etibarlılığını bir daha təsdiqləyib və vurğulayıblar.

Azərbaycan Respublikasının paytaxtı Bakıda müxtəlif dekolonizasiya hərəkatlarının fikir mübadilələri nəticəsində bu xalqların gələcəyini, hətta uzunmüddətli perspektivdə sağ qalmalarını təhdid edən müstəmləkəçilik siyasətinin zərərli olduğu vurğulandı:

– Qayanada sosial vəziyyət xüsusilə pisləşir, əhalinin 50 faizindən çoxu yoxsulluğun astanasındadır və işsizlik 30 faizdir; təbii sərvətlər talan edilir və torpaqların 90 faizi Fransa dövlətinin şəxsi mülkiyyətindədir.

– Martinika və Qvadelupa iki böyük fəlakətlə üz-üzədir: gizli məskunlaşma strategiyalarının bir hissəsi olan əvəzetmə yolu ilə soyqırımı, təbii ekosistemlərə və əhalinin sağlamlığına ciddi şəkildə təsir edən xərçəngin rekord göstəriciləri ilə xlordekon zəhərlənməsi.

– Yeni Kaledoniyada Kanak və Sosialist Milli Azadlıq Cəbhəsi (FLNKS) 2021-ci ildəki 3-cü referenduma etiraz edir və müstəmləkə altına salınmış Yeni Kaledoniya xalqının müstəqil olmaq hüququnu bir daha təsdiqləyir.

– Polineziya indi tamamilə dekolonizasiya perspektivi ilə məşğuldur və cənab Oskar Temarunun rəhbərlik etdiyi "Tavini huiraatira no te Ao Maohi" partiyası Qoşulmama Hərəkatında müşahidəçi statusu almaq istəyir.

Daha geniş mənada, Afrika Mundus sferasının qeyri-hökumət diplomatik şəbəkəsi tərəfindən dəstəklənən, Bakıda olan anti-müstəmləkəçi hərəkatlar həm afroəsilli insanlara, həm də yerli xalqlara təsir edən müstəmləkə cinayətlərinə görə kompensasiya tələb edirlər.

Onlar dünya ölkələrini, eləcə də beynəlxalq təşkilatları, o cümlədən BMT-ni özlərinin fundamental hüquqlarına hörmətin təmin edilməsinə yönəlmiş addımları dəstəkləməyə çağırırlar.

Onlar xalqlar arasında qlobal əməkdaşlığa, xalqların bərabərliyinə və suverenliyinə hörmətə əsaslanan beynəlxalq münasibətlərə yeni yanaşma formalaşdırmaq məqsədilə xalqlarının tam azad edilməsinə, müstəmləkəçiliyin kökünün kəsilməsinədək mübarizələrini davam etdirməyi və gücləndirməyi öhdələrinə götürürlər.

Tərəflər Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəliblər və əməkdaşlığı davam etdirməyə hazır olduqlarını bildiriblər.

***Bəyanatı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Yeni Kaledoniyada Kanak və Sosialist Milli Azadlıq Cəbhəsindən Rok Vamytan və Maqali Tinqal, Dekolonizasiya və Sosial Emansipasiya Hərəkatından Moris Pindard, Sindi Polüks, Jan-Viktor Kastor, Martinikanın Azadlığı Partiyasından Fransis Karol, Suveren Martinika Uğrunda Demokratlar və Ekoloqlar Hərəkatından Klodet Düamel, "Tavini Huiraatira no te Ao Maohi" partiyasından Oskar Temaru, Antoni Geros, Leon Tefo, Ella Tokaragi, "Africa Mundus"dan Emmanuel Arqo və Edvin Daiti imzalayıblar.***

# Ceyhun Bayramovun xarici həmkarları ilə görüşləri



**İyulun 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının koordinasiya bürosunun nazirlər görüşündə iştirak etmək üçün Azərbaycanda səfərdə olan xarici həmkarları ilə görüşlər keçirib.**

Esvatini Krallığının turizm və ətraf mühit naziri Moses Vilakati, Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abşir Ömər Cama, Uqanda Respublikasının xarici işlər naziri Cece Odonqo, Nikaraquanın xarici işlər naziri Denis Ronaldo Monkada Colindres, Belarus Respublikasının xarici işlər naziri Sergey Aleynik, Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Narayan Prakaş Saud, Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Əhməd Attaf ilə söhbətlər zamanı Qoşulmama Hərəkatının Bakı nazirlər görüşündə səslənmiş müddəalar, qəbul edilmiş qərarlar, ikitərəfli münasibətlərin aktual məsələləri diqqət mərkəzində olmuşdur.

Xarici nazirlər Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini məmnunluqla qeyd ediblər. Görüşlər zamanı tərəflər digər qarşılıqlı maraq doğuran məsələləri müzakirə edib. Nazirlər siyasi məsləhətləşmələrin vacibliyini vurğulayıblar.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Somali Federativ Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu imzalanıb.

***"Xalq qəzeti"***

# Qoşulmama Hərəkatının nazirlər görüşünün bağlanış mərasimi

**Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün bağlanış mərasimi keçirilib. Bağlanış mərasimində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çıxış edib.**

İki gün davam edən beynəlxalq məclisin yekunu olaraq Bakı Bəyannaməsi qəbul edilib. Qoşulmama Hərəkatına üzv ölkələrin Parisdə keçiriləcək Olimpiya və Paralimpiya Oyunlarının layihəsi də qəbul olunub.

Qoşulmama Hərəkatının nazirlər görüşünün sonunda Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı sənəd (xatirə bəyannaməsi) də qəbul olunub.

***"Xalq qəzeti"***

# Paşinyanın Azərbaycan əleyhinə fikirləri tamamilə əsassızdır

**Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən hökumətin 6 iyul tarixli iclasında Azərbaycan əleyhinə beynəlxalq ictimaiyyət arasında yanlış təəssürat yaratmaq məqsədi daşıyan fikirləri tamamilə əsassızdır.**

Bu fikirlər Azərbaycanın Xarici İşlər Nazirliyinin yaydığı məlumatda yer alıb. Məlumatda deyilir: "Ermənistan tərəfinin beynəlxalq hüququn norma və prinsiplərinə və üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərinə uyğun olaraq erməni qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaq əvəzinə, ərazimizdə mövcud olan silahlı qüvvələrin Ermənistana məxsus olmadığına dair işğal dövründə səsləndirilən iddiaların təkrarlanması bu ölkənin yanlış siyasətdən əl çəkmədiyini göstərir.

Ermənistan Respublikasının Müdafiə Nazirliyinin komandanlığı altında fəaliyyət göstərən və Ermənistan məhkəmələri tərəfindən məhkum olunan silahlı qüvvələrin Ermənistana məxsus olmadığını iddia etmək heç bir məntiqə sığmır.

Azərbaycanın ərazilərini işğal altında saxlamaqla və qonşu ölkələrə qarşı ərazi iddiaları irəli sürməklə özünü blokadada saxlayan Ermənistanın Azərbaycanın kommunikasiyaların açılmasında maraqlı olmadığını iddia etməsi və üçtərəfli Bəyanata zidd olaraq Ermənistanın Naxçıvana maneəsiz keçidi təmin etməkdən imtina etməsi Ermənistanın öhdəliklərini heçə saydığını nümayiş etdirir.

Ermənistan tərəfi, həqiqətən, sülhdə maraqlıdırsa, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə yalnız sözdə deyil, əməldə də riayət etməli, bölgədə sülh və təhlükəsizliyə təhdid olan erməni silahlı qüvvələrini Azərbaycan ərazisindən dərhal çıxarmalıdır".

***"Xalq qəzeti"***

# Bakı nazirlər görüşünün əks-sədası xarici mediada

**Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü beynəlxalq medianın diqqət mərkəzində qalmaqda davam edir.**

ABŞ-ın **"www.msn.com"** saytında dərc olunan məqalədə bildirilib ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatına üzv dövlətləri Fransanın yeni müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparmağa çağıraraq deyib: "Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir".




Rusiyanın **"Kommersant" qəzeti, "News.ru", "Voyennoe obozreniye", "Novıye izvestiya", "Regioni Rossii" nəşrləri, "Vestnik Kavkaza" agentliyi, "Mir"** teleşirkəti və bir sıra digər mətbuat orqanları Prezident İlham Əliyevin görüşdəki çıxışı zamanı Fransanın neokolonializm siyasətini tənqid etdiyini bildiriblər.

Pakistanın nüfuzlu **"İslamabadpost"** qəzetində isə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışının ingilis dilində tam mətni dərc edilib.

Afrika hökumətinin saytında ("gov.za") bildirilib ki, Bakıda keçirilən nazirlər görüşündə qlobal məsələlərə dair prinsipial mövqelər nəzərdən keçirilib.

Gürcüstanın **"Kavkasia.net"** portalında rus dilində yayımlanan materialda Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanı bütün qoşunlarını Qarabağdan çıxarmağa çağırdığı yazılır.

Kubanın **"Prensa Latina"** agentliyində yayılan xəbərdə Suriya xarici işlər naziri Feysəl Əl-Məkdadın Qoşulmama Hərəkatına üzv ölkələri terrorizmlə mübarizədə səyləri birləşdirməyə çağırdığı vurğulanıb.

Əlcəzairin **"EnTV"** telekanalının saytında, **"Eleane"** nəşrində, **"Əl Hərir", "dz.54.dz"** informasiya portallarında isə "İlham Əliyev Fransa hökumətinə qarşı ağır ittihamlar irəli sürdü" sərlövhəli məqalədə diqqətə çatdırılıb ki, Qoşulmama Hərəkatına uğurla sədrlik edən Azərbaycanın dövlət başçısı neokolonializm siyasətini sərt tənqid edib.

Ərəb ölkələrində geniş oxucu auditoriyasına malik olan İordaniyanın **"Nəbd"** qəzetində dərc olunmuş "İlham Əliyev Parisi sərt tənqid etdi" sərlövhəli məqalədə diqqətə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında Fransanı neokolonializmdə ittiham edib.

Küveytin **"q-8.press"** informasiya portalında dərc edilmiş "Prezident İlham Əliyev İslamın zorakılıq və terrorla eyniləşdirilməsindən narahatlığını ifadə edib" sərlövhəli məqalədə qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında islamofobiya və dini rəmzlərin təhqir olunmasını qətiyyətlə pisləyib.

Qətərin rəsmi QNA informasiya agentliyinin saytında Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü haqqında xəbər və Prezident İlham Əliyevin bu mötəbər tədbirdə çıxışından əsas məqamlar təqdim edilib.

Moldovanın aparıcı **"Point", "Noi", "Timpul"** xəbər portalları da Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşündəki çıxışına geniş yer ayırıb. Məqalələrdə dövlətimizin başçısının Ermənistanın qeyri-konstruktiv mövqeyinə dair fikirlərinə xüsusi diqqət çəkilib.

Bosniya və Herseqovinanın **"Slobodna Bosna", "Bosna info", "Federalna"** və **"N1info"** kimi informasiya agentliklərinin yaydığı xəbərlərdə Prezident İlham Əliyevin görüşdəki çıxışı zamanı Fransanın neokolonializmi hələ də davam etdirən ölkələrdən biri olduğunu qeyd etdiyi bildirilib.

İranın **İRNA dövlət informasiya agentliyi, "Mehr"** agentliyi, ingilis dilində dərc olunan **"Tehran times"** qəzeti və digər media qurumları Qoşulmama Hərəkatının Bakıda keçirilən tədbirini diqqətdə saxlayıblar.

***"Xalq qəzeti"***

# Ermənistan Azərbaycanın beynəlxalq uğuruna həsəd aparır

**Ermənistan Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurlarına həsəd aparır. Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Ermənistan XİN-in sözçüsü Ani Badalyanın bəyanatına münasibət bildirərkən deyib.**



Azərbaycan XİN-in sözçüsü daha sonra deyib: "Ermənistandan fərqli olaraq, Azərbaycan heç vaxt beynəlxalq platformalardan sui-istifadə etməyib və həmişə beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüququn norma və prinsiplərinə riayət olunmasının tərəfdarı olub".

***"Xalq qəzeti"***

# Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılmasına dair qərar qəbul edilib

**Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupu yaradılıb.**

İyulun 6-da Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində "Kolonializmin tamamilə aradan qaldırılmasına doğru" mövzusuna həsr olunan tədbirdə iştirakçılar Fransanın müasir müstəmləkəçilik siyasətinin aradan qaldırılması yolları, Afrika qitəsində və dünyanın müxtəlif regionlarında hazırda mövcud olan köləliyin kökünün kəsilməsi üçün zəruri addımların atılması istiqamətində fikir mübadiləsi aparıblar.

Sonda bəyanat qəbul edilib. Bəyanatda iştirakçılar Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupu yaradılmasına dair razılığa gəliblər.

***"Xalq qəzeti"***




# Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil qərargahı açılıb

**İyulun 5-6 tarixlərində Bakıda keçirilən Qoşulmama Hərəkatının (QH) Əlaqələndirici Bürosunun Nazirlər İclası çərçivəsində Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) mənzil qərargahının açılış mərasimi olub.**

2022-ci ildə Qoşulmama Hərəkatının Gənclər Sammiti zamanı Şuşa Akkordu ilə qəbul edilmiş QHGT-nin Nizamnaməsinə uyğun olaraq, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil qərargahı Bakı şəhərində yerləşir.

Açılış mərasimində Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) sədri Orduxan Qəhrəmanzadə bildirib ki, QHGT-nin mənzil qərargahının yaradılması müvafiq qurumlarla sıx əməkdaşlıq şəraitində QH gənclərinin maraqlarını beynəlxalq forumlarda təmsil etmək, onların şəxsi və peşəkar bacarıqlarının inkişaf etdirilməsi üçün geniş imkanlar yaradacaqdır.

Xarici işlər naziri Ceyhun Bayramov çıxış edərək QHGT-nin uğurlu fəaliyyətinin QH gənclərinin müasir çağırışlara birgə cavab verməsində əhəmiyyətini vurğulayaraq, mənzil qərargahında çalışan əməkdaşlara fəaliyyətlərində uğurlar arzu edib.

Gənclər və idman naziri Fərid Qayıbov çıxışında Gənclər və İdman Nazirliyi tərəfindən QHGT-nin fəaliyyətinə göstərilən hər cür dəstəyin davam etdiriləcəyini qeyd edib.

***"Xalq qəzeti"***

# Heydər Əliyev dərsləri

**(əvvəli "Xalq qəzeti"nin 2023-cü il 7, 13, 15, 17 may, 24, 26 iyun, 4 və 5 iyul nömrələrində)**



### "Rusiyanın böyük bir təyyarəsini Bakıda saxladıq"

Ulu öndərin bütün dövlətlərlə bərabərhüquqlu siyasət aparmaq bacarığı artıq dünyanın siyasi elitasının diqqətini cəlb edirdi. ABŞ-a səfəri zamanı nüfuzlu konqresmenlərin bir qrupu ilə görüşdə o, buna necə nail olduğunu belə izah etmişdi.

Heydər Əliyev: İran Azərbaycanın cənubunda olan böyük qonşumuzdur. Bilirsiniz ki, İranda təxminən 30 milyon azərbaycanlı yaşayır. Onların əksəriyyəti İranın şimal hissəsində, yəni Azərbaycan Respublikasına həmsərhəd hissədə yaşayır. Ona görə İranla insani əlaqələrimiz çox genişdir. Biz çalışırıq ki, İranla çox yaxşı münasibətlərimiz olsun. Amma Amerika Birləşmiş Ştatları ilə dostluğumuz, əməkdaşlığımız, İsrail ilə geniş müsbət əlaqələrimiz İranı çox narahat edir. Biz öz müstəqil siyasətimizi aparırıq. Bizim müstəqil siyasətimiz şimalda olan Rusiyanın da xoşuna gəlmir. Xüsusən Amerikanın, Qərbin neft şirkətlərinin Xəzər dənizinə gəlməsi Rusiyada böyük etirazlar doğurur. Regionda biz Rusiyanın, İranın və Ermənistanın sıx əməkdaşlığını müşahidə edirik. Biz nüvə silahının yayılmasının əleyhinəyik. Yuqoslaviya, Balkan böhranı başlayan zaman biz Rusiyanın böyük bir təyyarəsini Bakıda saxladıq. O təyyarə Balkanlara gedirdi və içində MİQ təyyarələri var idi. Biz əllidən artıq Rusiya vətəndaşını orada saxladıq, təyyarəni həbs etdik və nəzərdə tutulmuş aksiyanın qarşısını aldıq. Şübhəsiz ki, sonra təyyarəni Rusiyaya verdik, təslim etdik. Ancaq MİQ təyyarələrini Qazaxıstana qaytardıq. Çünki onlar Qazaxıstana məxsus idi. Mən bu barədə prezident Nazarbayevlə telefonla danışdım. Onlar bəyan etdilər ki, təyyarələri başqa yerə göndərməyəcəklər. Biz bu cəsarətli, qətiyyətli addımları atmaqla özümüzə qarşı yeni etirazlar doğurduq. Amma, eyni zamanda, biz müstəqil dövlətimizin müstəqil siyasətini ardıcıl surətdə həyata keçiririk. Düşünmürük ki, bu, bizə zərər gətirəcək, ya gətirməyəcək.

### "Burada da böyük bir səhv buraxılıbdır"

Hələ Sovetlər dövründə Heydər Əliyev Azərbaycan dilinin dövlət dili səviyyəsində tanınması üçün tarixi xidmətlər göstərmişdir. Müstəqilliyin ilk illərində dilimizin necə adlandırılması geniş diskussiyaya, mübahisələrə səbəb olmuşdu. Əvvəlki iqtidarın dövründə bəzən səthi, bəzən subyektiv münasibət bildirildiyi bu məsələyə ulu öndər millilik baxımından həssas yanaşmağın çox vacib olduğunu vurğulamışdı.

– 1977–78-ci illərdə biz yeni konstitusiyanı qəbul edərkən bu məsələ, şübhəsiz ki, əsas məsələlərdən biri idi. Biz yeni Konstitusiyada Azərbaycanın Dövlət dilinin Azərbaycan dili olması barədə maddə hazırladıq. Qeyd etdiyim kimi, mən həmin Konstitusiyanı hazırlayan komissiyanın sədri idim və bu işlərə rəhbərlik edirdim. Ancaq bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur. Mən indi sizin vaxtınızı alıb bunların hamısını geniş danışmağa ehtiyac duymuram. Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz konstitusiyamıza yazmalıyıq və yazacağıq. Moskvada bir neçə dəfə müzakirələr oldu. Cürbəcür fikirlər səsləndi və həmin fikirlərin əksəriyyəti ondan ibarət idi ki, belə olmamalıdır. Ancaq biz buna nail olduq və 1978-ci ildə, səhv etmirəmsə, aprel ayında biz Konstitusiyanı qəbul etdik. Həmin Konstitusiyada yazıldı ki, Azərbaycanın Dövlət dili Azərbaycan dilidir. Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O, buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda gərək onda biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Sizin bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz? Mübahisəmiz çox gərgin oldu. Hər halda biz bunu etdik.

***

Milli Məclisdə Azərbaycanın dövlət dili məsələsi müzakirə olunarkən Məclis üzvlərindən biri deyib ki, gəlin yazaq "Azərbaycanın Dövlət dili Azərbaycan türk dilidir", başqa birisi deyib ki, niyə belə yazırıq. Yazaq ki, "türk dilidir". Mübahisə gedibdir – mən bütün stenoqrama baxmışam. Kim necə çıxış edibsə, hamısı məlumdur. Mən, sadəcə olaraq, demək istəyirəm, indi buna heç ehtiyac da yoxdur, bunun indi əhəmiyyəti yoxdur. Bəlkə kimsə bununla maraqlanır, amma mən hesab edirəm ki, o qədər də maraqlı deyil. Bəli, mübahisə gedibdir. Bir qismi buna etiraz edibdir, bir qismi isə əvvəlki təklifdən də qabağa gedərək deyib ki, yazaq "bizim dilimiz türk dilidir". Məsələ Milli Məclisdə səsə qoyularkən həmin iclasda Milli Məclisin 50 üzvündən 39-u iştirak edibdir. Onların 26-sı dilimizin türk dili kimi qəbul olunmasına səs verib, 7-si, ya 8-i əleyhinə səs verib, qalanları isə bitərəf olubdur. Beləliklə də, dövlət dilimizin adı dəyişilibdir. Hər bir şey etmək olar, əgər doğrudan da, o, həqiqətə və bizim məqsədlərimizə uyğundursa. Ancaq belə məsuliyyətli işləri çox ağıllı, bacarıqlı, eyni zamanda, xalqın iradəsinə əsaslanaraq görmək lazımdır. 1978-ci ildə qəbul olunmuş Konstitusiya ümumxalq müzakirəsindən keçibdir. Deyilə bilər ki, o vaxt sovet dövrü idi, müzakirələr formal keçirdi. Bəli, bu sözü demək olar. Ancaq müzakirələr olubdur. O konstitusiya dərc edilibdir, onun barəsində xalqın məlumatı olubdur. Nəhayət, Ali Sovetin sessiyasında həmin konstitusiya yekdilliklə qəbul edilibdir. İndi bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır. Həmin səhv ondan ibarətdir ki, əgər Milli Məclis, doğrudan da, belə bir qərar qəbul etməli olsaydı, həmin qərar qanuna, konstitusiyaya görə Milli Məclis üzvlərinin üçdə ikisi tərəfindən səs verildiyi halda qəbul olunmalı idi. Yəni, Konstitusiya qanunu sadə səsçoxluğu ilə yox, üçdəiki səsçoxluğu ilə qəbul olunmalıdır. Milli Məclisdə bu təklif səslərin üçdəikisini toplaya bilməyib. 50 deputatdan 26-sı, yəni sadə səsçoxluğu ilə, bir səs üstünlüyünə görə qəbul olunubdur. Burada da Konstitusiya qanunu pozularaq, volyuntarizm, özbaşınalıq edilərək, belə bir qanunun qəbul olunduğu hesab edilmişdir. Təəssüflər olsun ki, bu işi Milli Məclisin o vaxtkı sədri İsa Qəmbərov və o qrupa məxsus olan deputatlar ediblər. O dövrdə Azərbaycanın prezidenti olan Elçibəy də bu qanunu imzalayıbdır. Mən yenə deyirəm, bu qanunun məna və nəticəsini kənara qoyaraq, sadəcə, qanunvericilik nöqteyi-nəzərindən, dövlət məsuliyyəti nöqteyi-nəzərindən bu mühüm məsələyə nə qədər məsuliyyətsiz yanaşdıqlarını qeyd etmək istəyirəm.

***

Son vaxtlar, deyəsən, bu layihə dərc olunandan sonra hansısa bir müxalifət qəzetində oxudum ki, "bizim dilimizi vaxtilə Stalin və Mikoyan dəyişiblər, dilimizi Azərbaycan dili onlar adlandırıblar, indi də onların yolu ilə getmək istəyirik". Mən dünən onlara dedim ki, bilirsiniz, bax bunu yazan adamlar – əgər siz bu müzakirədən qaçmısınızsa və hesab edirsinizsə ki, bu, ajiotaj yaradacaq, hesab edirsinizsə elə bu yazılan qəbul olunmalıdır – üç ildən sonra, beş ildən sonra, xüsusən də Heydər Əliyev dünyadan gedəndən sonra götürüb yazacaqlar ki, "Heydər Əliyev Stalin və Mikoyanla birlikdə bizi bu yola gətirdi, yoxsa biz başqa yolla gedəcəydik". Mən bu tarixi məsuliyyətdən qorxmuram. Ancaq mən də araşdırıram. İstəyirəm ki, həqiqəti aydınlaşdıraq. Ona görə də xahiş edirəm ki, mənim bu çıxışımı vəziyyəti aydınlaşdırmaq niyyəti ilə qəbul edəsiniz. Mən bu barədə heç bir fikir söyləmirəm və heç söyləməyəcəyəm də. Mən bu fikri sizin sərəncamınıza verəcəyəm.

### "Müəllim tutun, dili öyrənin"

**Hakimiyyətinin ilk illərindən Heydər Əliyev hər kəsin, xüsusilə vəzifəli şəxslərin Azərbaycan dilini mükəmməl öyrənmələri barədə tapşırıq və tövsiyələrini verirdi:**

– Keçmişdə ümumi işimiz belə olubdur ki, vəzifəli şəxslərin çoxu rus dilində təhsil alıb, işlərini rus dilində aparıblar. Mən bunların heç birisini günah hesab etmirəm. Keçid dövründə də insanlar müəyyən qədər bu keçid prosesində yaşayırlar, bu da təbiidir, ancaq nə qədər, neçə il lazımdır ki, vəzifəli şəxslərimiz dövlət dilimizi öyrənsinlər və biz müzakirələri də bu dildə aparaq? Birini rus dilində dinləyib ona Azərbaycan dilində cavab vermək və yaxud onunla müzakirə aparmaq mənim üçün çətin deyil. Amma, bu, hər adam üçün də asan deyil. Yenə də deyirəm, əgər keçmişdə bəziləri buna ehtiyac duymayıblarsa, amma indi bu ehtiyac var axı! Oturun, müəllim tutun, bu dili öyrənin. Axı nə qədər olar, məgər elə dünyadan bu dili bilməyə-bilməyə çıxıb gedəcəksiniz? Axı belə şey olmaz. Mən yenə də deyirəm, keçmişdə, Xalq Cəbhəsinin vaxtında bəzi insanları günahlandırırdılar ki, nə bilim, rus dilində danışmaq olmaz, düş aşağıya – mən bu şeylərin əleyhinəyəm. Mən buraya gələndən – iki il yarımdır ki, bir yerdə işləyirik hesab edirəm, – insanlara sərbəstlik vermək lazımdır. Mən də bu şəraiti yaradıram ki, kim öz fikrini hansı dildə izah edə bilirsə, etsin. Ancaq heç kəs bunu daimi bir proses kimi qəbul etməsin. Bu keçid dövrümüzün müəyyən bir elementidir. Ancaq keçid dövrünü əgər iqtisadiyyatda qısaltmaq istəyiriksə, dili mənimsəməkdə daha da qısaltmaq lazımdır. Ona görə də, mən indiyədək bunu deməmişəm, ancaq bu gün mütləq deməliyəm: dövlət dilini yaxşı bilməyən adamlar məşğul olsunlar, müəllim tutsunlar, kitab oxusunlar, başqa yollarla dövlət dilini öyrənsinlər. Mən demirəm bu gün, sabah, bir aya, iki aya, amma qısa bir müddətdə bizim hamımız bütün müzakirələri dövlət dilində aparmalıyıq. Məsələn, ordumuzda da vəziyyət belədir. Çünki keçmişdə Sovet Ordusunda olan terminlərin və s. əksəriyyəti dilimizə o qədər də çevrilməyib. Amma mən müdafiə nazirinə də göstəriş vermişəm ki, artıq vaxt keçib, təhsili də, ordunun idarəsini də, başqa şeyləri də tədricən dövlət dilimizə, Azərbaycan dilinə çevirmək lazımdır.

### "Yaxşı, daha ağını çıxarmayın"

**Ümummilli lider dəfələrlə sovet ideologiyasına uyğun olmayan fikirlər söyləyən, əsərlər yazan ziyalılarımızı Moskvanın qəzəbindən və təqibindən xilas etmişdi. Bu barədə ulu öndər demişdir:**

– Mənim xatirimdədir, 1970-ci ildə Leninin 100 illiyi qeyd olunurdu. Azərbaycanda da biz Nəriman Nərimanovun 100 illiyini hazırlayırdıq. Çünki onlar eyni ildə – Lenin də, Nərimanov da 1870-ci ildə anadan olub. O vaxt Moskvadan gəlirdilər və mənə deyirdilər ki, bəs burada millətçilik var, burada antisovet var, burada filan var. Hər dəfə baxırdım və onlara izah edirdim. Bir dəfə Moskvadan nümayəndə gəldi ki, belə şey olarmı "Qobustan" jurnalında yazılıbdır ki, Nərimanov Lenindən də böyük adamdır. Dedim, a kişi, belə şey olmaz, yəqin sizə səhv deyiblər. Gətirin baxım. Gətirdilər baxdım. "Qobustan" jurnalında yazıçı İsa Hüseynovun Nəriman Nərimanov haqqında bir yazısı getmişdi. Orada yazmışdı ki, bəli, Nəriman Nərimanov Lenin deyil, Lenindən də üstün bir adamdır. Mən dedim, bilirsiniz nə var, indi bu yazıçıdır, yazıbdır, sərbəst adamdır. Bu, o demək deyil ki, bizim də fikrimiz belədir. Bizim fikrimiz belə deyil. Mən birtəhər bu məsələni sovuşdurdum. Amma sonra bunlara dedim ki, yaxşı, daha ağını çıxarmayın da.

***Faiq SADIQOV,***
***Əməkdar jurnalist***

# Xalqımızın tale ulduzu

**Tanrı ümummilli lider Heydər Əliyevi XX əsrin II yarısında, eləcə də II minillikdən III minilliyə keçid dövründə Azərbaycan xalqı üçün tale ulduzu olaraq yaratmışdır. Ulu öndərin ölkəmizə rəhbərliyinin hər iki dövründə, Moskvada sovet dövlətinin ali rəhbərlərindən biri olduğu müddətdə xalqımıza göstərdiyi misilsiz xidmətlər bu ulduzun yolgöstərənliyinin tarixi sübutudur.**

Xalqımızın çoxminillik tarixində yetirdiyi ən qüdrətli milli lider, dünya şöhrətli siyasətçi və dövlət xadimi olan Heydər Əliyev Azərbaycanın bəşəriyyətə bəxş etdiyi nadir tarixi şəxsiyyərdir. Sovet imperiyası şəraitində öz ölkəsini müstəqillik epoxasına hazırlamaq, qazanılmış suverenliyi qoruyub möhkəmləndirmək, Azərbaycanın yeni dünya düzənində layiqli yerini təmin etmək, bir sözlə, daxildə və xaricdə xalq və dövlət adına qazandığımız yaxçı nə varsa hamısı bu dahi şəxsiyyətin adı ilə qırılmaz surətdə bağlıdır.

Xalqımızın taleyində, onun ictimai, siyasi, mənəvi həyatında misilsiz xidmətlər göstərən Heydər Əliyev şəxsiyyətinin müdrikliyi, ucalığı ondadır ki, onun düşüncələri də, əməli fəaliyyəti də təkcə bu günlə məhdudlaşmır, həm də uzaq gələcəyə ünvanlanmışdır. Bu nəhəng insanın kim olduğunu dostlarımız yüksək qiymətləndirir, düşmənlərimiz isə etiraf edirdilər.

Ulu öndər Heydər Əliyev titanik fəaliyəti ilə bugünümüzü və gələcəyimizi öz əzəmətli ideya və əməllərinin nuru ilə işıqlandırırdı. Bu tale ulduzu bu gün də gələk uğurlarımızın səmt ulduzu kimi Azərbaycan varlığına işıq saçır. Azərbaycan bu gün dünya miqyasında inamla irəliləyir. İndi üçrəngli bayrağımız dünya dövlətlərinin bayraqları ilə yanaşı dalğalanır, Dövlət himnimiz Ankarada, Vaşinqtonda, Moskvada Londonda, Parisdə, Pekində, Qahirədə – xarici aləmdə təntənə ilə səslənir.

Azərbaycanın ümummilli liderinin adı uzun illərdir ki, beynəlxalq aləmdə böyük hörmətlə çəkilir, dövlət xadimləri onun şəxsiyyətinə yüksək qiymət verirlər. ABŞ-ın keçmiş prezidenti Bill Klinton "Heydər Əliyev təkcə Azərbaycanı yox, bütün dünyanı idarə etməyi bacaran bir



siyasi xadimdir", deməklə Heydər Əliyev şəxsiyyətinin bəşəri miqyasının konturlarını dəqiq çəkmişdir. Bu ölkənin başqa bir prezidenti – Corc Buş isə bildirirdi ki, "Heydər Əliyevdən öyrənmək lazımdır".

Türkiyənin ordu generalı Doğan Günəşin demiş olduğu aşağıdakı sözlər xalqımızın böyük oğlunun Türk dünyasının öyünc və şərəf ünvanı olduğunu ifadə edir: "Türk milləti tarix boyunca zaman-zaman böyük sərkərdələrini meydana çıxarmışdır. Heydər Əlirza oğlu o böyük sərkərdələrdən biridir. Mustafa Kamal Paşa Türkiyəni düşdüyü çirkabdan çıxardığı kimi, Heydər Paşa da Azərbaycanı bu bəladan qurtaracaq".

Ukrayna Respublikasıınn keçmiş prezidenti Leonid Kuçmanın verdiyi qiymətdən də ulu öndərin region, Avropa və bütövlükdə, dünya çevrəsində oynadığı rol, daşıdığı çəki aydın görünür. "Heydər Əliyev Zaqafqaziya regionunda, Avropa qitəsində və dünyada layiqli yer tutan Azərbaycanın şöhrətini öz fəaliyyəti ilə artırmışdır. O, dünya miqyaslı dövlət xadimidir". BMT-nin keçmiş katibi Kofi Annan bütün dünyaya bəyan etmişdi: "Dünyanın görkəmli dövlət xadimi kimi tanınan Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası yaxın gələcəkdə ən inkişaf etmiş ölkələrdən birinə çevriləcək". Fransanın keçmiş prezidenti Jak Şirak bildirmişdi ki, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanı böyük gələcək gözləyir.

Özbəkistan Respublikasının keçmiş prezidenti İslam Kərimov özünə ustad saydığı böyük dostu haqqında ürək genişliyi ilə demişdi: "Kimin xoşuna gəlsə də, gəlməsə də, bu gün dünya Heydər Əliyevə böyük hörmətlə yanaşır, onu tanıyır və o, Azərbaycanın nüfuzunu bütün dünyada yüksəldən qanuni liderdir".

Qazaxıstan Respublikasının keçmiş prezidenti Nursultan Nazarbayev də türk dünyasının sevimli lideri haqqında qiymətli fikir söyləmişdi: "Heydər Əliyev xalqı sıx birləşdirməyə və onu tərəqqi, inkişaf yoluna istiqamətləndirməyə müvəffəq olmuşdur. Buna müasir tarixdə, əslində, heç kəs nail olmamışdır". Moskva şəhərinin keçmiş meri Yuri Lujkov da keçmiş sovet xalqlarının hədsiz ehtiram göstərdiyi unudulmaz insana heyranlığını belə açıqlamışdı: "Heydər Əliyev zəkasına, məsələləri işgüzarcasına, təmkinlə həll etmək bacarığına görə seçilən şəxsiyyətdir".

Belə parlaq və xoşməramlı qiymətlər kifayət qədər çoxdur. Maraqlısı odur ki, ulu öndərin nadir tarixi şəxsiyyət olduğunu təkcə onun görüşüb yüksək təəssürat bəxş etdiyi liderlər, görkəmli dünya siyasətçiləri, xalqımızın dostları və xeyirxahlarımız deyil, açıq düşmənlərimiz və bədxahlarımız da etiraf edir, özlərinə belə bir rəhbər arzu edirdilər. Düşmənlərimiz Heydər Əliyev şəxsiyyətinin qüdrəti və əzəməti qarşısında lərzəyə düşürdülər. Ulu öndər bütün dünya azərbaycanlılarının Prezidenti sayılırdı. Onun həm də Türk dünyasının böyük lideri rolunu öz üzərinə götürməsi bədxahlarımızı qorxudur, ehtiyatlandırırdı.

Tarixdə dövətçiliyin nə olduğunu bilməyən, Bizans və İranın əlində oyuncaq olan xəyanətkar ermənilər üçün "Böyük Ermənistan" xülyası yaradanlardan biri, xalqımızın qəddar düşməni, əli xocalıların qanına batmış Zori Balayan deyirmiş: "Dünya terror təşkilatının və kilsənin gücündən istifadə elərək Heydər Əliyevi aradan götürməliyik. Heydər Əliyevin hakimiyyəti 2000-ci ilə kimi davam edərsə, biz azərbaycanlılardan nəinki Qarabağın, hətta Zəngəzurun, vaxtilə azərbaycanlıların yaşadıqları digər ərazilərin boşaldılması tələblərini eşidəcəyik. Bu isə bütün Ermənistanın məhvi deməkdir".

Ermənistanın keçmiş rəhbərlərindən olan, Heydər Əliyevin kimliyinə bütün ermənilərdən artıq bələd olan Karen Dəmirçiyan isə düşüncəsi millətçiliklə zəhərlənmiş xalqına belə bir gerçəyi anlatmaq istəyirmiş: "Ey mənim sevimli millətim! Bilin ki, XX əsrdə türklər iki böyük şəxsiyyət yetişdirib - Mustafa Kamal Atatürk və Heydər Əliyev. Onlardan biri sağdır. Bilin! Nə qədər o sağdır, biz nə Qarabağı, nə də başqa əraziləri ala bilməyəcəyik. O, bizdən ağır zərbələr alsa da, Azərbaycan xalqı ən çətin günlərdə onu Bakıya gətirəcək və bununla da sizin düşündüyünüz arzulara son qoyulacaq".

Maraqlıdır, Heydər Əliyevin varlığından qorxub, lərzəyə düşənlərin hər ikisi erməni cəmiyyətinin iki mühüm zümrəsinə mənsub idi. Biri damarlarında qan əvəzinə, zəhər, nifrət axan üzdəniraq "ziyalı", ikinci isə "siyasətçi və dövlət xadimi".

Bütün bu deyilənlərdə göründüyü kimi, ulu öndər müdrik insan, güclü tarixi şəxsiyyət idi. Məhz onun xalqına hərtərəfli xidmət etmək potensialı – iti ağlı, siyasi uzaqgörənliyi, misilsiz cəsarətli, milli qeyrəti hesabına doğma Azərabycanımız bugünkü yüksək inkişafa nail olmuş, müşkül görünən problemlərini də aradan qaldırmışdır. Ümummilli lider Heydər Əliyev Ermənistanın quldur silahlı dəstələri tərəfindən işğal olunmuş doğma torpaqlarımızın sülh yolu ilə geri qaytarılması uğrunda gərgin diplomatik siyasət aparırdı. Dağlıq Qarabağ probleminin sülh yolu ilə aradan qaldırılması, Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ölkəmizin dünya birliyində layiqli yer tutması Prezident Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xarici siyasətin ana xəttini təşkil edirdi.

Ulu öndərin yaratdığı möhkəm təməllər və təminatlar üzərində 2020-ci ilin payızında onun ən layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycan xalqını möhtəşəm dəmir yumruq halına gətirərək amansız, qəddar düşmənin başına endirdi. Qarabağı quzğun və goreşən kimi xarabazara çevirmiş Ermənistanın quldur və qarətçi ordusu diz çəkdürülərək ölkəmizdən qovuldu. Qarabağ zəfəri milli tariximizə xalqımızın tale ulduzu Heydər Əliyevin arzu və əməllərinin nur saçdığı yolda qazanılmış ən böyük qələbə kimi yazıldı. Bu ulduz həmişə uğurlar yolumuza bələdçilik edəcək.

***Yunis HÜSEYNOV,***
***tarix üzrə fəlsəfə doktoru,***
***Şuşadan məcburi köçkün***

# Prezident İlham Əliyevin anti-müstəmləkə manifesti və Fransanın ifşası

## Yaxud Makron ermənipərəstliyinin Cənubi Qafqazı koloniyaya çevirmək istəyinə tutarlı zərbə



**Dünya beşdən böyükdür. Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda iyulun 5-də Bakı Konqres Mərkəzində keçirilmiş nazirlər görüşündəki çıxışı Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın illər əvvəl BMT tribunasından səsləndirdiyi bu deyimi yenidən aktuallaşdırdı.**

Cənab İlham Əliyev BMT-də ciddi islahatların aparılmasının vacibliyini diqqətə çatdırarkən, qurumun Təhlükəsizlik Şurasının üzərində dayandı və onu keçmişin qalığı adlandırdı. Ölkəmizin başçısı, həmçinin TŞ-nin hazırkı reallıqları əks etdirmədiyini vurğulayaraq, əsas orqanda daha çox ölkənin təmsil olunmasının və coğrafi baxımdan ədalətliliyin təminatının zəruriliyindən söz açdı, mövcud xüsusda qurumun tərkibinin genişləndirilməsinin tərəfdarı olduğunu dilə gətirdi və bildirdi ki, bu ideya ilə bağlı dünyada artan konsensus var.

### Dünya nə üçün "beşdən böyük" olmalıdır...

BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yerin verilməsi ilə bağlı əvvəllər səsləndirdiyi fikrini yenidən gündəmə gətirən Prezident İlham Əliyev bu dəfə məsələyə bir qədər də kompleks yanaşma ortaya qoydu. "Zənnimizcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar", – deyən Azərbaycanın liderinin təklif və təşəbbüsü dünyada mövcud olan ədalətsizlik mühitinə, bir növ, etibarlı sipərdir. Bunu tam qətiyyətlə söyləmək olar.

Ümumən, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi ədalətsizliyə və ikili standartlara qarşı mübarizə amalına söykənmiş fəalliyyət kimi yadda qalmaqdadır. Azərbaycanın təşkilat çərçivəsində bəşəri dəyər və prinsiplərin qorunmasındakı fəal mövqeyinin ifadəsinə dair bir çox məqamları vurğulamaq mümkündür. Əslində, cənab İlham Əliyev də yuxarıda diqqətə çatdırdığımız fikirlərini dünyadakı qeyri-obyektivliklərin yalnız bir seqmentinə nəzər salmaq üçün bildirmişdi. Əlbəttə, o, digər məqamları da gündəmə gətirə bilərdi. Ancaq böyük ustalıqla hədəfə doğru getdi. Söhbət dünyanın ədalətsizlik təzahürünün Fransa hədəfindən gedir. O Fransadan ki, BMT-də söz sahibidir, ancaq hazırkı siyasəti və yanaşma tərzi baxımından buna əsla haqqı çatmır. Azərbaycan Prezidenti isə çıxışında ölkə hakimiyyətinin haqsızlığının müxtəlif istiqamətlərinə geniş nəzər saldı.

### Qoşulmama Hərəkatı sədrinin daşdan keçən dəlilləri

Dövlətimizin başçısının üzərində dayandığı ilk məsələ neokolonializm oldu: "Azərbaycan neokolonializm meyillərinin artmasından olduqca narahatdır. Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir".

Fransa neokolonializmin, belə demək mümkünsə, müasir örnəyidir. Deməli, Azərbaycan Prezidentinin çıxışının bu ölkə ilə bağlı hissələrini müstəmləkəçilik əleyhinə manifest kimi də dəyərləndirmək olar. Dövlətimizin başçısı Fransanın siyasətinin vandal mahiyyətini, sözün əsil mənasında, ifşa etdi. Özü də kifayət qədər sərt formada. "Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır", – deyən cənab İlham Əliyev Fransanın Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməli olduğunu vurğuladı.

Azərbaycan Prezidenti Fransanın soyqırımları ilə dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairlinin qətlə yetirildiyini xatırladaraq, Qoşulmama Hərəkatı adından bəşəri tələb səsləndirdi: "Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır. Bu, utancverici və iyrənc hərəkətdir. Biz Fransa Prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik".

Dövlətimizin başçısı bildirdi ki, özünü insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. "Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi", – deyən ölkəmizin liderinin gündəmə gətirdiyi məsələ son dərəcə vacibdir.

### Makronun "Yeni Afrika strategiyası" və faktiki etiraf

Məlumdur ki, Fransa Prezidenti Emmanuel Makron 2023-cü ilin martında Afrika turu çərçivəsində Qabonda olarkən, ölkəsinin müstəmləkəçilik dövründən sonra Afrika ilə qurduğu əlaqələri ifadə etmək üçün istifadə olunan "Françafrique" siyasətinin sona çatdığını açıqlamış, "Yeni Afrika strategiyası" əsasında "qara qitə"nin ölkələri ilə fərqli səhifə açmaq istəklərini bildirmişdi. Makron həmin çıxışında, həmçinin Fransanın qitədəki hərbi bazalarının sayını azaldacağını və afrikalılara məxsus mədəni sərvətlərin geri qaytarılması üçün işlərə başladıqlarını dilə gətirmişdi.

Burada diqqət yetirilməli ilk məqam "Françafrique" siyasətidir. Bu siyasət müstəmləkəçilik dövründən sonranın məhsuludur. Təxminən, ötən əsrin 60-cı illərinin əvvəllərindən başlanır. Ona da diqqət yetirək ki, "Françafrique" termini ilk dəfə İkinci dünya müharibəsindən sonra Afrikada təsirini itirmiş fransız müstəmləkə sisteminin yenilənmiş versiyasına istinad məqsədilə gündəmə gətirilib. Özü də Fransa ziyalıları tərəfindən irəli sürülüb.

Təsəvvür edin ki, üzərindən səksən ilə yaxın müddət keçdikdən sonra Makron, yəni Fransa lideri deyir ki, ölkəsi Afrika ilə bağlı yeni siyasətə keçir. O, bu siyasəti qitədə hamı ilə danışan, ölkələrin daxili işlərinə qarışmaq rolunu oynamayan qərəzsiz həmsöhbət kimi xarakterizə edib. Deməli, indiyədək qarışma da olub, qərəz də. Hələ başqa vandallıqlar da öz yerində. İndi isə bu siyasətin adını dəyişir.

### "Françafrique" nə deməkdir?

Fransanın bu xarici siyasət sisteminin mahiyyətində gizlilik dayanıb. Yəni, müstəmləkəçiliyin gizli yollarla davam etdirilməsi. Mövcud siyasət Afrika ölkələrinin daxili işlərinə hərbi, iqtisadi və ya başqa şəkildə müdaxiləni rəhbər tutur, qitədəki irticaçı rejim qüvvələri ilə fransız siyasətçiləri arasında məxfi iqtisadi əlaqələrin qurulmasına şərait yaradırdı.

Bəli, "Françafrique" Afrika qitəsinin yeni üsullarla istismarına imkan verən Fransa və qitə liderləri arasında imtiyazlı və gizli əlaqələri izah etmək üçün dövriyyəyə buraxılmış anlayışdır. İndi beynəlxalq müşahidəçilər, xüsusən də afrikalı ekspertlər Yelisey sarayının "Yeni Afrika strategiyası"nı da "Françafrique"nin davamı qismində görürlər. Yəni, faktiki olaraq, Paris müstəmləkəçiliyin yalnız adını dəyişir, mahiyyətini saxlayır. Necə? Belə: Afrikaya hərbi müdaxilələrin heç bir təsirinin olmadığını görən Fransa qeyri-hökumət təşkilatları və gənclər vasitəsilə "yumşaq güc" siyasətini həyata keçirməyə çalışır. Əslində isə istismar sisteminə son qoymağı düşünmür.

### Cənubi Qafqaz üçün həyəcan zəngi: Qarabağ amili

Qeyd etdiklərimizi nəzərə alsaq, Azərbaycan Prezidentinin söylədikləri Cənubi Qafqazla bağlı təbil zəngi kimi də qiymətləndirilə bilər: "Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".

Parisin Qarabağı da müstəmləkə siyasətinin tərkibində görmək iştahasının mümkünlüyünü təsdiqləyən bir çox məqamlar var ki, cənab İlham Əliyev keçmişə müraciət edərək, həmin məqamları qabartdı, eyni zamanda, belə yaramazlıqlara qarşı, bir növ, siyasi immunitet formalaşdırdı. Məsələn, dövlətimizin başçısı bildirdi ki, Fransa XX əsrin ikinci yarısı boyunca Əlcəzairdə və özünün dənizaşırı ərazilərində – Sakit okeanda, Fransa Polineziyasında bir neçə nüvə silahı sınağı keçirmiş və bununla da qlobal səviyyədə ətraf mühitin deqradasiyasına, yerli icmalarda ciddi sağlamlıq problemlərinə səbəb olmuşdur.

### Üzrxahlıq... artıq təcrübə var

Nəhayət, Azərbaycan dövlət başçısının QH-nin Bakıdakı mötəbər toplantısındakı çıxışının Fransa hissəsinə damğasını vuran bir məqamın üzərinə gələk. Cənab İlham Əliyev indiyədək edilmiş vandalizm aktlarına görə məsuliyyətin müəyyənləşdirilməsinin vacibliyini önə çəkərək bildirdi ki, Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir.

Yeri gəlmişkən, bununla bağlı təcrübə də var və dövlətimizin lideri çıxışında onu da yada saldı: "Bir neçə gün əvvəl Niderland Kralı ölkəsinin müstəmləkə keçmişinə və qul ticarəti ilə məşğul olduğuna görə rəsmən üzr istəyib. Biz onun fransız həmkarını da həmin hərəkəti etməyə çağırırıq. Heç vaxt olmamaqdansa, gec olması yaxşıdır. Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək".

### Ermənipərəstlik, Korsika və 17 yaşlı yeniyetmənin qətli

Prezident İlham Əliyev Fransanın özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışdığını vurğulayarkən, ölkədə son günlər baş verməkdə olan qorxunc hadisələrə də diqqət çəkdi. Bu baxımdan fransız mediasında və internet seqmentində müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlərin mövcudluğunu, rəsmi şəxslərin və parlamentin iki palatasının üzvlərinin irqi nifrət xarakterli çıxışlarının getdikcə artmaqda olduğunu vurğuladı.

"Bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsi bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlamətidir. Bu baxımdan biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləyirik", – deyən dövlətimizin başçısı Fransanın Korsika dilinə qadağa qoyması və etnik azlıqlar konsepsiyasını qəbul etməməsi fonunda ölkənin özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışmasını riyakarlıq və ikili standartlar adlandırdı: "Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsində bu cür narahatedici meyillərlə mübarizə aparmalıdır".

Bəli, Fransa dünyada haqq və ədalətdən danışmağa ən az haqqı çatan məmləkətdir. Əslində, bunu ölkənin mütərəqqi kəsimi yaxşı dərk edir. Elə Makronadək olan dövlət başçıları da məsələyə həssas yanaşıblar. Çalışıblar ki, acı həqiqətlərin üzlərinə salavat küləyi kimi çırpılacağı durumu yaratmasınlar. Ancaq hazırkı dövlət başçısı keçənləri unudur. Unudur və avantürizmə meyil göstərir. Ermənipərəstlik isə istənilən avantürizm üçün baza rolunu oynamaq "potensialındadır".

Makron həmin "potensiala" güvənərək, onu alovlandıraraq, yaşadığımız Cənubi Qafqaz bölgəsinə də imperializm maraqlarından yanaşmanı hədəf seçir, özünün müstəmləkəçi təfəkkürünü işə salır. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin çıxışının anti-Fransa tezisləri dünya üçün, müəyyən mənada, soyuq duş effekti yaradan hadisədir. Beynəlxalq ictimaiyyət bu duşun təsirini hiss etməli və Hitlerin Makron qiyafəsindəki zühurunun qarşısını almaq üçün hərəkətə keçməlidir.

*Əvəz CAHANGİROĞLU,*
*"Xalq qəzeti"*

**Ermənistanın baş naziri Nikol Paşinyan hər dəfə Rusiya Prezidenti Vladimir Putinə zəng edəndə, Nikolun 44 günlük müharibə müddətində Kreml rəhbərinin, belə demək mümkünsə, telefon qəbuluna düşmək üçün dəstəkdən asılı qaldığı günlər yada düşür. O vaxt vəziyyət elə dramatik şəkil almışdı ki, hətta, Rusiya liderinin gündəlik iş qrafikindən sujet yayımlayan yerli telekanallardan biri Prezidentin telefon zənglərinə cavabları kontekstində "yenə Nikol Paşinyandır zəng edən" məzmunlu ifadə işlədərək, erməni baş naziri məsxərə predmetinə çevirmişdi.**

Paşinyan yenə V.Putinə zəng edib. Əlbəttə, ölkə rəhbərləri arasındakı başlıca müzakirə mövzusu Ermənistan-Azərbaycan münasibətləri olub. Sual yaranır: Nikol hansı üzlə Rusiya rəhbərinə zəng edir? Əlbəttə, siyasətin min sifəti var və Qərbpərəst Paşinyan hakimiyyətdə olduğu ötən beş ildə həmin sifətləri kifayət qədər yaxşı əxz edib. Bu mənada, ola bilər, onun hər dəfə çətinə düşəndə telefonun dəstəyini qaldırıb Putini aramasında elə də fövqəladə bir şey yoxdur. Onu da nəzərə alaq ki, Ermənistan baş naziri Moskvanın bitib-tükənmək bilməyən erməni sevdasından xəbərdardır və həmin sevdanın üzərində oyun oynamaqdan çəkinməyəcək qədər sırtıqdır...

# Qarabağda daralan çənbər: Paşinyanın Putinə zəngi və Arayikin küskün yalvarışı

## *Moskva üçün prioritet nədir, İrəvan üçün nə?*



***

Əlqərəz, Paşinyan-Putin telefon zəngi ilə bağlı iki məlumat yayıldı. Birini Ermənistan hökuməti, digərini Kreml tirajladı. Birinci ikincidən fərqli olaraq daha yığcam idi. İrəvan bildirdi ki, telefon təması zamanı Qarabağda Laçın yolunun "bağlanması" ilə əlaqədar yaranmış humanitar böhran müzakirə olunub. Moskva isə əvvəla danışığın Ermənistan tərəfinin təşəbbüsü ilə gerçəkləşdirildiyini açıqladı. Yəni, minnət ritorikasını işə saldı.

Kremlin məlumatında, həmçinin ölkə liderlərinin Qarabağ ətrafındakı vəziyyəti, o cümlədən Laçın dəhlizi boyunca maneəsiz nəqliyyat əlaqələrinin təmin edilməsi məsələlərini müzakirəyə çıxardıqları vurğulandı. Habelə, Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında 2020-2022-ci illərdə imzalanmış bütün sazişlər kompleksinin ardıcıl şəkildə həyata keçirilməsinin prinsipial əhəmiyyəti önə çəkildi.

Moskva tərəfindən yayılmış məlumatdakı ən vacib məqam isə bu idi: "Rusiya Prezidenti Rusiyanın Ermənistan-Azərbaycan sülh müqaviləsinin işlənib hazırlanmasında əməli yardımın davamına hazır olduğunu təsdiqləyib. Müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi razılaşdırılıb".

***

Göründüyü kimi, hansı tərəfə hansı məqam sərfəlidirsə, onu qabardıb. Deməli, Paşinyan üçün üçtərəfli bəyanatların icrası məsələləri vacib deyil. O, Putinə nə barədə şikayətlənibsə, ölkənin Nazirlər Kabineti də məhz həmin mətləbi məlumatına daxil edib. Moskvanın cavabı isə təxminən belədir: bizim üçün vacib olan hər şeyi etməlisən.

Bəs, Nikol Rusiyanın istədiyini gerçəkləşdirəcəkmi? Çətin! Çünki ötən müddətdə onun işi-gücü Rusiyanı gözdən salmaqdan ibarət olub. Bunun üçün ən müxtəlif variantlara baş vurub. Məqsədimiz mövcud istiqamətdəki ayrı-ayrı konkret məqamları yada salmaq deyil. Onsuz da Nikolun Ermənistanın üzvü olduğu və Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində Moskvanı gözdən salmaq istiqamətindəki fikir və düşüncələrindən tutmuş, Kremlin Azərbaycan-Ermənistan vasitəçiliyini pozmağa yönəlmiş gedişlərinədək bir çox məsələlər aşkar mahiyyət daşıyır.

***

Vasitəçilikdən söz düşmüşkən, Ermənistan tərəfinin Putin-Paşinyan telefon təması ilə bağlı məlumatından bu qənaətə də gəlmək mümkündür ki, ikincinin birinciyə telefon zəngi heç də nizamlama prosesi ilə bağlı olmayıb. Sadəcə, Paşinyan Rusiya liderinə Cənubi Qafqazdakı vəziyyətin onun ölkəsinin, yəni Moskvanın xeyrinə olmadığını xatırladıb və böyük ehtimalla durumun səbəbkarı kimi Azərbaycanı hədəfə gətirmək niyyəti güdüb. Əslində, Qarabağdakı separatçı rejimin rəhbəri Arayik Arutyunyanın söylədikləri də gəldiyimiz qənaətin təsdiqidir.

A.Arutyunyan hərbi-siyasi və humanitar vəziyyətlə bağlı digər separatçıları başına yığarkən deyib ki, Paşinyandan Putinə telefon açmasını xahiş edib. Nə üçün? Bunu haqqında söz açdığımız müzakirənin məzmununa diqqət yetirdikdə görmək mümkündür. Məsələn, Arutyunyan deyib ki, Azərbaycandan artan təhlükələr və humanitar yüklərin daşınmasının, guya, tam dayandırılması şəraitində təhlükəsizlik vəziyyəti və gündən-günə kəskinləşən mövcud humanitar problemlər "Qarabağ xalqı"nın (?) mövcudluğu üçün ciddi problemlər yaradır. "Artsax"ın hakimiyyət orqanları mövcud vəziyyəti, təhlükələri və gözləntiləri hər cür şəkildə Ermənistan və Rusiya hakimiyyətlərinin, eləcə də beynəlxalq ictimaiyyətin digər aktorlarının diqqətinə təqdim edib və təqdim etməkdədir. Bütün məsul subyektlərin öz öhdəlikləri çərçivəsində təcili və effektiv fəaliyyət göstərmələrinə təcili ehtiyac var.

"Bizim qaldırdığımız ekzistensial narahatlıq kontekstində "Artsax xalqı" (?) və hakimiyyəti təhlükəsizlik və humanitar məsələlərin həllində və blokadanın aradan qaldırılmasında ən qısa müddətdə nəzərəçarpacaq nəticələr gözləyir", – deyən baş separatçı bir sıra ssenarilər əsasında, habelə məhdud imkanlar daxilində vəziyyətə nəzarət üçün əllərindən gələni etdiklərini vurğulayıb.

Bəli, buradan da aydın görünür ki, Ermənistan baş nazirinin Rusiya Prezidentinə zəngi birincinin ikinciyə Qarabağın, belə demək mümkünsə, əldən getdiyini xatırlatmaq məqsədi daşımaqdadır. Görünür, Nikol Moskvanın Qarabağ müstəvisində Cənubi Qafqazda mövcudiyyət amili üzərinə oyun oynamaq istəyinə baş vurmaqdadır. Ermənistan hökumətinin telefon zənginə dair qısa məzmunlu açıqlamasından, habelə A.Arutyunyanın telefon təmasının onun xahişi ilə gerçəkləşdiyini bildirməsindən belə qənaətə gəlmək mümkündür ki, sanki İrəvan Qarabağdan əlini üzüb, onu Rusiyanın ixtiyarına buraxıb. Əslində isə, Nikol bölgədəki erməni avantürizminin davamında maraqlıdır, sadəcə olaraq, bunu Moskvaya, bir növ, minnət kimi ortaya atır. Əlbəttə, Putini qıcıqlandırmağı düşünməsi də ağlabatandır.

Hər bir halda Paşinyanın Putinə telefon zənginə ehtiyac duyduğunu vurğulamalıyıq. Bu ehtiyac isə Qarabağda separatizm çənbərinin hər ötən gün bir qədər də daralması ilə bağlıdır. Bunu Paşinyan da yaxşı anlayır, A.Arutyunyan da. Elə Putinin özü də.

*Ə.RÜSTƏMOV,*
*"Xalq qəzeti"*

# Hayların döymədiyi qapı qalmadı

## Deyəsən, Kipr onlar üçün sonuncu dayanacaq olacaq

**Azərbaycanın uğurlu xarici siyasəti, 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdən sonra regionda yaratdığı yeni geosiyasi reallıqlar, habelə müharibənin başa çatmasından ötən 2 il 8 aya yaxın müddətdə əldə etdiyi yeni hərbi-siyasi qələbələr Ermənistan rəhbərliyini hərəkətə keçməyə vadar edib. Üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT), onun aparıcı dövləti olan Rusiyadan umduğu hərbi dəstəyi ala bilməyən rəsmi İrəvan yeni müttəfiqlər axtarışına çıxıb. Maraqlıdır ki, rəsmi İrəvan yeni müttəfiqlər axtarışı zamanı "düşmənimin düşməni mənim dostumdur" prinsipi ilə hərəkət etməyə üstünlük verir. Hayların Azərbaycanla münasibətləri sərin olan Hindistan, İran, Yunanıstan və Kiprlə hərbi əməkdaşlığı inkişaf etdirmək səylərini başqa cür izah etmək mümkün deyil.**

Bir müddət bundan öncə, daha doğrusu, aprelin 20-də İrəvanda Ermənistan, İran və Hindistan xarici işlər nazirlikləri arasında üçtərəfli formatda ilk siyasi məsləhətləşmələr baş tutmuşdu. İyulun 5-də isə Kiprdə Ermənistan–Yunanıstan–Kipr üçtərəfli müdafiə məsləhətləşmələri keçirilib. Hayastan müdafiə nazirliyi bildirib ki, tərəflər üç ölkənin müdafiə qabiliyyətinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsi üçün birgə addımlar atmağa hazır olduqlarını təsdiqləyiblər.

Müzakirələr nəticəsində Ermənistan, Yunanıstan və Kiprdə bir sıra tədbirlərin keçirilməsini özündə əks etdirən üçtərəfli hərbi əməkdaşlığa dair illik proqram imzalanıb.

***

Ermənistan hakimiyyətinin bu yanaşması onun vurnuxma içində olduğunun göstəricisidir. Haylar gah Qərbdə, gah Rusiyada, gah da Şərqdə özlərinə müttəfiq axtarırlar. Ancaq hər yerdə əlləri boşa çıxır. Baş nazir Nikol Paşinyan İkinci Qarabağ müharibəsinin başlanmasına rəvac verən təxribatçı addımlar atsa da, Vətən müharibəsinin elə ilk günlərində Azərbaycanın gücünü gördükdən sonra Rusiya Prezidentinə zəng edərək müharibəni dayandırması üçün, sözün həqiqi mənasında, ona yalvarırdı. Ancaq onun bu təşəbbüsləri uğursuz oldu.

Müharibə başa çatandan sonra Paşinyan Azərbaycanı onun ərazisinə "hərbi təcavüz" etməkdə suçladı. Bu məqsədlə hər zaman güvəndiyi KTMT-dən dəfələrlə dəstək istədi. Amma bütün cəhdləri səmərəsiz oldu.

Şimaldan bir şey çıxmadığını görən Paşinyan bundan sonra üzünü Qərbə çevirdi. Parisin timsalında özünə dəstəkçi aradı. Fransa parlamenti müharibənin başa çatmasından az sonra – 2020-ci ilin dekabr ayında separatçı rejimin tör-töküntülərini "müstəqil dövlət" kimi tanımaqla bağlı qətnamə qəbul etdi. Ancaq Fransa hökuməti parlamentin bu avantürist qərarını dəstəkləmədi. Fransa bu gün də Azərbaycanı olmayan şeylərdə ittiham etməyə çalışır. Qarabağ ermənilərinin reinteqrasiyası kimi Azərbaycanın daxili işinə qarışır.

İyunun 27-də isə Prezident Emmanuel Makron hayların çoxluq təşkil etdiyi Marsel şəhərində erməni icması ilə görüşdə növbəti dəfə Azərbaycan əleyhinə, Ermənistanı birtərəfli qaydada müdafiə edən və həqiqəti əks etdirməyən fikirlər səsləndirdi. Yeri gəlmişkən, onun görüşdüyü ermənilər Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun"un büro üzvləridir ki, N.Paşinyan onların Ermənistana girişini qadağan edib. Ancaq Azərbaycan Fransa Prezidentinin ittihamlarının birini də cavabsız buraxmır. Hamısına adekvat cavab verir. Elə iyulun 5-6-da Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşünün keçirilməsi və burada Fransanın dənizaşırı icma və ərazilərindən olan nümayəndələrin iştirakı, çıxışlar zamanı Parisin neokolonializm siyasətinin tənqid olunması diqqəti cəlb edir. Bundan əlavə, iyulun 6-da Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda "dəyirmi masa" keçirilib. İlk dəfə məhz Bakıda rəsmi Parisin müstəmləkəçi və irqi ayrı-seçkilik siyasəti sərt tənqidlərə tuş gəlib – Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılıq əldə olunub. Bu mənada Fransanın Azərbaycana qarşı açdığı cəbhə onun özünə qarşı çevrilib. Ermənistanın Azərbaycana qarşı Fransadan istifadə etmək cəhdləri uğursuzluğa düçar olub.

***

Son zamanlar İranla Azərbaycan arasında münasibətlərdə müsbət dinamikanın müşahidə olunması, İran xarici işlər naziri Hüseyn Əmir Abdullahianın Bakıda keçirilən tədbirdə iştirakı, Azərbaycan Prezidenti tərəfindən qəbul olunması, nazirin Tehrandakı səfirliyimizə hücumun müqəssirlərinin ən sərt şəkildə cəzalandırılacağını bəyan etməsi iki ölkə arasında münasibətlərin tədricən qaydaya salınacağına inam yaradır. Beləliklə, Ermənistanın əlindəki Azərbaycana qarşı "İran kartı" da aradan qalxmış olur.



Bütün bu uğursuzluqlardan sonra Ermənistanın Yunanıstan və Kipr Respublikasına üz tutması haradasa anlaşılandır. Ancaq Azərbaycanın Yunanıstanla da enerji sahəsində əməkdaşlığı mövcuddur. Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektoru Trans Adriatik Boru Xəttinə (TAP) qoşulduqdan sonra Afina Azərbaycan qazının alıcısına çevrilib. Avropada yeni çağırışlar qarşısında Azərbaycan qazına tələbat artır. Beləliklə, Afinanın da gec-tez Ermənistandan imtina edəcəyi gözləniləndir.

Bu arada Hayastanın əməkdaşlıq üçün məhz üçtərəfli format seçməsi də diqqətdən yayınmır. Məsələ ondadır ki, üçtərəfli əməkdaşlıq formatının müəllifi də rəsmi Bakıdır. Artıq neçə illərdir ki, Azərbaycan–Türkiyə–Pakistan, Azərbaycan–Türkiyə–Türkmənistan, Azərbaycan–Türkiyə–Gürcüstan, Azərbaycan–Türkiy–İran əməkdaşlıq formatları mövcuddur və uğurla fəaliyyət göstərir. Ermənistanın da üçtərəfli formatda əməkdaşlıq əlaqələri qurmağa çalışması rəsmi Bakının yürütdüyü siyasi xətti yamsılamaq cəhdidir. Ancaq, necə deyərlər, onlar bizim ayaqqabımızı geyinsələr də, yerişimizi yeriyə bilməzlər.

***S.NAZİMOĞLU, "Xalq qəzeti"***

### Ekspert rəyi

**Zaur MƏMMƏDOV, politoloq**



– Əgər Kipr və Yunanıstan Ermənistanla hərbi əməkdaşlığı davam etdirmək və birgə hərbi təlimlər keçirmək, öz hərbi doktrinalarında İrəvana müəyyən yer vermək istəyirlərsə, o zaman ciddi sual yaranır. Bu sual əsasən Yunanıstana ünvanlanır: Afinanın İrəvandan öyrənəcəyi nə var? Müharibədə məğlub olmuş ölkənin hərb sistemi ilə bağlı nəyi öyrənə bilər? Biz Yunanıstanla Ermənstanın hərb tarixini müqayisə etsək, görərik ki, bu müqayisə olduqca qüsurludur. Yunanıstan kimi ölkələr özlərindən güclü ölkələrlə hərbi-texniki əməkdaşlıq etməli, hərbi təlimlər keçirməlidirlər. Demək, onları bir-birinə yaxınlaşdıran əsasən siyasi səbəblərdir. Onlar çox yaxşı bilirlər ki, Kiprin, Yunanıstanın və Ermənistanın ordusu birləşsə belə, böyük bir ordu etməz. Belə olan təqdirdə, bu, əlbəttə, siyasi dialoq və platformadır. Biz onları cırtdan ölkəni belə təhdid edəcək hərbi qruplaşma adlandıra bilmərik.

Ermənistanın baş naziri bir tərəfdən 86,6 min kvadratkilometrdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirir, digər tərəfdən Hindistanla silah alqı-satqısına dair müqavilə imzalayır. Kipr, Yunanıstan və digər ölkələrlə hərbi sahədə əməkdaşlığı genişləndirir. Bu dövlətlərin hər biri bilməlidir ki, Azərbaycan və Ermənistan arasında indiyədək sülh müqaviləsi bağlanmayıb və onlar hələlik münaqişə tərəfləridir. Ona görə də münaqişə tərəflərindən birinə silah satmaq digər tərəfə qarşı gələcək münaqişədə iştirak etmək deməkdir. Yəni, həm siyasi, həm də hərbi tərəfə çevrilməkdir ki, diplomatlar bu barədə ciddi düşünsələr yaxşı olar.

Fransa ATƏT-in prinsiplərinə zidd olaraq, Ermənistanın hərbi təchizatı ilə məşğul olmaq niyyətindədir. Bu, birbaşa olaraq Avropa İttifaqının da prinsiplərinə ziddir. Hindistan isə Ermənistanla əlaqələrə sırf münaqişə vəziyyətində olduğu Pakistanın Azərbaycanla yüksək səviyyəli əməkdaşlığına qarşı getmək prinsipi ilə yanaşır. Bu da Hindistan hakimiyyətinin diplomatiya sahəsində çox səthi biliklərə malik olduğunun göstəricisidir. Yunanıstan isə birbaşa Azərbaycanın enerji resurslarından asılı olan dövlətdir. Afina və Bakını təkcə ənənəvi enerji yox, bərpa olunan enerji, optik və nəqliyyat-kommunikasiya layihələri birləşdirə bilər. Bundan sonra Yunanıstan, çətin ki, Ermənistanın yanında yer alsın. Əgər İrəvanda hakimiyyət yenidən hansısa ölkələrə ümid etmək istəyirsə, bu ümid onları şamsız qoyacaq. Nəticə etibarilə Ermənistan yeni məğlubiyyətlər seriyası yaşamalı olacaq.

# Müstəmləkəçilik Fransanın üz qarasıdır

**Müstəmləkəçilik, yaxud kolonializm bəşər tarixinin üz qarası, onu həyata keçirən ölkələrin tarixində, sözün əsl mənasında, silinməz ləkədir. Tarixən dənizləri fəth edən, gəmiqayırmanın inkişaf etdiyi dövlətlər müstəmləkə əraziləri ələ keçirmək uğrunda bir-biri ilə yarışıblar. Bunlar əsasən Fransa, Böyük Britaniya, İspaniya, Portuqaliya, Belçika, Almaniya, Niderland, ABŞ, Rusiya, Yaponiya və İtaliya kimi dövlətlərdir.**




İtalyan əsilli ispan dənizçisi və səyyahı Xristofor Kolumbun 1492-ci ildə avropalıların Amerika qitəsinə yolunu açması ilə başlayan və Fransanın timsalında bu günümüzədək davam edən müstəmləkəçilik dövründə adları çəkilən dövlətlər ələ keçirdikləri əraziləri amansızcasına istismar edib, oradan təbii sərvətləri metropoliyalara (metropoliya müstəmləkələri olan dövlətin əsas ərazisinə deyilir-S.H.) daşıyıblar. Əldə edilən bol xammal və son dərəcə ucuz işçi qüvvəsi, daha doğrusu, qul əməyi sayəsində bu ölkələrin iqtisadiyyatı, sənayesi güclü inkişaf edib. Bu gün də onların iqtisadiyyatının güclü olması, əhalisinin zəngin yaşaması məhz müstəmləkə ərazilərin istismar edilməsinin nəticəsidir. Bəzi hallarda müstəmləkə ərazilər metropoliyaların ərazisindən qat-qat böyük olub. Məsələn, Belçika Krallığının Mərkəzi Afrikadakı koloniyalarının ərazisi Belçikanın özündən 77 dəfə böyük idi. Konqo isə (müasir Konqo Demokratik Respublikası) 1885-1908-ci illərdə kral II Leopoldun təsdiqlənmiş xüsusi mülkiyyəti hesab olunurdu. Bu koloniyanın istismarı Belçikada kapitalın toplanmasının və sənaye inkişafının əsas mənbələrindən biri idi.

Ümumiyyətlə, bütün müstəmləkəçi dövlətlər koloniyalardan metropoliyalara misilsiz var-dövlət, təbii sərvətlər daşıyıblar. Müstəmləkə ərazilərin əhalisi isə soyqırımlarına, işgəncələrə, alçaldılmalara, istismara məruz qalıb, qul kimi işlədilib, alınıb-satılıblar. Məsələn, az öncə adını çəkdiyimiz kral II Leopold kauçuk plantasiyalarında işləməyə məcbur edilən milyonlarla konqolunun qətlinə görə tarixə "konqoluların qəssabı" kimi düşüb.

İkinci Dünya müharibəsinin başa çatması, bundan az sonra BMT-nin yaradılması dünyada dekolonizasiya prosesinin başlanmasına səbəb olub. Proses zamanı, demək olar ki, bütün keçmiş müstəmləkəçi dövlətlər öz müstəmləkələrindən imtina etməyə, onlara azadlıq verməyə və suveren hüquqlarını tanımağa məcbur olublar. Buna baxmayaraq, bir dövlət var ki, o, hələ də müstəmləkələrini əlindən buraxmaq istəmir. Bu, Avropa İttifaqının aparıcı dövləti olmağa iddialı, milli devizi "Azadlıq, bərabərlik, qardaşlıq" olan Fransa Respublikasıdır.

***

Coğrafiya kitablarında və internetdə Fransanın ərazisinin 551 500 kvadratkilometr olduğu qeyd edilib. Yeri gəlmişkən, Fransa bu göstərici ilə Avropanın ərazisinə görə ən böyük ölkəsidir. Ancaq, əslində, "Beşinci Respublika"nın (1958-ci ildə qəbul edilmiş yeni Fransa Konstitusiyası ilə dövlət rəsmən bu cür adlanır-S.H.) ərazisi bundan xeyli böyükdür. Yəni 1 milyon 111 min 155 kvadratkilometrdir. Bəs 559 655 kvadratkilometrlik fərq necə yaranıb? Fransanın qalan ərazisi harada yerləşir? Qalan ərazilər Fransanın müstəmləkə əraziləridir. Fransa XXI əsrdə müstəmləkə ərazilərə malik nadir ölkələrdəndir.

Fransanın əsas əraziləri qitədəki və Atlantik okeanındakı ən yaxın adaları, La-Manş boğazını və Aralıq dənizi sahilini (Korsika adası daxil olmaqla) əhatə edən onun Avropa hissəsidir. Bura Fransanın metropoliyasıdır. Parisin xaricdəki mülkləri hazırda formal olaraq koloniya statusuna malik deyil, çünki 1946-ci il Konstitusiyası ilə Fransa İmperiyasının adı dəyişdirilərək Fransız İttifaqı adlandırılıb və bütün müstəmləkələr orada cəmləşib.

Bir vaxtlar nəhəng müstəmləkə imperiyasının qalıqları Fransanın xaricdəki müasir mülkləridir (xarici departamentlər, icmalar və xüsusi statusa malik inzibati-ərazi birləşmələri). Onlardan materikdə yalnız Fransız Qvianası yerləşir. Qalanların hamısı adalardır (Fransız Polineziyası, Martinika, Mayot və sair), həmçinin "sui generis" (xüsusi statuslu inzibati-ərazi qurumu) ərazisi olan Yeni Kaledoniya adasıdır. Ümumilikdə, 13 müstəmləkə ərazinin sahəsi 559 655 kvadratkilometr, əhalisi isə 2 milyon 750 min nəfərdir. Fransız müstəmləkə dövrünün müasir mirası həm də fransızdilli ölkələrin birliyi – Frankofoniya Təşkilatıdır.

Fransa bu gün də həmin ərazilərə müstəqillik verməkdən boyun qaçırır. Müstəmləkə ərazilərin istismarını davam etdirir, oradakı milli azlıqların hüquqlarını tapdalayır. Həmçinin, başqa ölkələrin, o cümlədən, Azərbaycanın daxili işlərinə qarışır. Qarabağ iqtisadi rayonunda erməni separatizmini qızışdırır, onların reinteqrasiyasına mane olur.

***

Fransanın müstəmləkəçilik siyasəti yürütməsi, buna rəğmən ölkəmizin daxili işlərinə qarışmağa çalışması dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun iyulun 5-də Bakıda öz işinə başlayan nazirlər görüşündə əsas müzakirə mövzularından biri olub. Prezident İlham Əliyev çıxışı zamanı qeyd edib ki, neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Dövlətimizin başçısı bildirib ki, Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır: "Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən, özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir..."

Cənab İlham Əliyev qeyd edib ki, özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Onun sözlərinə görə, Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərib: "Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".

Bəli, Fransa müstəmləkəçi dövlət olmaqla yanaşı, həm də, islamofob və türkofob dövlətdir. Daxildəki irqi ayrı-seçkilik isə onun müstəmləkəçi siyasətinin davamıdır. İndi isə Prezident İlham Əliyevin dediyi kimi, bu mənfur təcrübəni Cənubi Qafqazda tətbiq etməyə çalışır. Amma Parisin bu arzusu gözündə qalacaq.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

### Ekspert rəyi

**İlyas Hüseynov, politoloq**



– İmperiya keçmişi olan dövlətlər XX əsrdə müstəmləkəçilik siyasətindən əl çəkdilər. Onlar bunun nə qədər zərərli olduğunu anladılar. Digər tərəfdən, əsarət altında saxladıqları əraziləri istismar etmək, onların resurslarını öz ümumi daxili məhsuluna çevirmək prosesindən böyük dövlətlər imtina etsələr də, Fransa bu gün də həmin siyasəti davam etdirir. Xüsusilə, Afrika qitəsində bu talançılıq və təbii resursların vandalcasına istismarı müqabilində yerli əhalinin hüquq və imtiyazlarının tanınmaması, təhlükəsizliklərinin təmin edilməməsi halları mövcuddur.

Digər tərəfdən, repressiv siyasət, amansızlıq, yerli əhaliyə divan tutulması və soyqırımı siyasətinin davam etdirilməsi də müşahidə olunmaqdadır. Eyni zamanda, qeyd etmək lazımdır ki, Fransa idarəçiliyi dövründə Əlcəzairdə 1,5 milyon insan soyqırımına məruz qalıb. Əlcəzairdə Fransa zülmünə qarşı üsyan qaldıran mücahidlərin kəllə sümükləri hərbi qənimət kimi bu gün də Parisdəki Təbiət və İnsan Muzeyində nümayiş etdirilir. Bu, onu deməyə əsas verir ki, hələ də Fransada imperiya zehniyyəti, kolonial təfəkkür və müstəmləkəçi yanaşma hakimdir. Rəsmi Paris dünyanın digər bölgələrinə də bu prizmadan yanaşır. Özünün təsir zonalarını, nüfuz dairələrini müəyyənləşdirir. Bu, tamamilə yolverilməzdir.

Prezident İlham Əliyev iyulun 5-də Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə çıxışı zamanı Fransanın müstəmləkəçilik siyasətinə diqqət yetirib və bu siyasəti ciddi tənqid edib. Bu, çox doğru yanaşmadır. Çünki Fransa parlamentinin hər iki palatasında, yəni həm Milli Assambleyada, həm də Senatda vaxtaşırı irqi ayrı-seçkiliyi təşviq edən, qeyri-fransızlara nifrəti özündə əks etdirən çıxışlar edilir və bu irqi, dini, etnik, milli müstəvidə dözümsüzlükdən xəbər verir. Əgər siyasətçilər belə edirlərsə, bu siyasi xətt, əlbəttə, media subyektlərində, internetdə də davam etdirilir. Bu cür tezislər daxildə də böyük problemlərə yol açır. Əlcəzair əsilli 17 yaşlı Nahelin məhz polis zorakılığının qurbanı olması yeni sosial partlayışa və əhalisinin 22 faizi qeyri-fransızlardan ibarət olan vətəndaşların üsyanına gətirib çıxardı.

Bu, Emmanuel Makronun prezidentliyi dövründə müstəmləkəçilik təfəkkürünün geniş intişar tapmasının nəticəsidir. Düşünürəm ki, Makron və onun komandası törədilən cinayətlərə, soyqırımılarına görə üzr istəməlidir. Belə olan halda biz deyə bilərik ki, Fransa bu siyasətdən imtina edib. Təəssülər olsun ki, Makron nəinki törədilən cinayətləri etiraf etmir, onlara görə üzr də istəmir. Hətta, bu siyasətin davam etdirilməsinin və bu cinayətlərə bəraət qazandırılmasının tərəfdarı kimi çıxış edir ki, bu da tamamilə yolverilməzdir. Məhz bu səbəbdən Fransa Əlcəzair, Mali, Burkina-Faso və digər ölkələrdə nüfuzdan düşür. Konqo Demokratik Respublikasının Prezidenti Feliks Çisekedi martın 4-də Kinşasada keçirilən mətbuat konfransında açıq şəkildə Makronu tənqid etdi. Çoxdan ürəyində yığılıb qalmış fikirləri onun üzünə dedi. Bu da onu deməyə əsas verir ki, Makron siyasi xarizmasını itirmiş, idarəçilik təcrübəsi olmayan, ölkəsini hərc-mərclik və anarxiya, xaos durumuna gətirmiş şəxsdir. Məhz müstəmləkəçilik siyasətinə görə üzr istənilməməsi daxildə böyük problemlər yaratmaqla yanaşı, xarici siyasətdə də uğursuzluqlara yol açır.

# Müstəmləkəçilik əleyhinə Bakı bəyanatı

*Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin daha bir töhfəsi*



**Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyi bu qurumun dünya miqyasında tanınması baxımından parlaq bir mərhələdir. Təşkilatın Bakıda düzənlənmiş Əlaqələndirmə Bürosunun nazirlər görüşü də tədbirdə səslənmiş fikirlərin dolğunluğu, əhatə dairəsinin genişliyi baxımından diqqət çəkdi. Bu mənada toplantı çərçivəsində dünən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə baş tutmuş "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusundakı "dəyirmi masa" da xüsusi əhəmiyyət daşıdı. Əlbəttə, tədbirin aktuallığını vurğulayan orada qəbul edilmiş bəyanatdır.**

Həmin bəyanat barədə söz açmazdan əvvəl iki cəhətə diqqət yetirək. Birincisi, tərkibində 120 ölkəni birləşdirən QH beynəlxalq hüququn fundamental prinsipləri, eləcə də "Bandunq prinsipləri" və xalqların mənafeyi əsasında müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platformadır. Bu platforma müstəmləkə hökmranlığı ilə savaşa köklənmiş xalqları dəstəkləmək naminə yeni məqsədlər müəyyənləşdirməyi hədəf seçir.

İkincisi, "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusundakı "dəyirmi masa"da isə bu bəşəri bəlaya məruz qalan xalqlarla, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı son fransız müstəmləkələri ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı, ümumən Fransanın müstəmləkəçilik siyasətinin fəsadları geniş müzakirə olundu.

Toplantıda Martinikanın, Qayananın, Yeni Kaledoniyanın, Fransız Polineziyasının müstəqillik tərəfdarları və GFLM alyansının katibliyi (Groupe Fer de Lance Mélanésien) Qoşulmama Hərəkatının müstəmləkəçi və neokolonial təcrübələrə qarşı mübarizədə prinsipial mövqeyinin etibarlılığını bir daha təsdiqlədilər.

Bəli, bəyanatda ümumən müxtəlif dekolonizasiya hərəkatlarının bu xalqların gələcəyini, hətta uzunmüddətli perspektivdə sağ qalmalarını təhdid edən müstəmləkəçilik siyasətinin zərərli olduğu vurğulandı. Sənəddəki konkret məqamlara gəlincə, ilk növbədə Qayanada sosial vəziyyətin xüsusilə pisləşdiyinin, əhalinin 50 faizindən çoxunun yoxsulluğun astanasında olduğu vurğulandı və bildirildi ki, burada işsizlik 30 faizdir, təbii sərvətlər talan edilir və torpaqların 90 faizi Fransa dövlətinin şəxsi mülkiyyətindədir.

Sənəddəki ikinci məqam Martinika və Qvadelupanın iki böyük fəlakətlə üz-üzə olduğunun diqqətə çatdırılmasıdır. Bunlar gizli məskunlaşma strategiyalarının bir hissəsi olan əvəzetmə yolu ilə soyqırımı və təbii ekosistemlərə, əhalinin sağlamlığına ciddi şəkildə təsir edən xərçəng xəstəliyinin rekord göstəriciləridir.

Bəyanatda, həmçinin Yeni Kaledoniyada Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) 2021-ci ildəki 3-cü referenduma etiraz etdiyi diqqətə çatdırıldı və müstəmləkə altına salınmış Yeni Kaledoniya xalqının müstəqillik hüququ bir daha təsdiqləndi.

Sənəddəki daha bir məqam isə Polineziya ilə bağlıdır. Orada hazırda tamamilə dekolonizasiya perspektivinin aktual əhəmiyyət daşıdığı önə çəkildi. Habelə cənab Oskar Temarunun rəhbərlik etdiyi "Tavini huiraatira no te Ao Maohi" partiyasının Qoşulmama Hərəkatında müşahidəçi statusu almaq istəyi ifadəsini tapdı.

Afrika Mundus sferasının qeyri-hökumət diplomatik şəbəkəsi tərəfindən dəstəklənən, Bakıda olan anti-müstəmləkəçi hərəkatlar həm Afrika əsilli insanlara, həm də yerli xalqlara təsir edən müstəmləkə cinayətlərinə görə kompensasiya tələb edirlər. Bu hərəkatlar dünya ölkələrini, eləcə də beynəlxalq təşkilatları, o cümlədən BMT-ni özlərinin fundamental hüquqlarına hörmətin təmin edilməsinə yönəlmiş addımları dəstəkləməyə çağırırlar ki, bu da sənədin məğzindəki başlıca amillərdəndir.

Bəyanatın ən vacib məziyyətlərindən birinə diqqət yetirək. Qoşulmama Hərəkatına Əlaqələndirmə Bürosunun Bakıdakı nazirlər görüşünə, o cümlədən, görüş çərçivəsində təşkil olunmuş "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusundakı "dəyirmi masa"-ya qatılmış anti-müstəmləkəçi hərəkatlar xalqlar arasında qlobal əməkdaşlığa, onların bərabərliyinə və suverenliyinə hörmətə əsaslanan beynəlxalq münasibətlərə yeni yanaşma formalaşdırmaq məqsədilə, xalqlarının tam azad edilməsinədək, müstəmləkəçiliyin kökünün kəsilməsinədək mübarizələrini davam etdirməyi və gücləndirməyi öhdələrinə götürdülər. Ən əsası isə tərəflər Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəldilər və əməkdaşlığı davam etdirməyə hazır olduqlarını bildirdilər.

Qeyd edək ki, sözügedən bəyanatı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Yeni Kaledoniyada Kanak və Sosialist Milli Azadlıq Cəbhəsindən Rok Vamytan və Maqali Tinqal, Dekolonizasiya və Sosial Emansipasiya Hərəkatından Moris Pindard, Sindi Polüks, Jan-Viktor Kastor, Martinikanın Azadlığı Partiyasından Fransis Karol, Suveren Martinika Uğrunda Demokratlar və Ekoloqlar Hərəkatından Klodet Düamel, "Tavini Huiraatira no te Ao Maohi" partiyasından Oskar Temaru, Antoni Geros, Leon Tefo, Ella Tokaragi, "Africa Mundus"dan Emmanuel Arqo və Edvin Daiti imzalayıblar.

Sonda onu da bildirək ki, həm Qoşulmama Hərəkatına Əlaqələndirmə Bürosunun Bakıdakı nazirlər görüşü, həm də toplantı çərçivəsində gerçəkləşdirilmiş ayrı-ayrı təşəbbüslərin məramında dayanmış başlıca vəzifə ədalətin təmin olunması, ikili standartlardan uzaq səmimi dünya düzəninin formalaşmasına nail olmaq üçün təşəbbüslər göstərməkdir. Bu təşəbbüslər beynəlxalq hüquqa əsaslanmaqla, bəşəri dəyərlərin qorunmasını hədəf seçib.

Əlamətdar haldır ki, QH Azərbaycanın sədrliyi dönəmində həm humanist hədəflərə doğru inamlı irəliləyiş platformasına çevrilib, həm də mövcud istiqamətdəki neqativ meyillərə qarşı müqavimət immuniteti formalaşdırıb. Hesab edirik ki, ölkəmizin təşkilata verdiyi ən böyük töhfə də elə budur. Onu da vurğulayaq ki, bu, istər QH-nin, istərsə də quruma üzv dövlətlərin və birliklərin timsalında bütövlükdə dünya xalqlarının xoşbəxt və firavan gələcəyinin təminatı üçün son dərəcə etibarlı töhfədir.

***R.ƏVƏZ, "Xalq qəzeti"***

# Ədliyyə Nazirliyinin kollegiya iclası



**Dünən Ədliyyə Nazirliyinin geniş kollegiya iclası keçirilib. Nazir Fikrət Məmmədov cıxış edərək məhkəmə-hüquq sistemində islahatların davam etdirildiyini bildirib, vətəndaşların ədliyyə və məhkəmə fəaliyyətinə əlçatanlığının asanlaşdırılmasına xidmət edən rəqəmsal innovasiyaların geniş tətbiqinə toxunub.**

Toplantıda ötən ay ölkə üzrə tam tətbiqi başa çatdırılmış "Elektron məhkəmə" informasiya sistemi barədə videoçarx nümayiş etdirilib. Sonra məlumat verilib ki, e-məhkəmə sistemi məhkəməyə müraciət anından qərarın icrasına qədər bütün prosesi əhatə edir.

İclasda ədliyyə fəaliyyətinin əsas istiqamətləri üzrə cari ilin birinci yarısında görülmüş işlər ətraflı təhlil olunaraq bildirilib ki, respublikamızda aparılan geniş qanunyaradıcı fəaliyyətdə fəal iştirak edən nazirlikdə ilin əvvəlindən 2 min 200-dən çox hüquqi akt layihəsi hazırlanıb və ya ekspertizadan keçirilib. Əhalinin hüquqi biliklərinin yüksəldilməsi məqsədilə milli qanunvericiliyin vahid elektron bazasına – e-qanun.az saytına daxilolmaların sayı ötən ilin eyni dövrü ilə müqayisədə, təxminən, 2 dəfə artaraq 2,4 milyona çatıb.

Dövlətimizin başçısının tapşırığına uyğun olaraq vətəndaşların, xüsusilə Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin müraciətlərinə qayğı və həssaslıqla yanaşılaraq ötən dövrdə 7 min 700-ə yaxın vətəndaş nazirlikdə, bölgələrdə, habelə virtual qaydada qəbul edilib, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb.

Kollegiyada ölkə iqtisadiyyatının inkişafı və mülki dövriyyənin artması nəticəsində 2,5 milyona yaxın notariat hərəkətinin aparıldığı, 138 mindən çox vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatına alındığı bildirilib, bu əməliyyatlar, ümumilikdə, 6,6 milyon manat vəsaitin, daşınmaz əmlakla əlaqədar müqavilələr üzrə isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz çox – 29 milyon manata yaxın sadələşdirilmiş verginin dövlət büdcəsinə köçürüldüyü vurğulanıb. Cari ildə əhaliyə göstərilən elektron ədliyyə xidmətlərinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər görülüb, vətəndaş məmnunluğu doğuran "Mobil notariat" tətbiqi istifadəçilərinin sayı 33 faiz çoxalaraq 600 minə çatıb.

İclasda nazirliyin fəaliyyət dairəsinə daxil olan digər sahələr üzrə əldə edilmiş uğurlardan da söhbət açılıb, qarşıda duran vəzifələr geniş müzakirə olunb. Sonda müvafiq qərarlar qəbul edilib, məsul şəxslərə tapşırıqlar verilib.

***"Xalq qəzeti"***

# Baş prokurorun Türk Dövlətləri Təşkilatının Baş katibi ilə görüşü

**Dünən Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevlə görüşüb.**



Baş prokuror Azərbaycanla TDT arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq qardaş və dost türkdilli ölkələrin müxtəlif qurumları, o cümlədən prokurorluq orqanları arasında əlaqələrin gücləndirilməsinin önəmli olduğunu bildirib. O, iki il əvvəl Azərbaycan və Türkiyə prokurorluqlarının təşəbbüsü ilə Bakıda TDƏŞ-ə üzv dövlətlərin Baş prokurorlarının ilk iclası və Baş prokurorlar Şurasının təsis edilməsinin əhəmiyyəti vurğulayıb.

Baş katib Kubanıçbek Ömüralıyev yaradılmış platformanın TDT tərəfindən təqdir edildiyini və dəstəkləndiyini bildirərək türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın inkişafında, xüsusən də cinayətkarlığa qarşı mübarizədə təsis edilmiş Şuranın mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb.

***"Xalq qəzeti"***

Milli Məclisin iclasında

# Kənar ölkədə hesab açan partiya cərimələnəcək

**İyulun 6-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirildi. İclasda 49 qanun layihəsi müzakirə edildi.**



Gündəliyin təsdiqindən sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparıldı. Komitə sədrləri və deputatlar çıxışlarında Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən görüşündə söylədiyi nitqini yüksək dəyərləndirdilər. Deputatlar dövlət başçısının Fransanın neokolonializm siyasəti, Fransada irqçilik meyillərinin, milli azlıqlara qarşı təzyiqlərin artması ilə bağlı tənqidi fikirlərini dəstəklədilər.

Azərbaycan Prezidentinin BMT Təhlükəsizlik Şurasında islahatların keçirilməsi ilə bağlı fikirlərini yüksək qiymətləndirən deputatlar Qoşulmama Hərəkatının sədri İlham Əliyevin nitqini yeni dünya düzənində qlobal məqsəd və hədəflərə doğru birgə fəaliyyət üçün yol xəritəsi kimi xarakterizə etdilər. Çıxış edənlər, həmçinin gündəmdəki məsələlərə münasibətlərini bildirdilər və bəzi aktual mövzularla bağlı fikirlərini səsləndirdilər.

Sonra Parlamentin sədri Sahibə Qafarova gündəlikdəki məsələlər barəsində məlumat verdi. O, qeyd etdi ki, birinci məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinə dəyişiklik haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihəsidir. Qeyd edildi ki, qanun layihəsi beynəlxalq sənədin təsdiqi ilə bağlı olduğuna görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən, bir oxunuşda qəbul ediləcək. Sənəd müzakirədən sonra təsdiq edildi.

S. Qafarova gündəliyin 2-ci məsələsindən başlayaraq, növbəti 37 qanun layihəsinin cənab Prezidentin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu bildirdi. Təqdim olunan qanun layihələrinə parlamentin dörd komitəsində baxıldığı bildirildi. Mülki Prosessual Məcəllədə, İnzibati Prosessual Məcəllədə və Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri isə uyğunlaşdırma və dəqiqləşdirmə xarakteri daşıdığı bildirildi.

Milli Məclisin sədri gündəliyin növbəti 11 məsələsi ikinci oxunuşda olan qanun layihələri olduğunu bildirdi.

Diqqət çəkən məqamlardan biri də Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi oldu. Qeyd edildi ki, bu sənəd "Siyasi partiyalar haqqında" Qanunda müəyyən edilmiş hüquq normalarının pozulmasına görə inzibati məsuliyyətin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Məcəlləyə edilən dəyişikliyə əsasən, siyasi partiyalar tərəfindən qəbul edilən qanunsuz ianələr, partiyanın qeydiyyatsız fəaliyyəti, əcnəbilərin siyasi partiyaya üzv qəbul edilməsi, partiya üzvlərinin reyestrindəki dəyişiklikləri barədə məlumat verilməməsinə görə cərimələr müəyyənləşir. Eyni zamanda, Azərbaycandan kənarda hesab açan partiyaların cərimələnməsi, xarici ölkələrin partiyaları ilə bağladığı saziş barədə məlumat verməyən partiyaların 2 min manatadək cərimələnməsi nəzərdə tutulur, partiyaların dövlət orqanlarının fəaliyyətinə müdaxiləsinə görə cərimələr artırılır.

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Daha sonra "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi təqim edildi.

Müzakirələrin sonunda qanun layihəsi səsə qoyularaq, ikinci oxunuşda qəbul edildi.

Gündəlidəki digər qanun layihələrinin müzakirəsindən sonra müvafiz qərarlar qəbul edildi və bununla da Milli Məclisin iclası başa çatdı.

***Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"***

# Qoşulmama Hərəkatının nazirlər görüşü böyük beynəlxalq məclisdir

**Bildiyiniz kimi, iki gün ərzində Bakıda Qoşulmama Hərəkatına üzv dövlətlərin xarici işlər nazirlərinin görüşü keçirildi. Bu, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkəmiz tərəfindən keçirilən son böyük tədbirdir.**



Bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib.

O qeyd edib ki, tədbirin hazırlıq mərhələsi uzun müddət bundan əvvəl başlamışdı. Bir neçə gün ərzində 120 ölkəyə aid böyük sənədlər paketinin hazırlanması mümkün deyildi. Nyu-Yorkda əlaqələndirici şəxslər, 120 ölkənin nümayəndələri tərəfindən mətn üzərində iki ay iş getmişdi. Sənədlərin 90 faizindən çoxu həmin müddətdə hazırlandı. Nazirlər iclasından iki gün əvvələdək bu proses davam etdi", – deyə nazir əlavə edib.

Ölkəmizin sədrliyi ilə bağlı bütün sənədlər paketinin tam razılaşdırıldığını və Kampala sammiti üçün təqdim olunduğunu diqqətə çatdıran C.Bayramov deyib ki, əsas sənəd 1356 maddədən ibarətdir. Bundan başqa əlavə sənədlər qəbul olunub.

***"Xalq qəzeti"***

# Qeyri-neft sektorundan vergi daxilolmaları çoxalıb

**İqtisadiyyatın bütün sahələrində stimullaşdırıcı mexanizmlərin tətbiqi şəraitində həyata keçirilən layihələr qeyri-neft sektoruna büdcə gəlirlərinin əsasını təşkil edən vergi daxilolmalarının artımını gerçəkləşdirir.**

Dövlət Vergi Xidmətindən aldığımız məlumata əsasən, dövriyyələrin şəffaflaşdırılması istiqamətində görülən tədbirlər, gəlirlərin bəyanetmə səviyyəsinin yüksəlməsi, könüllü bəyanetmənin əhəmiyyətli dərəcədə qalxması, eləcə də, vergi inzibatçılığında islahatlar, iqtisadiyyatın ayrı-ayrı sektorlarında nəzərə çarpan artım templəri həm tədiyə növləri üzrə, həm də qeyri-neft sektorunda vergi daxilolmalarının artımına əlverişli şərait yaradır.

Cari ilin 5 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektorunun əksər fəaliyyət sahələrində vergi daxilolmalarının artımı müşahidə edilib. Daxilolmalarda ən yüksək artım templəri bank və sığorta sektorunda (75,5 faiz), ticarət sahəsində (30,5



faiz), xidmət sektorunda (28,1 faiz) və tikinti sektorunda (17,6 faiz) qeydə alınıb.

Qeyri-neft sektorunda 5 ayda tədiyələr üzrə vergi daxilolmalarında yüksək artım templəri nəzərə çarpıb. ƏDV daxilolmalarında artım ötən ilin müvafiq dövrü ilə müqayisədə 23,6 faiz, aksiz üzrə 16,4 faiz, mənfəət vergisi üzrə 15 faiz, fiziki şəxslərin gəlir vergisi üzrə 14,1 faiz, torpaq vergisi üzrə 48,4 faiz, əmlak vergisi üzrə 41,5 faiz, yol vergisi üzrə 17,7 faiz, dövlət rüsumları üzrə 23,2 faiz təşkil edib.

İqtisadiyyatda şəffaflaşma proseslərinin davamlı olmasını təsdiqləyən göstəricilərdən biri də ƏDV-yə cəlb olunan dövriyyələrdə, qeyri-neft sektorunun dövriyyələrində artım templərinin, habelə elektron qaimə-fakturalarla rəsmiləşən dövriyyələrin artım dinamikasının sürətlənməsi və bunun ümumi dövriyyədə xüsusi çəkisinin yüksəlməsidir.

Son 5 il ərzində reallaşdırılan islahatların nəticəsi kimi qeydə alınan davamlı artım iqtisadiyyatımızın dayanıqlılığına, mürəkkəb iqtisadi şəraitdə dinamik göstəricilərin sabitliyinə və kənar təsirlərə qarşı davamlılığına imkan verir. İqtisadi artım şəffaf biznes fəaliyyətinin təmin olunduğu şəraitdə formalaşır. Belə bir tendensiyanın davamlılığı büdcə daxilolmalarının mütəmadi artması deməkdir. Bu isə cəmiyyətin rifahının, yüksək səviyyəli sosial xidmətlərin və firavan gələcəyin təminatıdır.

Vergi sisteminin indiki inkişaf dinamikasına heç də asanlıqla nail olunmayıb. Belə ki, təqribən ötən 30 illik bir müddətdə vergi siyasəti iqtisadiyyatın indiki tələblərinə uyğun olaraq daim təkmilləşdirilib, sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə qanunvericilikdə bir sıra əsaslı dəyişikliklər edilib. Bütün bunlarla bərabər, "kölgə iqtisadiyyatı"na qarşı mübarizə metodları təkmilləşdirilib, şəffaflaşma prosesləri genişləndirilib, dövlət-biznes münasibətlərində yeni bir transformasiyanın əsası qoyulub.

Reallaşdırılan layihələr sırasında qanunsuz sahibkarlığın qarşısının alınması, leqal fəaliyyətin vergi stimullaşdırılması mexanizmlərinin tətbiqi şəraitində biznesin şəffaflaşma çağırışlarına müsbət reaksiya verərək adaptasiya prosesinin diqqətdə saxlanılması kimi təşəbbüslər xüsusi yer tutub, nəticədə "kölgə iqtisadiyyatı"nın "ağarması" prosesi getdikcə sürətlənib. Bu, bəyan edilən dövriyyələrin, daxili istehsalın və ticarətin göstəricilərində, ticarət əməliyyatlarında sənədləşmənin səviyyəsində, elektron qaimələrin dövriyyədəki payında, bağlanmış əmək müqavilələrinin sayında özünü qabarıq büruzə verib. Bununla bağlı dövlətimizin başçısı çıxışlarının birində "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılmasının vergi daxilolmalarının artmasına əsaslı təsir göstərdiyini diqqətə çatdırıb: "Əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımların da böyük rolu olub".

Beləliklə, sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması və "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması istiqamətində reallaşdırılan tədbirlər bir çox sahələrdə fəaliyyəti leqallaşdırmağa və aktiv ödəyicilər kateqoriyasını artırmağa imkan verib. 2023-cü il iyun ayının 1-nə ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 6,9 faiz, o cümlədən fiziki şəxslərin sayı 6,5 faiz, hüquqi şəxslərin sayı isə 9,7 faiz artıb.

Azərbaycanda "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması sahəsində son illər əhəmiyyətli nəticələr əldə edilib. Dövlət başçısı tərəfindən müəyyənləşdirilən hədəflərə uyğun şəkildə vergi sistemində ciddi dəyişikliklər və yeni yanaşmalar tətbiq olunub, iqtisadiyyatda şəffaflaşma prosesləri genişləndirilib. Şəffaf münasibətlərin qurulması kontekstində atılan addımlarla dövlət-biznes münasibətlərində yeni bir transformasiyanın əsası qoyulub. Yumşaq vergi nəzarəti, həmçinin yeni vergi güzəştləri mexanizmlərinin tətbiqi ilə biznesin "kölgə"dən çıxmasına nail olunub.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən iş yerlərinin rəsmiləşdirilməsi, əmək haqqı fondunun "ağardılması" və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq, bağlanmış əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 365,7 min vahid artıb və 2023-cü il iyun ayının 1-nə 1,767,6 minə çatıb. Qeyri-neft sektorunun özəl bölməsində isə həmin göstərici 318,1 min vahid artaraq 858 minə yaxın olub.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

## Ekspert rəyi

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



Ötən illərdə Vergi Məcəlləsində vergi ödəyicilərinin mənafelərinə xidmət edən dəyişikliklər edilməsi də diqqət mərkəzində saxlanılıb. Sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmayan vergi ödəyicilərinə vergi hesabatlarının təqdim edilməməsinə görə həyata keçirilən maliyyə sanksiyasının ləğvi bunun bariz ifadəsidir.

Ekspertlər bildirirlər ki, əvvəllər bir sıra vergi ödəyiciləri, xüsusilə mikro sahibkarlıq subyektləri bir sıra hallarda sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatları olmaması barədə arayış təqdim etmir (əksər hallarda qanunvericiliyin tələblərini bilməməsi səbəbindən) və vergi orqanı tərəfindən həmin şəxslərə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq olunurdu. Bu isə vergi öhdəliyi yaranmayan vergi ödəyicilərinin maliyyə itkilərinə məruz qalmasına gətirib çıxarırdı.

Son dövrdə qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, maliyyə sanksiyaları yalnız hesabat dövrü üzrə vergi tutulan və ya vergidən azad edilən əməliyyatlar aparan, habelə vergi hesabatları verməyə öhdəliyi olan vergi ödəyicisi tərəfindən vergi hesabatının əsas olmadan müəyyənləşdirilən müddətdə təqdim edilməməsinə görə tətbiq olunur.

Hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatların olmaması barədə arayış verməyən vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq edilmir.

Qeyri-neft sektorunun inkişafının vergi daxilolmalarının artımına təsirindən bəhs edərkən əvvəlcə bir məqamı da xatırlatmaq istərdim. Belə ki, respublikada həyata keçirilən vergi islahatları iqtisadi zonalarda əlverişli biznes şəraitinə də müsbət təsir göstərib. Məsələn, texnologiya və sənaye parklarının rezidentləri üçün səmərəli vergi mühiti yaradılıb. Hər bir startap üç il müddətinə gəlir vergisindən azad edilib. Həmçinin kənd təsərrüfatı sahəsində vergi dərəcələri azaldılıb və sahibkarlıq fəaliyyətinin təşviqi diqqət mərkəzində saxlanılıb. Biznes fəaliyyətinin inkişafında bütünlükdə rəqəmsallaşma böyük rol oynayıb. Şübhəsiz ki, bu məsələnin həllinə hər bir sahibkar üçün əlçatan dövlət vergi sisteminin yaradılması önəmli təsir göstərib.

**Rusiya rublu dəyərini getdikcə itirir. Son 2 ay ərzində rublun dollara nisbətən 14 faiz ucuzlaşması da bunu təsdiq edir. Şübhəsiz, belə bir hal Rusiyaya qarşı tətbiq edilən sanksiyaların nəticəsidir. Eyni zamanda, qonşu ölkə iqtisadiyyatı ilə bağlı neqativ proqnozlar da valyuta bazarında rublun məzənnəsinə öz mənfi təsirini göstərir.**

# "Rubl" "dollar"a uduzur, "manat"a isə təsir etmir

Bu cür vəziyyət Azərbaycanın əsas ticarət tərəfdaşlarından olan Rusiya ilə iqtisadi əməkdaşlığını zəiflədə bilərmi? Ekspertlər rublun ucuzlaşmasının iki ölkə arasında iqtisadi əlaqələrə təsirini təhlil edərək bildirirlər ki, Rusiya Azərbaycanın ən böyük idxalçı tərəfdaşı və qeyri-neft ixracatında əsas partnyorudur. Bu baxımdan, Rusiyanın milli valyutasının manata nisbətən dəyər itirməsi respublikamızın ixrac edilən qeyri-neft məhsullarının rubl ifadəsində bahalaşmasını reallaşdırır. Bu isə qeyri-neft ixrac imkanlarının zəifləməsi deməkdir.



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi "İxrac icmalı"nın iyun sayına əsasən, 2023-cü ilin yanvar-may ayları ərzində ölkəmiz tərəfindən Rusiyaya 404 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Təkcə may ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (118,8 milyon ABŞ dolları) birinciliyə yüksəlib.

Burada o da qeyd olunmalıdır ki, Rusiya rublunun dəyər itirməsi Azərbaycan manatının məzənnəsinə heç bir təsir göstərmir. Çünki ölkəmizdə milli valyutaya olan tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir. Digər tərəfdən respublikamızda məzənnə rejimi fəaliyyət göstərmir. Azərbaycan Mərkəzi Bankı tənzimlənmə vasitəsi ilə məzənnə prosesinə birbaşa intervensiya etmək imkanlarını diqqətdə saxlayır.

***"Xalq qəzeti"***

## Ekspert rəyi

**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**



Rusiya Azərbaycanın ən böyük qonşusu olmaqla yanaşı, ölkəmizdə istehsal olunan məhsullar üçün böyük bazardır. Azərbaycan iqtisadiyyatı, sahibkarları üçün bu bazar mühüm əhəmiyyət daşıyır.

Ötən il iki ölkə arasında ticarət dövriyyəsində artım müşahidə edilib. Azərbaycanın Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2022-ci ilin yanvar-noyabr aylarında Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsi 3 milyard 264 milyon 444 min dollar təşkil edib. Bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 22,9 faiz çox olub. Cari ilin may ayında isə Azərbaycanın təkcə qeyri-neft sektoruna aid 118,8 milyon ABŞ dollar həcmində mal ixrac edilən ölkələrin siyahısında Rusiya qərarlaşıb.

Göründüyü kimi, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, ən böyük idxalçı və qeyri-neft ixracatında əsas partnyorudur. Bax, bu məqamda qonşu ölkənin milli valyutasının getdikcə dəyərsizləşməsi respublikamızdan ixrac edilən qeyri-neft məhsullarının rubl ifadəsində bahalaşmasına gətirib çıxarır. Bu isə, şübhəsiz ki, qeyri-neft ixracına təsirsiz ötüşmür. Belə hal, eyni zamanda, əsasən Rusiya ilə iqtisadi əlaqədə olan yerli fermerlərin gəlirlərinin azalmasına təsir edə biləcək amillərdən biridir. Digər tərəfdən, hazırda qonşu ölkədə yaşayan həmyerlilərimizin də gəlirlərinin azalmasına və nəticədə respublikamıza köçürmələrin həcminin azalmasına səbəb olur.

Onu qeyd edək ki, Rusiya rublunun dəyər itirməsi nəticəsində qısa müddət ərzində Azərbaycana bu ölkədən idxal edilən məhsulların qiymətində ucuzlaşma müşahidə oluna bilər. Əsas ticarət tərəfdaşımız olan Rusiyada cərəyan edən proseslərin ölkə iqtisadiyyatına müəyyən mənfi təsirlərinin olması da təbiidir və bu baxımdan Azərbaycanın ixrac arealının genişləndirilməsinə daha böyük ehtiyac var.

Qeyri-neft məhsullarının ixrac potensialının genişləndirilməsi üçün Avropa bazarlarında geniş imkanlar mövcuddur. Ölkəmizin kənd təsərrüfatı məhsullarının həmin bazarlara ixracının uğur qazanması üçün potensial böyükdür və bu potensial ixracın şaxələnməsində, bir ölkədən asılılığın azalmasında əhəmiyyətli rol oynaya bilər.

Ümumiyyətlə, Rusiya daxil olmaqla, qonşu ölkələrin valyuta bazarlarında baş verənlərin manatın məzənnəsinə təsirlərinə gəldikdə isə, qeyd etmək istərdim ki, hazırda milli valyutaya tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir. Bu gün manata olan tələb sabitdir və valyuta ehtiyatlarımız tələbi tam qarşılamağa imkan verir.

# Azərbaycan beynəlxalq enerji məclislərinin fəal iştirakçısıdır




**Xəbər verildiyi kimi, iyulun 5–6-da Avstriyanın paytaxtı Vyana şəhərində Neft İxrac Edən Ölkələr Birliyinin (OPEC) "Dayanıqlı və inklüziv energetika keçidinə doğru" mövzusunda 8-ci beynəlxalq seminarı keçirilib.**

Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov təmsil edib. Sessiyanın iştirakçıları siyahısında, həmçinin 2023-cü ildə OPEC konfransının prezidenti, Ekvatorial Qvineyanın mədənçilik və karbohidrogenlər naziri Antonio Oburu Ondo, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) energetika və infrastruktur naziri Suhail bin Məhəmməd əl Mazrui və nigeriyalı nümayəndə (daimi nümayəndə, Nigeriyanın Neft Ehtiyatları Nazirliyi) Qabriel Tanimu Aduda yer alıblar.

"Dayanıqlı və inklüziv enerji keçidinə doğru" mövzusunda 8-ci OPEC beynəlxalq seminarında çıxış edən energetika naziri Pərviz Şahbazov son illərdə neft-qaz sektoruna investisiyaların azalmasını bazarda sabitlik və dayanıqlı enerji təhlükəsizliyi üçün başlıca risklərdən biri kimi qiymətləndirib. Qeyd olunub ki, hazırkı 100 trilyon dollarlıq qlobal iqtisadiyyatın istifadə etdiyi enerjinin 80 faizindən çoxu karbohidrogenlərin payına düşür. Bu asılılığa isə qısa müddətdə yüksək ambisiyalı siyasi qərarlarla tamamilə son qoymaq qeyri-realdır. Qarşıdakı onilliklərdə ətraf mühiti qorumaqla enerji təhlükəsizliyini, ədaləti, inklüziv enerji keçidini təmin etmək üçün rasional qərarlara və təxirəsalınmaz tədbirlərə ehtiyac duyulduğunu diqqətə çatdıran P.Şahbazov deyib ki, enerji bazarlarının iştirakçıları arasında dialoq və əməkdaşlıq olmadan bu məqsədə çatmaq mümkün deyil.

Energetika naziri, həmçinin Azərbaycanın hazırda enerji təhlükəsizliyindəki rolunu bir neçə enerji resursu üzrə şaxələndirməsindən, ötən il Cənub Qaz Dəhlizi ilə Avropaya qaz tədarükünün 40 faiz artırılması ilə təbii qazın enerji böhranının həllinə töhfələrindən bəhs edib. O deyib ki, bizim məqsədimiz hər hansı bir enerji növünün təşviqi deyil, bütün enerji növlərindən doğru istifadə etməklə enerji təhlükəsizliyinə, iqtisadi inkişafa və sabitliyə töhfə vermədir: "Biz inklüziv enerji keçidini dəstəkləyirik. Lakin emissiyaların azaldılmasında mühüm rol oynayan "yaşıl enerji"nin dayanıqlığını təmin etmək, bərpa olunan enerjini dəstəkləmək, rəvan enerji keçidi üçün bizim qaza ehtiyacımız var. Hesab edirəm ki, gecikmədən birgə hərəkət etmək vaxtıdır. Gəlin, ayrı-ayrılıqda deyil, birgə, dialoq mühitində enerji bazarlarının inkişafı ilə bağlı doğru qiymətləndirmələr aparaq, gələcək qarşısında məsuliyyətimizi bərabər səviyyədə paylaşaq. Həm qlobal neft bazarının davamlı balanslaşdırılmasının etibarlı qarantı olan "OPEC plus" ölkəsi, həm də Avropanın etibarlı enerji tərəfdaşı olaraq Azərbaycan belə bir dialoqa töhfə verməyə hazırdır",–deyə nazir Pərviz Şahbazov əlavə edib.

Energetika Nazirliyindən aldığımız məlumata görə, nazir Pərviz Şahbazov Vyanada bir sıra vacib görüşlər də keçirib. Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Süheyl Məhəmməd əl-Məzrui ilə görüşdə Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC), "Masdar" və "TAQA" şirkətləri ilə neft-qaz və bərpaolunan enerji sektorlarında, həmçinin qlobal neft bazarının tənzimlənməsində əməkdaşlığa dair məsələlər müzakirə edilib. Görüşdə, həmçinin BƏƏ ilə Azərbaycanın "yaşıl enerji" tərəfdaşlığından məmnunluq ifadə olunub. Tezliklə istismara veriləcək 230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası, həmçinin quruda və dənizdə 4 qiqavat gücündə "yaşıl enerji" layihələrinin icrası ilə bağlı cari vəziyyət nəzərdən keçirilib.

İraqın Baş nazirinin müavini, neft naziri Hayan Əbdül-Qani ilə görüşdə isə ölkələrimizin qlobal neft bazarının sabitləşdirilməsi məqsədilə "OPEC plus" formatında uğurlu əməkdaşlıq həyata keçirdiyi bildirilib. SOCAR tərəfindən İraq mənşəli xam neft və neft məhsullarının dünya bazarına təchizatından bəhs edilib. Görüşdə, həmçinin iki ölkə arasında enerji əməkdaşlığının inkişafı üçün "Energetika Nazirliyi ilə İraq Respublikasının Neft Nazirliyi arasında neft və qaz sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanmasının əhəmiyyətindən danışılıb. Qeyd olunub ki, İraq Azərbaycanla neft-qaz sahəsində intensiv əməkdaşlığa maraqlıdır.

"Dayanıqlı və inklüziv energetika keçidinə doğru" mövzusunda 8-ci beynəlxalq seminar çərçivəsində nazir Pərviz Şahbazov OPEC-in Baş katibi Haysam Əl-Qays ilə də görüşüb. Görüş zamanı qlobal neft bazarının balanslaşdırılması istiqamətində atılan addımlardan və neft sənayesinin inkişafı ilə əlaqədar məsələlərdən bəhs olunub. Gələcəkdə enerji təhlükəsizliyinin təminatı məqsədilə bütün tərəflərin cəlb edildiyi dialoq və əməkdaşlıq mühitinin yaradılmasının zəruriliyi qeyd olunub.

Energetika Nazirliyinin məlumatına görə, nazir Pərviz Şahbazov Vyana səfəri çərçivəsində Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson və "Total Energies" şirkətinin sədri və baş icraçı direktoru Patrik Puyane ilə də görüşüb.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson ilə görüşdə "Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun icrası, həmçinin enerji təhlükəsizliyi və enerji keçidinin uğurla həyata keçirilməsi məqsədilə müxtəlif bazar iştirakçılarının təmsil olunduğu enerji dialoqu platforması üzrə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb. Görüş zamanı Cənub Qaz Dəhlizinin genişləndirilməsi, həmçinin Avropa ərazisində boru kəmərləri infrastrukturunun qurulması istiqamətində cari vəziyyət nəzərdən keçirilib və proseslərin sürətləndirilməsinin vacibliyi bildirilib.

"Total Energies" şirkətinin sədri və baş icraçı direktoru Patrik Puyane ilə görüşdə isə "Abşeron" qaz-kondensat yatağının işlənilməsi, ümumi gücü 500 meqavat olan günəş və külək layihələrinin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Azərbaycanın "yaşıl enerji" kursunun həyata keçirilməsində "Total Energies" ilə əməkdaşlığın əhəmiyyəti vurğulanıb və bu aspektdə, 250 meqavat gücündə külək, Naxçıvanda 250 meqavat gücündə günəş elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin həyata keçirilməsinin "yaşıl enerji" əməkdaşlığına töhfə verəcəyi qeyd edilib.

Bütövlükdə isə, OPEC-in 8-ci beynəlxalq seminarında energetika keçidi ilə bağlı enerji təhlükəsizliyi, texnoloji innovasiyalar, ekoloji məsələlər, davamlı inkişaf, enerji siyasəti, eləcə də qlobal iqtisadiyyatda genişmiqyaslı tendensiyalar kimi əsas məsələlər müzakirə olunub.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Təhsildə sertifikatlaşdırma Azərbaycan məktəbinə nə verir?

## Elm və təhsil naziri jurnalistlər üçün brifinqdə bu suala aydınlıq gətirdi





**İyulun 6-da ADA Universitetində elm və təhsil naziri Emin Əmrullayevin sertifikatlaşdırma imtahanında yüksək nəticə əldə etmiş müəllimlərlə görüşüb. Tədbirdə yüksək nəticə göstərmiş müəllimlərlə yanaşı, mətbuat nümayəndələri, təhsil ekspertləri və digər şəxslər də iştirak ediblər. Nazir "Sertifikatlaşdırma: Peşəkar müəllim – keyfiyyətli təhsil" mövzusunda brifinq keçirib, imtahanlarla bağlı statistikanı ictimaiyyətə təqdim edib.**

Nazir bildirib ki, 2022–2023-cü illərdə 38 min müəllim sertifikatlaşdırma imtahanında iştirak edib. Prosesin birinci mərhələsi 2022–2027-ci illəri əhatə edəcək, sonra ikinci hissə başlanacaq. Müəllimlik peşəsinin ən rəqabətli sahə olmasını nəzərə alsaq, bu baxımdan, sertifikatlaşdırmanın üstünlükləri çoxdur. Bu proses həm də müəllimlərin həyatının maddi cəhətdən yaxşılaşdırılmasına hesablanıb.

Nazir deyib ki, bu prosesin əsas məqsədi təhsildə keyfiyyəti artırmaq, həmçinin keçmiş səhvlərdən nəticə çıxarmaqdır: "İbtidai siniflər üzrə 30 min müəllim sertifikatlaşdırma prosesinə cəlb edilib. 2023-cü il üzrə ibtidai sinif müəllimləri üzrə yüksək nəticə göstərənlər 10 faiz, qənaətbəxş hesab edilən 53 faiz, təkmilləşdirilməyə ehtiyacı olanlar isə 30 faiz təşkil edib. 30 min ibtidai sinif müəlliminin 0,7 faizi, yəni 223 nəfəri 0-9 bal, 10 faizi isə 10-19 bal toplayıb. 51 bal həddini keçən müəllimlərin faiz göstəricisi isə 17 faiz təşkil edib".

E.Əmrullayevin sözlərinə görə, zəif nəticə toplayan ibtidai sinif müəllimlərinin çoxu orta ixtisas təhsillidir: "Sertifikatlaşdırma imtahanında iştirak edən ibtidai sinif müəllimlərinin 53 faizi orta ixtisas, 47 faizi isə ali təhsillidir. Orta ixtisas təhsilli müəllimlərin orta balı 37, ali təhsillilərin göstəricisi isə 41 bal olub. 0-29 bal toplayanlardan 38 faizi orta ixtisas təhsilli, 20 faizi isə ali təhsillidir. Daşkəsən, Ağcabədi və Astarada ibtidai sinif müəllimlərinin yarıdan çoxu imtahanın birinci mərhələsində uğursuz olub. Bakı, Sumqayıt, Mingəçevir, Şirvan, Abşeron və Siyəzən isə ümumi orta bal göstəricisinə görə liderdir. Onlarda orta bal 40+dur".

İmtahanlarda suallarının çətin olacağına diqqət çəkən nazir deyib ki, bu, zamanla baş verəcək. Birdən-birə dərəcəni qaldırmaq faydasız olar: "Azərbaycan dili fənni ilə bağlı standartlarda kifayət qədər dəyişiklik edilib. Azərbaycanda 25 yaşdan yuxarı adamların, təxminən, 60 faizi oxuduğunu başa düşmür, yəni, əsas məqsədini anlamır".

Nazir bildirib ki, son 10 ildə müəllimlərin orta aylıq əməkhaqqı 3 dəfədən çox artıb. 2022-ci ilin yanvar və sentyabr aylarında, 2023-cü ilin isə fevral ayında artımlar olub. Onun sözlərinə görə, hazırda orta aylıq əmək haqqı 830 manat təşkil edir: "Sertifikatlaşdırma imtahanında yüksək nəticə göstərənlər üzrə 35 faiz əlavə alanlar 1270 manat, 10 faiz əlavə alanlar 1030 manat, imtahanda iştirak etməyənlər 750 manat alırlar. Çalışırıq ki, əmək haqqı bundan sonra da artsın".

Müəllimin imtahanlarda 51-dən çox bal toplamağının dərhal direktor olmaq mənasına gəlmədiyini diqqətə çatdıran nazir vurğulayıb ki, bunun üçün bəzi proseslər var: "Tövsiyə edərdim ki, yüksək nəticə toplayıb direktor olmaq istəyən müəllimlər peşəkar bir direktorun yanında müavin olsun, daha da püxtələşsin".

Gələcəkdə yüksək bal toplayan müəllimlərin metodist ola bilmələrini deyən E.Əmrullayev bildirib ki, məktəblərdə hazırda metodist sahəsi üzrə çatışmazlıqlar var: "Düşünürük ki, sertifikasiya imtahanında 51 balı keçmiş müəllim metodist kimi çalışa bilər. Hazırda məsələ ilə əlaqədar işlər aparılır".

Təhsil naziri nazirliyin iki əsas məqsədinə də toxunub: "Bizim iki məqsədimiz var: birincisi, keyfiyyəti qaldırmaq, ikincisi, həmin keyfiyyəti bərabər paylamaq. Biz savadsızlığa qarşı total reaksiya vermirik. Rəqəmsal öyrənmə tədris prosesində bərabər bölünməyə öz töhfəsini verə bilər. Müəllimlər üçün bu gün yeni rəqiblər var və bu hal qaçılmazdır.

Onun sözlərinə görə, son 3-4 ildə riyaziyyatla məşğul olan insanın bu fənlə problemi ola bilməz: "Lakin elə müəllim var ki, çubuqlu bölməni həll edə bilmir. Belə şəxslərin sayı çox olmasa da, var".

Nazir, həmçinin deyib ki, yalançı elmi dərəcə alan adamların olduğu cəmiyyətdə müəllimlərə, direktorlara həvəsləndirici orden, medal və adların verilməsi çətindir: "Saxta yolla alim adı almış adamla əsl alimi qarışdırmaq olmaz. Biz cəmiyyət olaraq, saxta yollarla bu cür dərəcələr almış adamları ifşa etməliyik".

Nazir sonda bildirib ki, problemləri nazirlik təkbaşına həll edə bilməz. Burada cəmiyyətin məsələyə münasibəti köklü şəkildə dəyişməlidir. Dəyişməsə, təhsil prosesində də keyfiyyəti tam mənası ilə yüksəltmək mümkün olmayacaq.

*"Xalq qəzeti"*

# AMEA prezidentinin Bolqarıstan görüşləri

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Bolqarıstan Elmlər Akademiyasının prezidentinin dəvəti ilə bu ölkədə səfərdədir. İ.Həbibbəyli əvvəlcə Sofiya Universitetinin Azərbaycan Dili və Mədəniyyəti Mərkəzində olub.**

Mərkəzin direktoru Sofiya Şiqayeva-Metriska diqqətə çatdırıb ki, Universitetdə türkologiya və şərqşünaslıq ixtisasları üzrə təhsil alan tələbələrə 2013-cü ildən Azərbaycan dili, 2015-ci ildən Azərbaycan multikulturalizmi fənləri tədris olunur, yeni dərs ilindən isə Azərbaycan ədəbiyyatı fənninin tədrisinə başlanılacaqdır.

AMEA prezidenti Akademiyanın Milli Arxeologiya İnstitutunun Arxeologiya Muzeyini də ziyarət edib. Muzeyin direktoru, professor Stefan Aleksandrov muzey eksponatları barədə ətraflı məlumat verib. Akademik İsa Həbibbəyli dünyanın nadir qədim insan məskənlərindən biri olan Azıx mağarası və sairə barədə söhbət aparıb və arxeologiya sahəsində mövcud əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli akademiyanın Etnologiya və Folklor, Ədəbiyyat institutlarının rəhbərləri ilə də görüşüb. Ədəbiyyat İnstitutunun direktoru, filologiya elmləri doktoru Penka Vatova rəhbərlik etdiyi elmi-tədqiqat müəssisəsinin fəaliyyəti barədə geniş söz açaraq, birgə tədqiqatların əhəmiyyətindən danışıb.

AMEA rəhbəri Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda aparılan tədqiqatlar, əldə edilən mühüm elmi nəticələr barədə danışıb. Azərbaycanın Şəki və Bolqarıstanın Qabrovo şəhərlərinin timsalında satira və yumor üzrə birgə tədqiqat layihəsinin mətnini təqdim edən akademik İsa Həbibbəyli layihənin əhatə dairəsi, mahiyyəti, mərhələləri və əhəmiyyətini diqqətə çatdırıb.

***



AMEA ilə Bolqarıstan Elmlər Akademiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Tədbirdə Bolqarıstan EA-nın prezidenti, akademik Yulian Revalski çıxış edərək Azərbaycanla Bolqarıstan akademiyaları tərəfindən imzalanmış əməkdaşlıq müqaviləsinin hər iki ölkənin müvafiq elmi qurumları arasında əlaqələrin daha da genişləndiriləcəyinə əminliyini ifadə edib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək Bolqarıstanla elmi əməkdaşlıq sahəsində süni intellekt, elektron xidmətlər, seysmologiya, antropologiya, etnologiya, arxeologiya, ədəbi-mədəni əlaqələr və sair kimi elmi istiqamətlərin ön mövqeyə çəkiləcəyini qeyd edib, müştərək elmi layihələrin müəyyən edilərək həyata keçirilməsinin əhəmiyyətindən danışıb.

*"Xalq qəzeti"*

# Rusiya XİN sözçüsünün gecikmiş etirafı: Fransa vasitəçi rolunu gözdən salıb!

**"Fransa Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesində vasitəçi rolunu artıq gözdən salıb". Belə bir bəyanatla Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova dünən keçirdiyi ənənəvi həftəlik brifinqdə çıxış edib.**



Rəsmi Bakı Rusiya diplomatiya idarəsinin nümayəndəsinin bu gün dilə gətirdiyi həqiqəti hələ iki il on ay bundan əvvəl demişdi. Zəfərimizlə başa çatmış 44 günlük Vətən müharibəsinin gedişində. Düzdür, İkinci Qarabağ savaşına qədər də, münaqişənin nizama salınmasına dair missiyanı boynuna götürmüş ATƏT-in Minsk qrupunun həmsədrləri kimi istər Vaşinqtonun, istər Moskvanın, istərsə də Parisin tərəflərə neytral deyil, ikili standartlarla yanaşmasını görür və buna etirazımızı bildirirdik.

Ermənistan silahlı qüvvələri Qarabağda müzəffər ordumuzun "dəmir yumruğ"unun zərbələrinə davam gətirməyib qaçmağa üz tutanda isə Bakıya ultimatum verən, hədə-qorxu gəlməyə çalışan və bunun layiqli cavabını alan Fransa prezidenti Emmanuel Makron deyildimi? O Makron ki, münaqişə tərəfləri arasında üç vasitəçidən biri kimi Parisin ermənipərəst mövqeyini 25 ildən sonra gizlindən aşkara çıxardı, açıq-aydın anti-Azərbaycan siyasəti yürütməyə başladı. Gah tarixin arxivinə göndərdiyimiz həmin Minsk qrupunu diriltməyə cəhdlər etdi, gah da Avropa İttifaqının missiyası adı altında bölgəyə öz emissarlarını dürtməyə çalışdı. Bunların heç biri alınmayanda isə sülh danışıqlarında vasitəçi kimi söz sahibi olmağa girişdi. Və bu zaman dünənki müttəfiqi Rusiyanın Cənubi Qafqazdakı maraqlarını belə görməzdən gəlməyə başladı.

***

Kremlin səbir kasasını dolduran da Parisin bölgədə özbaşına siyasi manevrlər edərək, saymazyana onun yolundan keçməsi oldu. Rusiya XİN-in sözçüsü açıqlamasında onu da bildirib ki, ATƏT-in Minsk qrupunun dağılmasında Parisin xüsusi rolu olub. "Fransanın yalnız özünü göstərmək naminə atdığı addımlar tərəflərə və sülh prosesinə kömək etmir. Paris sadəcə Rusiyanı bu bölgədən sıxışdırıb çıxarmağa və öz məqsədlərinə çatmağa çalışır", – deyən M.Zaxarova Kremlin də imzaladığı 2020-ci il 10 noyabr Bəyanatında boynuna götürdüyü öhdəlikləri Qarabağda nədən yerinə yetirməyə tələsmədiyinə aydınlıq gətirməyi unudub. Söhbət həmin bəyanatın 4-cü bəndində nəzərdə tutulan şərtdən – Ermənistan ordusunun tör-töküntülərinin və separatçı silahlı quldurların Rusiya sülhməramlı hərbi kontingentin müvəqqəti yerləşdirildiyi Qarabağ iqtisadi rayonumuzdan, başqa sözlə Azərbaycanın artıq suveren ərazisindən çıxarılmasından gedir. Ermənistan və Azərbaycan XİN başçılarının Vaşinqtonda ikitərəfli dialoqu və müqəddəs Qurban bayramı ərəfəsində həmin separatçı-daşnak quldurların sülhməramlıların birbaşa nəzarətində olan ərazidə silahlı təxribat törətməsi bu şərtin təcili yerinə yetirilməsini tələb etmirmi? Güman edirik ki, xanım Zaxarova media mənsubları üçün qarşıdakı həftədə düzənləyəcəyi brifinqdə bu suala da aydınlıq gətirəcək.

*İ.HƏSƏNQALA, "Xalq qəzeti"*

# Ukraynada iqtisadi vəziyyət pisləşir

**Rusiyanın Ukraynaya genişmiqyaslı hücumu şəraitində 11,7 milyona yaxın ukraynalı iqtisadi cəhətdən fəaldır, onlardan, təxminən, 9,3 milyonu işləyir, 2,7 milyona yaxını isə işsizdir.**

Bu məlumatları ukraynalı ekspertlər "2023–2024-cü illər üçün Ukrayna İqtisadiyyatının Proqnozu"nun təqdimatı zamanı bildiriblər. Ekspertlər vəziyyətin



gələcəkdə daha da pisləşə biləcəyini düşünürlər. Onlara görə, əgər əmək qabiliyyətli əhalinin mühacirəti davam edərsə, Ukraynada ÜDM yaradan, vergi ödəyən az adam qalacaq, bu isə o deməkdir ki, ölkə nəinki büdcəyə xidmət edə, hətta sosial öhdəliklərini də yerinə yetirə bilməyəcək.

İqtisadi proqramlar üzrə ekspert Yana Lavrik deyib: "Əmək resurslarının qıtlığı vergilərin artmasına səbəb olacaq, çünki bu, təbiidir: bir işləyən adama iki işləməyən adam düşürsə, onları təmin etmək üçün vergi yükü artırılmalıdır. Bizim hesablamalarımıza görə, hazırda Ukraynada, təxminən, 28,5 milyon insan var. Amma önəmli olan ümumi say deyil, strukturdur. 16,8 milyon nəfər iqtisadi cəhətdən qeyri-fəal insanlar – pensiyaçılar, uşaqlardır. İqtisadi aktiv əhali 11,7 milyon nəfərdir, lakin onların, təqribən, 9 – 9,3 milyonu faktiki işləyir. Bu rəqəmdən dövlət qulluqçularını çıxarsaq, geridə 6 – 7 milyon insan qalır ki, iqtisadiyyatın da bütün ağırlığı onların üzərinə düşür".

Xatırladaq ki, Rusiya – Ukrayna müharibəsi nəticəsində bu ölkənin ümumi daxili məhsulu 30,4 faiz azalıb. Ukraynanın Rusiyanın təcavüzündən birbaşa itkiləri 750 milyard dollar həcmində qiymətləndirilir. Ukrayna iqtisadiyyatı ağır günlərini yaşadığı bir vaxtda ölkənin ərazisi Rusiya silahlı qüvvələri tərəfindən raket və kamikadze dronlarının hücumuna məruz qalır. İyulun 6-na keçən gecə paytaxt Kiyev də daxil olmaqla ölkənin bütün ərazisi üzrə hava həyəcanı siqnalı çalınıb. Ukrayna Daxili İşlər Nazirliyinin yaydığı məlumatda raketlərdən birinin Lvovda yaşayış binasına düşdüyü, insanların dağıntılar altında qaldığı bildirilib. Azı, 4 nəfərin öldüyü müəyyən edilib, 9 nəfər isə xəsarət alıb. Nazirliyin məlumatında deyilir: "Axtarış-xilasetmə əməliyyatı davam edir. Fövqəladə Hallar Dövlət Xidməti 7 nəfəri xilas edib, 64 nəfər təxliyə edilib. Xilasedicilər dağıntıların sökülməsini davam etdirirlər".

Xersona hava hücumu zamanı isə 2 sakin həlak olub, çoxlu mülki şəxs yaralanıb.

*P.ƏFƏNDİYEV, "Xalq qəzeti"*

# Baramaçılıq mövsümi gəlir mənbəyidir

## Hər kiloqram məhsula tədarükçü 5, dövlət isə 6 manat ödəyir

**Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində qədim ənənələrə söykənən baramaçılığın və ipəkçiliyin bərpası kənd təsərrüfatının prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Bu istiqamətdə nəzərdə tutulan işlərin vahid proqram əsasında görülməsi məqsədilə "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı" qəbul olunub.**

Proqram bu sahəyə dövlət dəstəyinin gücləndirilməsinə, ixrac potensialının artırılmasına və kənd yerlərində məşğulluğun təmin edilməsinə yönəldilib. Dövlət tərəfindən fermerlərə bütün lazımi materiallar, tinglər verilib, bütün sahələr üzrə subsidiyalar ayrılıb və bununla da 30-40 gün ərzində yaxşı gəlir əldə etmək imkanı yaradılıb. Bu dəstək Ağcabədi kümçülərinin fəaliyyətində də aydın nəzərə çarpır. Azərbaycanın baramaçılıq rayonları sırasında qabaqcıl yerlərdən birini tutan Ağcabədi ötən il təhvil verilən məhsula görə respublika ikincisi olub. Məntəqələrə hər qutudan 38,9 kiloqram olmaqla 33 ton 53 kiloqram barama təhvil verilib.

Bu mövsümdə də rayonda baramaçılığa böyük maraq var. Boyat kəndindən olan Səbuhi Ələsgərov mayın 18-də məhsulun dərilməsinə başlayan ilk kümçü olub. Onun sözlərinə görə, cari ildə toxumlar daha keyfiyyətli idi: "Baramaçılıq kənd təsərrüfatının gəlirli sahələrindən biri kimi, regionlarda yaşayan əhalinin məşğulluğunun artırılmasına, onların sosial rifahının yüksəldilməsinə xidmət edir. Çünki baramaçılığın inkişafı kənd əhalisi üçün əlavə qazanc və yaxşı güzəran deməkdir. Bu sahə ilə məşğul olmaqla, hər il öz ailə gəlirlərimizi artıra bilirik. Cari il rayon üzrə 700 qutu ipəkqurdu götürülüb. Bizim kəndin kümçülərinə 25 qutu ipəkqurdu paylanılıb. Baramaçılığın yem bazası ilə bağlı tədbirlər görülüb. Çox sayda tut tinginin əkilməsi baramaçılığın yem bazasını əhəmiyyətli dərəcədə möhkəmləndirib…".

Rayonda Kəbirli, Aran, Gələbədin, Cəfərbəyli, Qaraxanlı, Sarıcalı kəndlərinin kümçüləri də fəallıq göstəriblər. Məhsul isə "AzSİLK" MMC-nin nümayəndələri tərəfindən Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzində (DAİM) qəbul edilib. Burada baramanın qəbulu üçün lazımi şərait yaradılıb.

Son məlumata görə, bu mövsümdə tədarükçülərə 34 ton 478 kiloqram barama təhvil verilib. Hər qutuda məhsuldarlıq 49,2 kiloqram olub ki, bu da gözlənilən nəticədən yüksəkdir. Eyni zamanda, 2022-ci ilin göstəricisindən 10,3 kiloqram çoxdur.

Kümçülərlə imzalanan müqaviləyə əsasən, istehsal olunmuş yaş barama müvafiq qurum tərəfindən 5 manata təhvil alınıb, dövlət isə istehsal olunan hər kiloqram yaş baramaya görə kümçülərə 6 manat subsidiya ödəyib. Artıq subsidiyalar köçürülüb.

*Ə.PÜNHAN,*
*"Xalq qəzeti"nin*
*bölgə müxbiri*

# Mədəniyyət xəbərləri

### Dirijor robot



**Artıq robotlar həyatın bütün sahələrinə nüfuz edir. Bu günlərdə Cənubi Koreyanın Seul şəhərində keçirilən konsertdə orkestri EveR-6 adlı android robot idarə edib.**

Xarici KİV-lər xəbər verir ki, Koreya Qabaqcıl Elm və Texnologiyalar İnstitutu tərəfindən hazırlanmış insanabənzər robotun Koreya Milli Teatrında orkestrə dirijorluq etməsi dünya mədəniyyəti tarixində ilk belə hadisə kimi yadda qalıb. Robotun əvvəlcə tamaşaçılara baş əyərək, konsertdə dirijor kimi dəqiqliklə çıxışı böyük maraq doğurub və alqışlarla qarşılanıb.

***

### Azərbaycanlı bəstəkarın alman dərsliyi

**Azərbaycan əsilli bəstəkar, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xədicə Zeynalova Almaniyanın Detmold şəhərində yaşayır. O, "Bridge of Sound" ansamblının və orkestrinin yaradıcısı və bədii rəhbəridir. Soydaşımızın "Solo fortepiano üçün uşaq pyesləri" adlı dərsliyi alman dilində nəşr olunub.**

Milli musiqimizin Almaniyada təbliği məqsədilə nəşr edilmiş dərsliyə Azərbaycan bəstəkarlarının, o cümlədən Xədicə Zeynalovanın əsərləri daxil edilib. Qeyd edək ki, Xədicə Zeynalova Azərbaycan Bəstəkarlar İttifaqının, Almaniyanın GEMA təşkilatının və "Qadınlar




musiqidə" Beynəlxalq Alyansının üzvü, Detmold Konservatoriyasının və Paderborn Universitetinin dosentidir. Onun əsərləri Almaniya, İsveçrə, Avstriya, Azərbaycan, Böyük Britaniya, İtaliya, Kanada, Türkiyə, Oman, Fransa, Gürcüstan, Kipr, Macarıstan, ABŞ və digər ölkələrdə səsləndirilir.

*Ə.DOSTƏLİ, "Xalq qəzeti"*

Sənət söhbəti

# Muğam dəstgahlarının səciyyəvi ifa üslubu

**Son zamanlar Heydər Əliyev Fondunun, xüsusən, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin ən qədim sahələrindən olan muğam sənətimizin qorunub saxlanılması, inkişaf etdirilməsi və təbliği istiqamətində həyata keçirdiyi layihələr xalq arasında böyük maraq və hörmətlə qarşılanır. Ancaq hələ də bu dəyərli sənət növü haqqında bildiklərimiz muğamın fəlsəfəsini tam əks etdirmir. Nə yaxşı ki, bir çox tədqiqatçılarımız muğamın həm tarixini, həm fəlsəfəsini, həm də əsas mahiyyətini araşdırmaqla məşğuldurlar.**

**AMEA-nın Ədəbiyyat, Fəlsəfə və Sosiologiya institutları elmi şuralarının qərarı ilə nəşr edilmiş "İslam, muğam və Füzuli", "Füzuli düşünərkən" və "Muğam həqiqətlər, dini-fəlsəfi baxış" kitablarının müəllifi, tədqiqatçı Rəhim Müseyibovu xalq musiqisinin xiridarları arasında tanımayan yoxdur. O, "Muğam dünyası" elmi-bədii-publisistik jurnalının baş redaktoru kimi "Füzuli yaradıcılığında" sufi (təsəvvüf) motivləri və muğam sənəti. Fəlsəfi-estetik təhlil" mövzusunda 30-dan çox elmi-publisistik məqalə ilə çıxış etmişdir. Rəhim Müseyibovun bir məqaləsini oxuculara təqdim edirik.**



Sovet dönəmində bu sənətin musiqi-elmi cəhəti, yəni dəstgahların melodiya və lad intonasiya əsaslarının vəhdəti daha çox öyrənilsə də, onun fəlsəfə və mahiyyətinin şərhində, idrak prinsipi kimi muğamın məğzi olan ruhi tərəfinin qavranılmasında boşluq müşahidə olunurdu. İslam mədəniyyətinə xas olan estetik düşüncə tərzi ilə, xüsusilə, təsəvvüf ( islam əxlaqı) və irfanla bağlı olan dəstgah sənətinin dini-fəlsəfi tədqiqatı, ümumən, aparılmamışdır.

Aydındır ki, mahiyyətdən kənarda, forma (quruluş) səviyyəsində öyrənilən biliklər tam ola bilməz. Xüsusi ifa üslubuna malik, dünyəvi xarakterli musiqi janrı kimi təqdim olunan bu sənətin məzmunu, mahiyyəti, fəlsəfəsi, ideyası düzgün açılıb təhlil edilmirdi. Elmi ədəbiyyatlarda ümumi halda bildirilirdi ki, dəstgahların şöbələri müəyyən bədii fikri müxtəlif ifadə vasitələri ilə əyan edir və dəstgahın əsas ideyasının tədricən açılmasında müxtəlif mərhələ rolunu oynayır. Yaxud, dəstgah küll halında məntiqi inkişaf qaydası üzrə hissələrin mütəşəkkil məcmusudur. Dəstgahın vahid (əsas) inkişaf xətti ardıcıl surətdə, məntiqi qaydaya əsaslanaraq, öz bütövlüyünü, tamlığını saxlayır və s.

Göründüyü kimi, bu izahlarda dəstgahın məzmunu (daxili proseslərin əlaqə və inkişaf prinsipləri və s.), mahiyyəti (daxili inkişaf qanunları və meyillərini müəyyən edən xassələrin açıqlanması və s.), fəlsəfəsi (konkret olaraq hansı ideyanın tədricən inkişaf edərək açılması) açıqlanmır.

Sual olunur: Dəstgahlardakı məntiqi inkişaf niyə və necə baş verir? Bu məntiqi inkişafın xarakteri necədir? Bu suala cavab tapmaq üçün, həm də musiqişünas alimlərin tövsiyələrini nəzərə alaraq, muğam dəstgah sənətinin fəlsəfi köklərinin İslam zəminində təhlilini nəzərdən keçirək. Araşdırmada təsəvvüf və muğam dəstgah sənətinin əlaqələndirilməsi, yəni dəstgah fəlsəfi konsepsiyasının "Vəhdəti vücud" nəzəriyyəsinə bağlılığı, onların ortaq və oxşar cəhətlərinin aşkarlanması məsələsi öz əksini tapıb.

Ümumən, muğam irsinin dərk olunmasında, o cümlədən bir mütəhərrik musiqi forması kimi dəstgah sənətinin spesifikasının düzgün anlaşılması, eləcə də idrak prinsipi kimi muğamın ruhi tərəfinin qavranılmasında faydalı ola biləcəyini nəzərə alaraq, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu Elmi Şurasının qərarı ilə çapı məsləhət görülmüş "Muğam həqiqətinə (yaranışığına) dini-fəlsəfi baxış" adlı tədqiqat əsərinin nəticələrinə istinadən yazdığım "Muğam ariflər üçündür" məqaləsində qeyd etmişəm ki, dünyəvi xarakterli musiqi janrı kimi təqdim edilən dəstgah sənətinin təsəvvüf zəminində aşkarlanan özünəməxsus fəlsəfi-estetik xüsusiyyətləri, müasir ifaçılıq sənətində tam məsuliyyəti ilə nəzərə alınmır.

Məlumdur ki, idrak prosesi getdikcə daha mükəmməl, daha geniş həqiqətə doğru hərəkət kimi baş verir. Fəlsəfi baxımdan vacib tələblərdən biri, dəstgahın ifası boyu inkişaf etməli olan ideya bəlli-aydın olmalıdır ki, idrak prosesində ideyanın mühüm cəhətləri müəyyən edilə bilsin. İdrak prosesinin dialektikasına görə, dəstgahın ifası zamanı şöbələrin bir-birinə zəruri olan bağlılığını həm ideya daşıyıcısı olan qəzəlin, həm də muğam şöbəsinin musiqi məzmunu təmin etməlidir. Belə ki, dəstgahın tədricən inkişafında ideya və musiqi (muğam) baxımından hər şöbə sonrakı şöbələrin inkişafı üçün zəmin kimi çıxış edir. Bu inkarı inkar qanununun tələbidir.

Deməli, dəstgahın tədrici inkişafı boyu tələb olunan dinamik yüksəlişin təmin olunması üçün ifa olunan qəzəllər bədii forma və məzmun baxımından tənzimlənməlidir. Başqa sözlə, ifa üçün seçilən qəzəllərin kompozisiyasında musiqi ilə əlaqə (rabitə) yaradılmalıdır. İfa zamanı belə əlaqə-rabitənin olmaması, bədii forma və məzmun arasındakı vəhdəti (birliyi) pozur, dərketmənin hissi və əqli ünsürlərinin inkişafında anlaşılmazlıqlar yaradır, idrakın daha geniş həqiqətə doğru inkişaf prinsipini pozur və tələb olunan konseptuallığın, yəni dəstgahın ifası zamanı təqdim olunacaq zehni obrazın, o cümlədən ümumi fikrin (anlayışın) yaranmasında çaşqınlıq, qeyri-müəyyənlik yaradır.

Fəlsəfi baxımdan əgər hər hansı bir ideya, müvafiq bədii formada, bədii obrazlar halında ifadə edilməyibsə, bu ideya hələ incəsənət əsəri deyildir! Hegelin təbirincə desək: İliadanı İliada edən, məzmunun ifadə olunduğu poetik formasıdır.

Bu mənada ideyası Allaha məhəbbət olan dəstgah sənətinin birbaşa təsəvvüfün elmi məqsədinə – kamil insan və mənəvi təmizlənmə ideyasına xidmət etdiyini tam əminliklə qeyd edə bilərik:. Böyük şairimiz Füzuli deyirdi:

**Ey Füzuli, qılmazam tərki-təriqi-eşq, kim,**
**Bu Fəzilət daxili-əhli-kamal eylər məni.**

Bəli, yuxarıda verilən şərh və izahlardan göründüyü kimi, muğam dəstgah sənətinin əvvəli də ilahi eşqə yetmək ideyasıdır, yekunu da bu məqama çatmaq, vəhdətə nail olmaqdır. Aşkar görünən də formaca çoxsəslilikdən kamil tək (zil) səsə doğru, buradakı gizlinlik də xanəndənin dini-mistik halı ilə – yəni birmənalı olaraq ulu yaradanla bağlıdır.

Bəli, doğrudan da, MUĞAM – varlığa bəsirət gözü ilə baxan, insani kamilliyi ali həqiqətlə vəhdətdə qavrayan zövq və hal əhli olan ariflər üçündür!

*Rəhim MÜSEYİBOV,*
*muğam tədqiqatçısı*

UNUDULMAZ CAZ AXŞAMLARI

**İyulun 3-dən Heydər Əliyev Mərkəzində başlayan "Bakı Yay Caz Günləri" festivalı çərçivəsində müxtəlif ölkələrin musiqiçiləri bir səhnəyə çıxmaqla maraqlı təcrübələr silsiləsini davam etdirirlər.**

Tamaşaçıların konsertlərə böyük marağı festivalın proqramının əvvəlki illərdə olduğu kimi, bu il də olduqca zəngin olmasını bir daha təsdiq edir. Konsertlərin qapalı məkanlarla yanaşı, açıq havada da təşkil edilməsi cazsevərlər üçün daha da əlçatan olub. Caz günləri festivalında təqdim olunan bir-birindən fərqli, maraqlı musiqi nömrələri tamaşaçılarda xoş ovqat oyadır.

# "Bakı Yay Caz Günləri" festivalı davam edir



**Bakı sakini Bəsti Məmmədova şəhərimizdə musiqi festivallarının təşkilinin gözəl ənənə olduğunu bildirdi:** "Xüsusən yay günlərində, açıq havada belə tədbirlərin təşkili insana böyük zövq verir. Bundan əvvəl – festivalın 3-cü günü açıq məkanda gürcüstanlı pianoçu Giorgi Mikadze ilə yanaşı, Azərbaycandan olan gənc pianoçuların çıxışlarını da dinlədik. Yaxşı deyirlər ki, musiqinin sərhədi yoxdur. Yəqin bu ona görədir ki, ruhun məhsulu olan musiqi dilindən, millətindən asılı olmayaraq bütün insanları birləşdirir. Caz sənətçilərinin sevə-sevə yaratdıqları əsərlər tamaşaçıların ruhuna hakim olur, zövqünü oxşayır. Belə gözəl musiqi bayramına görə təşkilatçılara minnətdarıq".

**Tamaşaçı Elcan Qafarov caz musiqisi ilə hələ yeniyetməlik vaxtından maraqlandığını söylədi. Qeyd etdi ki, hər kəsdə musiqi duyumu fərqlidir. Kimi muğam, kimi rok, kimi də rep dinləməyə üstünlük verir. O isə caz musiqisinin vurğunudur:** "Ötən il də analoji festival çərçivəsində təqdim olunan musiqi nümunələrindən böyük zövq aldım və xoş təəssüratlarım var. Budəfəki musiqi tədbirinin də olduqca zəngin proqramı var. Caz axşamları onsuz da ecazkar olan Bakı gecələrinə xüsusi füsunkarlıq verir. Övladlarım da caz musiqisi ilə maraqlanırlar. Konsert proqramları ürəyimizcədir".

Əvvəlki konsertlərin birində pianoçu Elçin Şirinov və kvartetinin konsertində olduğunu bildirən Elcan Qafarov qeyd etdi ki, ötən illər ərzində İsrailin tanınmış "Avişai Kohen trio"sunda çalışan və dünyanın bir çox ölkələrində gözəl konsert proqramları ilə çıxış edən E.Şirinovun israilli musiqiçilərlə səsləndirdiyi caz ritmləri onu valeh edib.

**Tamaşaçılar arasında 12 yaşlı Şəbnəm Tağıyevanın fikirləri də çox maraqlı oldu. Musiqi məktəbində təhsil aldığını bildirən Şəbnəm bu yay günlərini musiqi festivalının daha da mənalı etdiyini vurğuladı:** "Qrupumuzla birgə konsertə qatılmışıq. Azərbaycanlı pianoçuların təqdim etdikləri musiqi nümunələri zövqümüzü oxşadı. Onların ən məşhur musiqiçilərlə bir səhnədə yer alması ürəyimizcə oldu. Bizim arzumuz da gələcəkdə belə mötəbər festivallarda iştirak etməkdir. Həmçinin, gürcüstanlı pianoçu Giorgi Mikadzenin çıxışına da maraqla tamaşa etdik. Bu konsertlər bizə unudulmaz anlar bəxş etdi.

Beləcə, Bakıda unudulmaz caz axşamları davam edir. Bu gün caz günlərinin yekun konsertində dünya şöhrətli Oleq Lundstrem adına Caz Orkestrinin çıxışı olacaq. Əminik ki, cazsevərlər heyranedici şedevrlərdən bu dəfə də böyük zövq alacaqlar.

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

# Türkiyə tara qucaq açır...

**Azərbaycanın milli-mədəni irs nümunələrindən olan tar musiqi alətinə sevgimizin tarixi qədimdir. Konsertlərdə geniş istifadə olunan tarın xalq mahnılarının, muğamların ifasında məxsusi yeri var. Qardaş Türkiyədə isə musiqilərin bu ecazkar alətin müşayiəti ilə təqdimatına az rast gəlinir. Səbəb orada tarın tapılmamasıdır. Qaziantep Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasının müəllimi, sənətşünaslıq elmləri doktoru, professor, Türk Xalq musiqisinə xidmət mükafatçısı İlqar Cəmiloğlu qardaş ölkə mətbuatında bu mövzuda dəfələrlə çıxış edib.**



Müsahibimiz söhbət zamanı dedi ki, son vaxtlara qədər Türkiyədə tar musiqi aləti istehsal olunmayıb. İllərdən bəri türk musiqiçiləri tar çalmaq istəsələr də, bu aləti tapmaq çətin məsələ idi. Azərbaycandan oraya tar aparmaq da asan deyildi, çünki yolda sına bilərdi.

– Bəzən risk edərək Bakıdan tar gətirdən musiqiçilər də olurdu, – deyə o bildirdi. – Fəqət Ərzurum Atatürk universitetində çalışdığım 2000–2006-cı illər arasında və 2007-ci ildən günümüzə kimi Qaziantep Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasında, tarın tədrisində bu alətə olan marağın qarşısında çarəsiz idim. Əslən Şuşadan olan, uzun illər qədim Gəncə torpağında ömür-gün sürmüş ustadım tarzən Fazil Əlizadədən mənə əmanət qalan tarın səsini dinləyən tələbələrim bu alətdən əldə edə bilməməyin məyusluğunu yaşayırdılar.




Çözüm yollarını axtarırdım. Bir xoş gündə Mustafa Akkaya adlı səmimi bir qardaşımızla tanış oldum. Ətraflı söhbətdən sonra hiss etdim ki, Qaziantepdə, türk təbiri ilə desək, "tar alətini bütün incəliklərinə kimi yapsa, Mustafa bəy yapar. Hər görüşümüzdə ona tardan danışır, bu alətin özünəməxsusluğunu, "sirr"lərini göstərir, şəkil və video görüntüləri açıb tökürdüm ki, marağını çəkə biləm. Şükürlər olsun ki, cəhdim hədər getmədi və Mustafa bəy söz verdi ki, vaxt tapan kimi bu alətdən düzəltməyə başlayacaq.

Nəhayət ki, arzum gerçəkləşdi və yeni tarın işıq üzü görməsinin şahidi oldum. Məramım həyata keçdi, arzum göyərdi. İlk tarın yapılması ilə əlaqədar ötən il Azərbaycan mətbuatında məqalə də verdim. Qaziantep şəhərində yaşayan sənətkar Mustafa Akkaya adlı ustanın "hünər"ini, necə deyərlər, aləmə yaydım.

**– Həmin tar orada təkdirmi, yoxsa?..**

– Xeyr. Ötən ayın sonlarında Qaziantepin məşhur bağlama ustası-sazbənd Mustafa Akkayanın araya-ərsəyə gətirdiyi ikinci şahanə görkəmli tarı da onun emalatxanasında ziyarət etdim. Həyəcanla bağrıma basdım, kökləyib çaldım.

Bu yerdə yada ölməz şairimiz Mikayıl Müşfiqin misraları düşür:

**Oxu, tar, oxu, tar,**
**Səni kim unudar?...**

**İlqar Cəmiloğlu həmin anlardan daha ətraflı bəhs etdi:**

– Xeyli müddət tarın bütün sirlərini, incəliklərini istedadlı sənət adamı Mustafa bəyə anlatdığım üçün nazlı-qəmzəli görünüşü olan sevimli aləti əlimdən yerə qoya bilmirdim. Hey çalmaq istəyirdim. Sanki, sehirli bir qüvvə köksümü tarın çanağına yapışdırmışdı. Məcnun kimi vurulmuşdum bu ağacdan cana gəlmiş tar isimli Leyliyə. Həyatda çox sevinclər yaşasam da, bu sevincimin tayı-bərabəri yox idi. Anidən bağlama ustası-sazbənd Mustafa bəyi tar qarışıq qucaqlayıb alnından öpməklə sevincimi ifadə etdim. Xeyir-duamı verərək bu cür gözəl görünüşlü, cilvəli, kövrək, zərif, bəzən incə, bəzən də hayqırtılı sədaları olan tarların qardaş ölkədə daha da çox olması gərəkliyini dilə gətirdim. Məhz o gün, yəni 24 iyun tarixi məndən ötrü min aya dəyən gün oldu.

Beləcə, İlqar bəyin səyləri, Mustafa bəyin çalışmaları sayəsində tar yenidən qardaş ölkədə – Anadoluda musiqi cameəsinə bəxş edildi.

*Əli NƏCƏFXANLI,*
*"Xalq qəzeti"*

# Yaşantılardan rənglər dünyasına

**Azərbaycan Rəssamlar İttifaqının üzvü, Türkiyədəki Ümumdünya Sənətçilər Birliyinin Azərbaycan təmsilçisi Nəvai Mətin erkən yaşlarından könlünü al-əlvan rənglər dünyasına bağlayıb. Bu barədə söz düşəndə deyir ki, Qazax rayonunda, indiki Ağstafanın Zəlimxanlı kəndində orta məktəbdə oxuyarkən onu "balaca rəssam" deyə çağırarmışlar. Bütün siniflərin divar qəzetini o hazırlayarmış. İstedadına həyan olan, rəsmlərinə ilk sahib çıxan isə yanında böyüdüyü nənəsi olurmuş. Kənd məktəbində sərgiləri təşkil edilirmiş.**



Onunla Səməd Vurğun bağında görüşüb, yaxınlıqdakı emalatxanasına getdik. İçəri girəndə heyrətə gəldim. Rəssam kiçik otaqda elə böyük sənət dünyası yaradıb ki, bilmirsən nəyə baxasan. Hər tərəfində ayrı bir gözəllik var. Heykəltəraşlıq və rəsm əsərlərinin hər birinin öz cazibəsi var. Sənət əsərlərinə göz gəzdirə-gəzdirə sorğu-suala başladım, hər bir əsərin tarixçəsini öyrəndim. Mərhum şair Akif Səmədin portretini göstərib onunla olan dostluğundan söz açdı, bu portretin onun üçün xüsusi dəyər daşıdığını dedi. Mən də bu yerdə hansı rəsmini "şah əsəri" hesab etdiyini soruşdum.

– 1988-ci ildə milli azadlıq hərəkatının yeni başlanan vaxtları idi, – deyə cavab verdi. – Məhəmməd Hüseyn Şəhriyarın portretini çəkmişdim. O vaxtı bu əsər böyük əks-səda yaratdı, mətbuatda haqqında xoş sözlər yazıldı. Məncə, şah əsərim elə Şəhriyarın portreti olub.

Nəvai Mətin 1989-cu ildə Pedaqoji İnstitutun (indiki ADPU) bədii qrafika fakültəsini bitirib. Onun əsərlərinin mövzusu çoxşaxəlidir. Portret janrına daha çox üstünlük verən rəssam, naturadan təbiət təsvirləri çəkməyi də çox xoşlayır.

Budur, onun "Göyəzən" adlı peyzajına baxıram. Seyr etdiyim ecazkar mənzərə məni xəyal qanadlarında uzaqlara aparır. Unudulmaz Xalq şairimiz Səməd Vurğunun "Göylərə baş çəkir Göyəzən dağı" misrası yadıma düşür. Göyəzənin adi bir qaya olduğunu bilə-bilə niyə dağ kimi təsvir etdiyini soruşanlara Səməd Vurğun "Hünər odur qayanı dağ kimi təsvir edəsən, dağı qaya kimi yox" cavabını vermişdi. Nəvai Mətinin "Göyəzən"i də Vurğun şeirində olduğu kimi əzəmətlidir, vüqarlıdır.

Nəvai Mətin xalqımızın başına gələn faciələrə də biganə qalmayaraq, ağrılı mövzularda bir sıra rəsm çəkib. Onun Xocalı soyqırımına, Bakıda 2015-ci il mayın 19-da baş verən və 15 nəfərin ölümü, 64 nəfərin yaralanması ilə nəticələnən yanğın hadisəsinə həsr etdiyi rəsmlərinə etinasız yanaşmaq olmur.

Rəssamın yaşayış binasında yanğına həsr etdiyi əsər Azərbaycan rəngkarlıq sənətində yeni üslub tərzi ilə seçilir. Həmin əsər 3D formatlı rəsmin Azərbaycan rəssamlığında ilk nümunələrindən biri kimi, vitraj və peyzaj yaradıcılığının vəhdətindən ibarət təsirli sənət örnəyidir. Rəsmə baxdıqca, sanki, adamı alov qarsır, özünü faciənin qoynunda hiss edirsən.

Soydaşımızın əsərləri bir çox xarici sərgilərdə də maraq doğurub. Onun rəsmləri Amerika, Polşa, İsveçrə, Türkiyə, Rumıniya, Qazaxıstan incəsənət həvəskarlarının kolleksiyalarına daxildir. Elə bu yaxınlarda Türkiyənin İzmir şəhərində "Amazonlar və Tiranlar" adlı sərgidə iştirak edib. Bir qayda olaraq, öz əsərləri ilə fərqlənməyi bacaran rəssam gənclərə də dəstək verir. Onların sərgilərinin təşkilinə, beynəlxalq incəsənət festivallarına qatılmalarına kömək edir.





**– Sizin bir rəssam kimi ustadınız kim olub?**

– Mənim ustadım Rəis Rəsulzadədir – Məhəmməd Əmin Rəsulzadənin nəvəsi. O vaxtlar sovet senzurası səbəbindən biz Məhəmməd Əmin Rəsulzadənin kim olduğunu bilmirdik. Emalatxanada Rəis müəllim tez-tez babası haqqında söhbətlər edərdi. Mən də onun kim olduğunu bilmədiyim üçün öz babamdan danışardım (gülür). 1988-ci il mitinqləri başlananda Azadlıq meydanında Rəsulzadədən danışıldığını eşidəndə təəccüblənmişdim. Ən yaxındakı telefon köşkünə gedərək oradan Rəis müəllimə zəng edib, həyəcanla demişdim ki, müəllim burda sizin babanızdan danışırlar.

**– Tez-tez xarici səfərlərdə olursunuz, getdiyiniz ölkələrlə bağlı sənət təəssüratlarınız necədir: onlar və biz seçilirikmi?**

– Ümumiyyətlə, bu gün dünyada incəsənət arxa plana keçib. Mənəviyyat maddiyyata məğlub olur. Amma sənət yaşayır, mübarizə aparır. Azərbaycan dövləti daim mədəniyyətə, incəsənətə diqqət və qayğı göstərir. Sadəcə adamlar bu dəyərləri bəzən arxa plana keçirirlər. Sərgilərə az adam gəlir. Bu yöndə təbliğatı gücləndirmək lazımdır.

Nəvai Mətin haqqında təkcə sənət dostları deyil, sənətsevərlər də yüksək fikirdədirlər. Onun haqqında oxuduğum fikirlər, mötəbər sənət adamlarının qənaətləri, təbii olaraq, Azərbaycan və Türkiyənin mədəni mühitində, sənət dünyasında geniş tanınan Nəvai Mətinin obrazını yaradır. Bu obraz yazıçı Aslan Quliyevin dediyi kimi, "rənglər və işıq dünyasının adamı", "həyatın işığını əsərlərinə hopduran" bir rəssamın portretini göz önündə canlandırır.

*Rüfət MƏHƏRRƏMOV*

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 139 (30255) 7 iyul 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

## İdman xəbərləri

### Ağırlıqqaldıranlarımız 2 medal qazanıblar

**Moldovanın paytaxtı Kişineuda 15 və 17 yaşlı yeniyetmə oğlan və qızlar arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyində idmançılarımız iki medal qazanıblar.**



Körpücük üzərinə çıxan Turan Əliyev yaşı 17-dək olan oğlanlar arasında 67 kiloqram çəki dərəcəsində birdən qaldırma hərəkətində 114, təkanla qaldırma hərəkətində 136 kiloqramı ram edib. Toplam 250 kiloqram nəticə göstərən T.Əliyev yekun sıralamada bürünc medal qazanıb.

Komandamızın digər üzvü, 67 kiloqram çəki dərəcəsində çıxış edən Yunis Bayramov isə yaşı 15-ə qədər olan oğlanlar arasında birdən qaldırma hərəkətində 99 kiloqramı ram edib və bu hərəkətdə üçüncü yeri tutub.

### Komandamız Estoniya yığmasına uduzub

**Bakıda təşkil olunan dünya çempionatının seçmə mərhələsində çimərlik futbolu üzrə Azərbaycan millisi A qrupunda ikinci oyununu keçirib.**



Bakı Su İdman Sarayının ərazisindəki çimərlik futbolu meydançasında Estoniya millisi ilə qarşılaşan komandamız rəqibə 4:7 hesabı ilə məğlub olub. Bununla da Azərbaycan yığması turnirdən kənarda qalıb.

Qeyd edək ki, Azərbaycan komandası bundan əvvəlki oyunda Moldovaya 2:3 hesabı ilə məğlub olub.

### Formula 1 Azərbaycan Qran-Prisinin vaxtı müəyyənləşib




**2024-cü ildə keçiriləcək Formula 1 üzrə Azərbaycan Qran-Prisinin vaxtı açıqlanıb.**

Bakı şəhər halqasında keçiriləcək yarışın sentyabrın 13–15-də təşkili nəzərdə tutulub. Bundan sonra Azərbaycan Qran-Prisi ilk dəfə sentyabra təsadüf edəcək.

Qeyd edək ki, fevralın 29-da Bəhreyn Qran-Prisi ilə startı veriləcək mövsüm ərzində 24 yarış keçiriləcək. İlin son yarışı isə dekabrın 6-8-də Abu-Dabidə olacaq.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

## Texnologiya yenilikləri




### "Super-intellekt" insanı süni zəkadan qoruyacaq

**Süni intellekt sistemlərinin yenilikləri dünya gündəminin əsas mövzularından biridir. Lakin süni zəka bəşəriyyətin həm də sonu ola bilər. Bunun qarşısının alınması üçün "OpenAI" şirkəti "super-intellekt" adlanan xüsusi sistem qurur.**

Süni intellekt risklərini idarə etmək üçün yaradılan sistem ən istedadlı və ağıllı insandan da mükəmməl olan, bir çox təcrübə sahəsində uğur qazanan süni zəka modelidir. Şirkət "super –intellekt"in bəşəriyyətin indiyə qədər icad etdiyi ən effektiv texnologiya olacağını və dünyanın ən aktual problemlərinin çoxunu həll etməyə kömək edəcəyini düşünür.

Qeyd edək ki, hazırda "super –intellekt"in sınaqlarına başlanılıb. Şirkət modeli 10 il ərzində təqdim etməyi planlaşdırır.

*Aytən NƏCƏFOVA, "Xalq qəzeti"*

### "Threads" "Twitter"in rəqibidir

**"Facebook"un sahibi "Meta" şirkəti "Twitter"ə rəqib olaraq inkişaf etdirdiyi "Threads" platformasını ictimaiyyətə təqdim edib. "Instagram" ilə birlikdə işləyəcək proqram "Google Play" və "App Store"da yerini alıb. İlk 7 saat ərzində 10 milyon insan proqrama qoşulub.**



Platformada ilk paylaşımı şirkətin CEO-su Mark Zukerberq edib. "Düşünürəm ki, bir milyarddan çox insanın istifadə edəcəyi ictimai söhbət proqramı olmalıdır. "Twitter" bu şansını itirdi. Ümid edirəm ki, biz bunu bacaracağıq" – deyə o bildirib.

"Twitter"dəki "twit"lər, "Threads"da "treds" adlanır. Platformada rəmz limiti 500-dür, lakin "Twitter"də bu rəqəm əksər istifadəçilər üçün 280-dir.

Qeyd edək ki, hazırda sosial şəbəkələrdə ən trend mövzulardan biri "Threads"dir. Platforma eyni anda 100 ölkədə mövcud olsa da, Avropa Birliyində istifadəçilər üçün əlçatan deyil. Səbəbi isə AB-nin nizamnamələridir.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## Sosial şəbəkələrdən seçmələr

### Yapon nümunəsi: Kim öndə olmalıdır?

**"Facebook" sosial şəbəkəsində maraqlı statusları ilə diqqət çəkən istifadəçilərdən biri Sumqayıtda yaşayan ziyalı Hümbət Həsənoğludur. Qəzetimizin bu rubrikasında onun müxtəlif mövzularda qələmə aldığı bir neçə statusunu vermişik. Hümbət Həsənoğlu ixtisasca həkim-oftalmoloqdur, eyni zamanda Azərbaycanda və Türkiyədə aforizmlərdən ibarət bir neçə kitabı nəşr olunub. Bu gün onun maraqlı bir müşahidəsini oxuculara təqdim edirik:**




"Yapon turistlərini xaricdə çox görmüşəm. Onları digərlərindən bir xüsusiyyət fərqləndirir. Qrupun önündə gedənin əlində mütləq yapon bayrağı olur. Öyrəndim ki, yaponlar hara gedirlərsə, o yerə yaxşı bələd olan, yerli dili bilən qabağa düşüb yapon bayrağını əlinə götürür. Hamı da anlayır ki, bayraq həmişə yerli dili və marşrutu bilən insanın əlindədir. Təkcə səfərlərdə deyil, Yaponiyanın özündə də bu qayda əsasdır: lazım olanı bilən önə keçirilir. Bu sadə yanaşma ilə yaponlar bütün sahələrdə öndədirlər".

Göründüyü kimi, söhbət məhz kimin flaqman olmasının vacibliyindən, həmçinin dövlət bayrağının hər yerdə təbliğindən gedir. Bu baxımdan yaponların qeyd edilən xüsusiyyəti nümunə sayıla bilər.

Rəhmətlik Şəhriyar da uğur düsturu sayılan bu sadə həqiqəti nəzərdə tutaraq deyirdi ki, avropalılar işi işibilənə tapşırdıqları üçün öndə gedirlər.

*Təqdim etdi: Ə.NƏCƏFXANLI, "Xalq qəzeti"*

## Sağlamlıq

### Günəş şüalarından necə qorunaq?

**Yay mövsümündə günəşdən yayılan intensiv ultrabənövşəyi (UV) şüaların zərərli təsirlərindən qorunmaq çox vacibdir. Bu şüalar yanıqlara, dəri xərçənginə və genetik mutasiyaya səbəb ola bilər. Buna görə də qorunma zamanı diqqətli olmaq lazımdır.**

#### Sağlam qaralma

Münhendə bir xəstəxana qrupunun dermatoloqu olan Daniela Hartmann qaralmağın insan sağlamlığı üçün heç də yaxşı əlamət olmadığını deyib. O



bunu qaralma zamanı dərinin günəş şüalarından zərər görməsi ilə izah edib.

#### Günəş kremindən istifadə

Bədənin bütün nahiyələri üçün kiçik bir günəş kremi kifayət etməyə bilər. İnsanların çoxu günəşdən qorunmaq üçün lazım olduğundan da az günəş kremindən istifadə edirlər.

Dermotoloqlar günəş vannası qəbul edənlərə qorunmaq üçün dərinin hər kvadrat santimetrinə, ən azı, 2 milliqram tərkibində SPF olan günəş kremlərindən istifadə etməyi məsləhət görürlər.

#### Bəs gözlərimiz?

Bədənimizi günəşin zərərli təsirlərindən qoruyarkən bəzən gözlərimizi unuduruq. Amma bilmirik ki, gözlərimiz fotokeratit və ya tibbi dildə ultrabənövşəyi keratit kimi tanınan güneş zədələnməsinə məruz qala bilər. Bu ağrılı vəziyyət ultrabənövşəyi şüalara uzun müddət, qorunmadan məruz qaldıqdan sonra baş verə bilər. Bu cür tipik simptomlara güclü ağrı, fotofobi - parlaq işıqda göz narahatlığı, bulanıq görmə və işığa artan həssaslıq daxildir.

Günəş eynəkləri müəyyən miqdarda qorunma təmin edir. Bunun üçün kiçik, yuvarlaq "UV-400" və ya "UV-dən 100% qorunma" kimi dəbli linza



modellərindən istifadə etmək tövsiyə olunur. Bu qoruyucu linzalar istifadəçini UV şüalarının yan təsirlərindən müdafiə edir, görmə qabiliyyətini daha da yaxşılaşdırır.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

### Tələbə model peyk müsabiqəsi başa çatıb

**"CanSat Azərbaycan 2023" tələbə model peyk müsabiqəsinin qalibləri elan edilib. 1-ci yerin qalibi ADA Universiteti - CanStellar, 2-ci yerin qalibi Xəzər Universiteti - XəzərSat, 3-cü yerin qalibi isə Milli Aviasiya Akademiyası - BadCube komandası olub.**

Ali təhsil müəssisələrinin tələbələri üçün nəzərdə tutulan "CanSat Azərbaycan" müsabiqəsi artıq 5-ci dəfədir ki, keçirilir. Müsabiqənin şərtlərinə əsasən, komandalar tərəfindən kiçik peyk modeli hazırlanır. Qurğu müəyyən edilmiş hündürlükdən buraxıldıqdan sonra yerə endirilir və eniş fazasından sonrakı müddətdə təyin olunmuş missiyanı yerinə yetirir.

*F. SALMANOVA, "Xalq qəzeti"*



## Proqnoz



### Hava isti və günəşli olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyulun 7-də Bakıda və Abşeron yarımadasında günəşli olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi əvəz olunacaq. Gecə 20-25°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütununndan 757 mm civə sütununa enəcək, nisbi rütubət gecə 60-70, gündüz 35-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 34-39°, dağlarda gecə 11-16°, gündüz 17-22° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

✓ 2022-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail Rayon İdarəsi tərəfindən Rzayev Samir Ədalət oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) maliyyə və audit kafedrasının müdiri, professor Əvəz Ələkbərov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsi müdirinin müavini Fikrət Əzizova qardaşı, iqtisad elmləri namizədi, dosent

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsi müdirinin müavini Fikrət Əzizova qardaşı, iqtisad elmləri namizədi, dosent

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İstiqlal Muzeyinin rəhbərliyi və kollektivi elmi fond işləri üzrə direktor müavini Aida Axundovaya anası

**XOŞQƏDƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4076
SİFARİŞ 1665
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00